RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 54 (10074) 2 aprel 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan-Çin strateji tərəfdaşlığı yeni mərhələdə sürətlə inkişaf edir



Bir neçə gün əvvəl Çin Xalq Respublikasının Sədri Si Cinpinin Prezident İlham Əliyevə Novruz bayramı münasibətilə göndərdiyi təbrik məktubunda Azərbaycanla bağlı səsləndirdiyi fikirlər bu münasibətlərin mahiyyətini aydın şəkildə ortaya qoyur. Çin hökuməti və xalqı adından Prezident İlham Əliyevə, Azərbaycan hökumətinə və bütün Azərbaycan xalqına Novruz bayramı münasibətilə təbrik ünvanlanan məktubda deyilir: "Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır. Son illərdə qarşılıqlı siyasi etimad möhkəmlənir, bütün sahələrdə əməkdaşlıq inkişaf edir. Çin ilə Azərbaycan arasında əlaqələrin inkişafına böyük əhəmiyyət verirəm və iki ölkə xalqlarının mənafeləri naminə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra daha da inkişaf etdirilərək yeni səviyyəyə yüksəldilməsi üçün Sizinlə birlikdə səylər göstərməyə hazıram. Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram".

İki ölkə arasında münasibətlər artıq real nəticələr verən, konkret layihələrlə müşayiət olunan yeni inkişaf mərhələsindədir. Xüsusilə 2024-cü ildən etibarən əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi ikitərəfli münasibətlərə yeni məzmun qazandırıb. Bu tərəfdaşlığın səmərəliliyi artan iqtisadi göstəricilər və icra edilən strateji layihələr ilə təsdiqlənir.

2024-cü ildə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı çərçivəsində iki ölkə arasında "Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" bu istiqamətdə ən mühüm hüquqi təməldir. Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çin Xalq Respublikasına dövlət səfəri isə bütün sahələr üzrə qarşılıqlı əlaqələrin dərinləşməsində və strateji hədəflərin müəyyənləşməsində tarixi hadisə oldu. Səfər zamanı imzalanan "Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanat" Azərbaycan-Çin əlaqələrini yeni səviyyəyə qaldırdı. Bu sənəd iki ölkə arasında olan güclü siyasi etimadın bariz nümunəsidir. Çinlə qurulan bu strateji tərəfdaşlıq Azərbaycanın həm regionda, həm də dünyada nüfuzunu artırır. Bəyanat mövcud siyasi əlaqələrin daha da möhkəmləndiyini təsdiq edir, əməkdaşlıq üçün geniş imkanlar açır.

6



## Zamanın çağırışlarını qabaqlayan LİDER

### Prezident İlham Əliyevin praqmatik siyasəti beynəlxalq aləmdə heyranlıqla izlənilir və yüksək qiymətləndirilir

Azərbaycan liderinin həyata keçirdiyi köklü islahatlar ölkəmizi regionun iqtisadi lokomotivinə və enerji təhlükəsizliyinin qarantına çevirməklə yanaşı, həm də beynəlxalq arenada sözü imzası qədər dəyərli olan etibarlı tərəfdaş statusuna yüksəldib. Ölkəmiz dünyada praqmatik liderliyin və strateji sabitliyin mərkəzi kimi tanınır. Vaşinqtondan Brüsselə qədər ən nüfuzlu siyasi mərkəzlərdə İlham Əliyev fenomeninin ölkəsini və regionu dəyişdirən güclü lider kimi xarakterizə olunması Azərbaycanın qazandığı tarixi Zəfərin və qlobal sabitliyə verdiyi töhfələrin dünya miqyasında qəbul edilməsinin nəticəsidir.

ABŞ Prezidenti Donald Trampın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Uitkoffun "FII PRIORITY 2026" forumunda səsləndirdiyi ifadələr məhz bu reallığın növbəti təsdiqidir. S.Uitkoff dünyada seçilən liderlərdən bəhs edərkən Azərbaycan Prezidenti İlham Əliyevə xüsusi diqqət çəkib və dövlətimizin başçısı haqqında yüksək fikirlər söyləyib: "Dünyada bir sıra güclü liderlər var. Mən İlham Əliyevi xüsusi qeyd etmək istəyirəm. O, ölkəsini dəyişdirən xüsusi liderdir". Uitkoff qeyd edib ki, bu cür liderlər yalnız öz ölkələrində deyil, qlobal miqyasda da mühüm rol oynayırlar: "Belə liderlər dünya üçün vacibdir, çünki onlar sabitlik yaradır və əməkdaşlıq üçün imkanlar açır". ABŞ rəsmisi əlavə edib ki, belə liderlərlə qurulan münasibətlər beynəlxalq siyasətdə mühüm əhəmiyyət daşıyır: "ABŞ Prezidenti Donald Tramp məhz belə liderlərlə işləməyə üstünlük verir və bu, qlobal proseslərə müsbət təsir göstərir".

Stiv Uitkoffun çıxışı zamanı vurğuladığı məqamlar yeni geosiyasi reallıqların və ölkəmizin beynəlxalq nüfuzunun təsdiqidir. Bu, Azərbaycanın Cənubi Qafqazda "təhlükəsizlik adası" roluna verilən yüksək qiymətdir. Reallıq odur ki, Azərbaycan yalnız regional oyunçu deyil, qlobal proseslərdə həlledici ölkə qismində çıxış edən, rəyi və iradəsi ilə hesablaşılan aparıcı dövlət kimi qəbul edilir. Uitkoffun Azərbaycan rəhbərini "ölkəsini dəyişdirən lider" kimi xarakterizə etməsi Bakının qət etdiyi uğurlu yolun Ağ Evdə dərindən analiz edildiyini göstərir. Burada söhbət yalnız hərbi qələbədən və ərazi bütövlüyünün bərpasından getmir, həm də karbohidrogen ehtiyatlarından əldə olunan gəlirlərin intellektual kapitala və rəqəmsal iqtisadiyyata yönəldilməsi, idarəçilikdə tətbiq olunan yeniliklər, Azərbaycanın regionun texnoloji mərkəzinə çevrilməsi hədəfləri nəzərdə tutulur.

4

## NƏHAYƏT!

### Xalqımızın mənəviyyatına ləkə gətirən şou-proqramlara son qoyuldu



Həm sovet dövründə, həm də müstəqillik illərində telekanallarda bir çox maraqlı, gərəkli və maarifləndirici veriliş mövcud idi.

Bir neçəsini xatırlatmaq istərdik:

* SSRİ Xalq artisti Mehdi Məmmədovun estetika mövzusundakı söhbətləri;
* Professor Mürsəl Nəcəfovun sənət söhbətləri;
* Akademik Nizami Cəfərovun Azərbaycan dili ilə bağlı verilişləri;

Habelə tariximiz, teatrımız, muğam və simfonik musiqi ilə bağlı maarifləndirici, gəncləri öyrədən və bilgiləndirən digər verilişlər.

Hər birinin də öz auditoriyası vardı.

Niyə bağlandılar?

Niyə yoxa çıxdılar?

Məgər insan yalnız informasiya almalı, gülməli və əylənməlidir?

Öyrənməli deyil?

Teatrın nə olduğunu bilməyənlər teatra gedərlərmi?

Simfonik musiqinin nə olduğunu yalnız musiqiçilər bilməli və dinləməlidirlər?

Azərbaycan bəstəkarlarının dünyaya səs salan simfonik əsərləri, muğam üstə bəstələnmiş simfoniyaları, balet əsərləri niyə unudulub, bir kənara atılıb?!

Nə səbəbə böyük maarifləndirici təsiri olan verilişlər öz yerini bayağı şoulara verdi?

Kimdir günahkar?

Axı bunlar təkcə gərəkli bilgilər vermirdi, həm də müasir gənclərin dünyagörüşünün formalaşmasına müsbət təsir göstərirdi!

Niyə bərpa olunmasın?

Axı televiziya təkcə əyləndirməli, informasiya verməli deyil, həm də maarifləndirməlidir!

5

## Humanizm dəyərlərinə bağlılığın nümunəsi

Ölkəmizdən İrana ilk humanitar yardım martın 10-da yola salınıb. 30 tona yaxın qida məhsulu, o cümlədən 10 ton un, 6 ton düyü, 2,4 ton şəkər, 4 tondan artıq içməli su, 600 kiloqrama yaxın çay, həmçinin 2 tona yaxın dərman və tibbi ləvazimat İrana göndərilib. İkinci belə yük isə martın 18-də yola salınıb. Ümumi həcmi 82 ton olan humanitar yardım müxtəlif adda ərzaq məhsulları, dərman vasitələri və tibbi ləvazimatlardan ibarət olub. Yardımın Novruz bayramı ərəfəsində göndərildiyi nəzərə alınaraq, yük avtomobillərinə bayram sovqatı da əlavə olunub.




İranın ölkəmizdəki səfiri Müctəba Dəmirçilu göstərilən yardıma görə Azərbaycan hökumətinə və xalqına minnətdarlığını bildirib və qeyd edib ki, ilk humanitar yardımın Azərbaycandan göndərilməsi xoş haldır və yüksək qiymətləndirilir. "Bu, bizim müştərək mədəniyyətimizdən irəli gəlir ki, çətin günlərdə bir-birimizə kömək göstəririk. Novruz bayramı ərəfəsində bu müsbət addım və xoş niyyət İran tərəfindən çox yüksək qiymətləndirilir. Ümid edirik ki, gələn bayramları birlikdə qeyd edəcəyik", - deyə səfir əlavə edib.

7

## Kəlbəcər bizimdir!

### Xilaskar Lider İlham Əliyevin bu müjdəsi kəlbəcərlilərin 27 illik yurd həsrətinə son qoydu

1993-cü il aprelin 2-də Murovdan üzü Gəncəyə düzülən köç karvanı, sadəcə, bir bölgənin boşaldılması deyil, Azərbaycanın dövlətçilik tarixindəki ən ağır strateji sarsıntılardan biri idi. Kəlbəcərin işğalı ilə Ermənistan münaqişəni Dağlıq Qarabağın inzibati sərhədlərindən çıxararaq, öz ərazisi ilə birbaşa quru əlaqəsi yaradan genişmiqyaslı işğal zonasına çevirdi. Həmin gün Murovun aşırımlarında zülm çəkən, şaxtada, boranda donaraq can verən körpələr, yaşlılar həm də beynəlxalq hüququn iflasının qurbanları idilər. 1993-cü ilin apreli Azərbaycanın hərbi cəhətdən təkləndiyi, siyasi cəhətdən isə xaosun girdabına sürükləndiyi bir dövrün sənədli sübutuna çevrildi.

Məhz Kəlbəcərin işğalından dərhal sonra 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik



Şurası 822 saylı qətnaməni qəbul etdi. Bu sənəd erməni qüvvələrinin Kəlbəcərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin acı həqiqət ondan ibarət idi ki, kağız üzərindəki bu "tələb" nə Ermənistanı dayandırdı, nə də beynəlxalq birliyi hərəkətə gətirdi.

8

## Yaxın Şərq müharibəsinin uzaq bədbin proqnozları

Hazırda neftin və qazın bahalaşması dünya iqtisadiyyatına öldürücü təsir göstərmir. Bunun səbəbi Avropa ölkələrinin və Çinin neftin qiyməti ucuz olanda yığdığı ehtiyatlardan istifadə etməsi ilə bağlıdır. Enerji üzrə mütəxəssislərin fikirlərinə görə, Avropanın 2-3, Çinin isə 4-5 aylıq ehtiyatı var. Əsl çaxnaşmanın müharibə uzandığı halda başlaması gözlənilir. Bu isə Amerikanın İranda quru hərbi əməliyyatlarına başlayıb-başlamamasından asılı olacaq.

Dünyanı rahatsız edən bir məsələ də ərzaqla bağlıdır. Sirr deyil ki, neftin qiymətinin artması dünya bazarında ərzaq məhsullarının qiymətinin bahalaşmasına birbaşa təsir göstərir. Bununla yanaşı, kənd təsərrüfatı üçün gübrə və digər mineralların əsas ixracatçıları Körfəz ölkələridir. İranın həmin məhsulları istehsal edən müəssisələrə hərbi zərbələr endirməsi, o səbəbdən hazır məhsulların qlobal bazara çıxarılmaması dünyada məhsuldarlığın aşağı düşməsinə səbəb olur.



Bu müharibədən ən çox ziyan isə Avropa ölkələrinə dəyəcək. Bir çox mütəxəssis bu fikirdədir ki, Avropada qaz ehtiyatı tükənmək üzrədir. Hazırda "qoca qitə"də qazın min kubmetrinin alış qiyməti 850 avroya qədər yüksəlib.

6

## Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"da dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 10, maddə 1147) ilə təsdiq edilmiş" Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın 9-cu hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 9.1.2.1-ci, 9.1.3.3-cü və 9.3.5.5-ci abzasların "Əsas icraçılar (fəaliyyət istiqamətlərinə uyğun olaraq) "sütununda "ETSN" akronimi "ADSEA" akronimi ilə, "Digər icraçılar" sütununda "ADSEA" akronimi "ETSN" akronimiilə əvəz edilsin.

2. 9.1.3.2-ci abzasın "Tədbirin adı" sütununda "su mənbələri ehtiyatlarının iqlim amilləri ilə uzlaşdırılması" sözləri "iqlim amilləri nəzərə alınmaqla su ehtiyatlarının qiymətləndirilməsi" sözləri ilə, "Əsas icraçılar (fəaliyyət istiqamətlərinə uyğun olaraq)" sütununda "ETSN" akronimi "ADSEA" akronimi ilə və "Digər icraçılar" sütununda "ADSEA" akronimi "ETSN" akronimi ilə əvəz edilsin.

3. 9.2.3.4-cü, 9.2.3.5-ci, 9.3.1.2-ci, 9.3.1.3-cü və 9.3.3.6-cı abzasların "Digər icraçılar" sütunundan "ETSN," akronimi çıxarılsın.

4. 9.4.1.1-ci və 9.4.1.2-ci abzasların "Əsas icraçılar (fəaliyyət istiqamətlərinə uyğun olaraq)" sütunundan "ETSN," akronimi çıxarılsın və "Digər icraçılar" sütununa "XİN," akronimindən sonra "ETSN," akronimi əlavə edilsin.

5. 9.4.5.1-ci abzasın "Əsas icraçılar (fəaliyyət istiqamətlərinə uyğun olaraq)" sütununa "ETSN" akronimindən sonra ", "ADSEA" akronimi əlavə edilsin və "Digər icraçılar" sütunundan "ADSEA," akronimi çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 mart 2026-cı il*

## "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında Suriya Ərəb Respublikasında təhsil infrastrukturunun bərpası üzrə strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il fevralın 17-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında Suriya Ərəb Respublikasında təhsil infrastrukturunun bərpası üzrə strateji tərəfdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Suriya Ərəb Respublikası Hökumətinə və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 mart 2026-cı il*

## "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Mərakeş Krallığının Ali Təhsil, Elmi Tədqiqat və İnnovasiya Nazirliyi arasında elm və ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il fevralın 16-da Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Mərakeş Krallığının Ali Təhsil, Elmi Tədqiqat və İnnovasiya Nazirliyi arasında elm və ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Mərakeş Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 mart 2026-cı il*

## "Məhkəmə ekspertizası idarələrində aparılan məhkəmə ekspertizalarının siyahısı və məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləği"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 86** **Bakı şəhəri, 19 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Məhkəmə ekspertizası idarələrində aparılan məhkəmə ekspertizalarının siyahısı və məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləği" təsdiq edilsin *(əlavə olunur).*

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 88** **Bakı şəhəri, 19 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Media haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 247-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 303, № 9, maddə 1090; 2025, № 7, maddə 713, № 9, maddə 858; 2026, № 1, maddə 88; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 5 mart tarixli 65 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"na aşağıdakı məzmunda 6.8-3-cü bənd əlavə edilsin:

"6.8-3. Xarici media subyektlərinin filial və nümayəndəliklərinin dövlət qeydiyyatına alınması barədə 3 iş günü müddətində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə məlumat verilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 433 nömrəli Qərarı ilə təsdiq edilmiş "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların öhdəlik daşıyan şəxslərə verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 89** **Bakı şəhəri, 19 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 175-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 may tarixli 392 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 433 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2148 (Cild I); 2024, № 5 (II kitab), maddə 627) ilə təsdiq edilmiş "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların öhdəlik daşıyan şəxslərə verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3-cü bəndin birinci cümləsində "Benefisiar mülkiyyətçi" sözləri "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri" sözləri ilə əvəz edilsin.

2. 2-ci hissə üzrə:

2.1. 2.1.3-1-ci və 2.1.4-cü yarımbəndlər ləğv edilsin;

2.2. 2.1.6-cı yarımbənddə "benefisiar mülkiyyətçi" sözləri "kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri" sözləri ilə əvəz edilsin.

3. 3.1-ci, 3.2-ci və 4.1-ci bəndlərdə "benefisiar mülkiyyətçi" sözləri "kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri" sözləri ilə əvəz edilsin.

4. 5-ci hissə üzrə:

4.1. 5.1-ci bənddə "benefisiar mülkiyyətçi" sözləri "kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri" sözləri ilə əvəz edilsin;

4.2. 5.6-cı bənddən "nominal saxlayıcının hesabında olan benefisiar mülkiyyətçilərə dair məlumatlar istisna olmaqla" sözləri çıxarılsın;

4.3. 5.7-ci bənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafının təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafı iqtisadiyyatın şaxələndirilməsi, sənayeləşmənin dərinləşdirilməsi, ixracın strukturunun genişləndirilməsi və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

Ötən illərdə həyata keçirilən islahatlar nəticəsində alüminium, qızıl, gümüş və misin sənaye istehsalının əsasları formalaşdırılmış, metal filizi ehtiyatlarının bir hissəsi sənayedə istifadəyə yönəldilmişdir. "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə nəcib və əlvan metal yataqları üzrə sənaye hasilatı təşkil edilmiş, müasir emal infrastrukturu qurulmuşdur.

Daşkəsən və Gədəbəy rayonlarında filiz emalı müəssisələrinin yenilənməsi, habelə işğaldan azad edilmiş ərazilərdə perspektivli yataqların istismara verilməsi dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin istehsal və ixrac imkanlarını genişləndirmişdir. Bununla yanaşı, Qərb Sənaye Parkının yaradılması dəmir filizi ehtiyatlarının emalını genişləndirməyə və metallurgiya sənayesində dəyər zəncirini dərinləşdirməyə imkan yaradır.

Eyni zamanda mövcud mineral-xammal bazasından səmərəli istifadə, hasilat və emal mərhələləri arasında istehsal əlaqələrinin gücləndirilməsi, infrastruktur və logistika qərarlarının uzlaşdırılması, eləcə də dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi istiqamətində əlavə tədbirlər görülməsi zəruridir.

Qlobal iqtisadiyyatda gedən enerji keçidi və yüksək texnologiyaların inkişafı fonunda metallara tələbatın yüksəlməsi bu sahənin strateji əhəmiyyətini daha da artırır. Azərbaycan Respublikasının zəngin mineral ehtiyatları, rəqabətqabiliyyətli enerji təminatı, sənaye təşviqi mexanizmləri və Orta dəhliz üzərində yerləşməsi əlaqəli sənaye sahələrinin də dayanıqlı inkişafı üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin xammaldan son məhsula qədər dəyər zənciri üzrə inkişafının sürətləndirilməsi, mineral resurslardan səmərəli istifadə olunması və yüksək əlavə dəyər yaradan metal emalının genişləndirilməsi, habelə metallurgiya məhsullarının ixrac potensialının artırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"nın (bundan sonra - Dövlət Proqramı) layihəsini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Dövlət Proqramının "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamının 1.1-ci bəndində nəzərdə tutulan "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsində əhatə olunmasını təmin etsin;

1.3. dağ-mədən (metal filizləri) və metallurgiya sahəsində özəl sektor tərəfindən hazırda icra olunan və ya icrası planlaşdırılan layihələrin Dövlət Proqramının layihəsində nəzərə alınmasını, habelə Dövlət Proqramı çərçivəsində dəstəklənməsi mexanizminin müəyyən olunmasını təmin etsin;

1.4. Dövlət Proqramında "Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal gücünün "xammal-emal-son məhsul" dəyər zənciri üzrə artırılması və ixrac imkanlarının genişləndirilməsi məqsədilə aşağıdakı tədbirlərin nəzərdə tutulmasını təmin etsin:

1.4.1. elektroliz zavodu layihəsinin tamamlanması və 2030-cu ilədək illik istehsal gücünün 100 000 (yüz min) tona çatdırılması;

1.4.2. alüminium yayma məhsullarının istehsalı layihəsinin davam etdirilməsi və 2030-cu ilədək illik istehsal gücünün 50 000 (əlli min) tona çatdırılması;

1.5. Azərbaycan İnvestisiya Holdinqi tərəfindən hazırlanan texniki-iqtisadi əsaslandırmaya uyğun olaraq, maliyyələşdirmə mənbələrinin müəyyən olunmasını və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə kalsinasiya və anodbişirmə zavodunun tikintisinin həyata keçirilməsini təmin etsin;

1.6. metallurgiya məhsullarının rəqabət qabiliyyətinin artırılması məqsədilə enerji və nəqliyyat tariflərinin təkmilləşdirilməsi, zərurət olduğu təqdirdə əlavə torpaq sahəsinin ayrılması və elektrik enerjisinə tələbatın ödənilməsi ilə bağlı tədbirlər görsün;

1.7. bu Sərəncamın 1.4-cü bəndində nəzərdə tutulan layihələrin, Azərbaycan İnvestisiya Holdinqi tərəfindən hazırlanan texniki-iqtisadi əsaslandırma nəzərə alınmaqla, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün zəruri tədbirlər görsün;

1.8. bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, "Azərbaycan alüminiumu" Açıq Səhmdar Cəmiyyətinin:

1.8.1. aktivlərinin "Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyətinin balansına verilməsini təmin etsin;

1.8.2. kreditor borclarının, habelə dövlət təşkilatlarına olan və "Azərbaycan Alüminiumu" Səhmdar Cəmiyyətini idarə etmək hüququna dair Müqavilə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 31 mart tarixli 678 nömrəli Sərəncamına əsasən ödənilməsinə 25 il möhlət verilmiş, eləcə də Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu qarşısında yaranmış borclarının silinməsi ilə bağlı zəruri tədbirlər görsün;

1.8.3. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi öhdəliyinə xitam verilməsi ilə bağlı zəruri tədbirlər görsün;

1.9. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. "Azərbaycan alüminiumu" Açıq Səhmdar Cəmiyyəti ləğv edilsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, "Azərbaycan alüminiumu" Açıq Səhmdar Cəmiyyətinin qeyri-dövlət təşkilatları qarşısında təsdiq edilmiş borclarının qaytarılmasını Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti və ya qanunda nəzərdə tutulan digər maliyyə mənbələri hesabına müvafiq təsdiqedici sənədlər təqdim edildiyi tarixdən bir ay müddətində təmin etsin.

4. Azərbaycan İnvestisiya Holdinqi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 aprel 2026-cı il*

## "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Notariat haqqında", "İcra haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 250-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 avqust tarixli 462 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 87** **Bakı şəhəri, 19 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Notariat haqqında", "İcra haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 250-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 avqust tarixli 462 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 361 (Cild I); 2024, № 9, maddə 1100; 2025, № 12 (II kitab), maddə 1231) ilə təsdiq edilmiş "İcra məmurlarının fəaliyyətinə nəzarət Qaydası"nın II bölməsinin 3-cü hissəsinin birinci cümləsində "hərracların və ya dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlakın icra xidmətinin müəyyən etdiyi ticarət şəbəkələrində" sözləri "elektron hərracların və ya dəyəri 5000 manatdan az olan daşınar əmlakın "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən müəyyən edilən elektron ticarət platformaları vasitəsilə" sözləri ilə əvəz edilsin.

2. "Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 avqust tarixli 148 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 652 (Cild I); 2024, № 9, maddə 1067) ilə təsdiq edilmiş 11 nömrəli forma yeni redaksiyada verilsin (əlavə olunur).

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606, № 9, maddə 1067; 2025, № 2, maddə 193, № 7, maddə 698) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissənin 5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"5) icra sənədlərinin məcburi icrası ilə əlaqədar daşınmaz əmlakın və rəsmi reyestrdə üzərində hüquqlar qeydiyyata alınan daşınar əmlakın əldə olunması barədə şəhadətnamələr verir;";

3.2. 12-1-ci hissənin birinci cümləsinə "notariat qaydasında təsdiqi zamanı" sözlərindən sonra ", habelə "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 63-cü maddəsinə əsasən icra sənədlərinin məcburi icrası ilə əlaqədar daşınmaz əmlakın əldə olunması barədə şəhadətnamələr (fərdi sahibkarın üzərinə həbs qoyulmuş və ya ipoteka ilə yüklü edilmiş əmlakının tələbkar (ipoteka saxlayan) tərəfindən əldə edilməsi ilə bağlı verilən şəhadətnamələr istisna olmaqla) verən zaman" sözləri əlavə edilsin;

3.3. 15-ci hissənin ikinci abzasından "yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair şəhadətnamələrin verilməsi," sözləri çıxarılsın;

3.4. 49-cu hissənin on üçüncü abzasında "açıq hərracdan" sözləri "hərracda" sözü ilə əvəz edilsin;

3.5. VIII fəsil aşağıdakı redaksiyada verilsin:

"VIII fəsil

**İCRA SƏNƏDLƏRİNİN MƏCBURİ İCRASI İLƏ ƏLAQƏDAR DAŞINMAZ ƏMLAKIN VƏ RƏSMİ REYESTRDƏ ÜZƏRİNDƏ HÜQUQLAR QEYDİYYATA ALINAN DAŞINAR ƏMLAKIN ƏLDƏ OLUNMASI BARƏDƏ ŞƏHADƏTNAMƏLƏRİN VERİLMƏSİ**

122. İcra sənədlərinin məcburi icrası ilə əlaqədar daşınmaz əmlakın və rəsmi reyestrdə üzərində hüquqlar qeydiyyata alınan daşınar əmlakın "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 53.1-1-ci, 53.1-2-ci və 62.20-ci maddələrinə uyğun olaraq tələbkar tərəfindən əldə edilməsi tələbkarın yazılı müraciəti əsasında notarius tərəfindən bu barədə şəhadətnamə verilməsi ilə rəsmiləşdirilir. Şəhadətnamə müvafiq əmlakın tələbkar tərəfindən qəbul edilməsi ilə bağlı tələbkarın iradə ifadəsini özündə əks etdirən, icra məmuru və tələbkar tərəfindən imzalanaraq "Elektron icra" informasiya sistemi vasitəsilə "Elektron notariat" informasiya sisteminə göndərilən protokol əsasında verilir.

123. Şəhadətnamənin mətnində şəhadətnamənin verilmə tarixi, şəhadətnaməni verən notariusun soyadı, adı, vəzifəsi, tələbkar barədə məlumatlar (fiziki şəxsə münasibətdə - soyadı, adı, atasının adı, FİN nömrəsi, hüquqi şəxsə münasibətdə - adı, təşkilati-hüquqi forması, VÖEN-i, fiziki və ya hüquqi şəxsin qeydiyyat ünvanı), icra orqanının adı, icra məmurunun soyadı, adı, atasının adı, icra işi barədə məlumat, şəhadətnamənin hansı protokol əsasında verilməsi, əmlak və onun satış (əldə etmə) qiyməti barədə məlumat göstərilməlidir.";

3.6. 160-1-ci hissənin altıncı-doqquzuncu abzasları müvafiq olaraq yeddinci-onuncu abzaslar hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"İcra haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və müddətdə əmlak notarius vasitəsilə rəsmiləşdirilən alqı-satqı müqaviləsi əsasında açıq bazarda satıldıqda notarius satışdan əldə olunan pul məbləğini depozit hesabından icra xidmətinin depozit hesabına köçürür.";

3.7. 169-1-ci hissənin doqquzuncu abzası ləğv edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 avqust tarixli 293 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1110 (Cild I); 2025, № 2, maddə 196; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 9 fevral tarixli 44 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının tərtib edilməsi Qaydası"nın 2.1.1-ci yarımbəndinin 14-16-cı abzasları ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycanın TDT-yə sədrliyi dövründə təşkilatın nüfuzunun artırılması istiqamətində səylər davam etdiriləcək

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 1-də Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub, təşkilatın çoxtərəfli platforma qismində artan rolu vurğulanıb.

Təşkilata üzv dövlətlər arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və humanitar sahələrdə əməkdaşlığın son illər ərzində əhəmiyyətli dərəcədə genişləndiyi qeyd edilib.

Görüşdə Azərbaycanın TDT-yə sədrliyi dövründə əməkdaşlığın daha da inkişafı, təşkilatın beynəlxalq nüfuzunun artırılması istiqamətində səylərin davam etdiriləcəyi bildirilib.

# Baş nazir Əli Əsədov şimali kiprli həmkarı ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 1-də Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında bir sıra sahələrdə əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Yüksəksəviyyəli qarşılıqlı səfərlərin intensivliyi, parlamentlərarası və siyasi partiyalar xətti ilə əməkdaşlığın inkişafı müsbət qiymətləndirilib.

Humanitar sahədə, xüsusilə mədəniyyət və turizm istiqamətlərində əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd olunub.

Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın önəmi vurğulanaraq, Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi statusunda təşkilatın fəaliyyətinə verdiyi töhfələr qeyd edilib.

Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına Üzv Dövlətlərin Hökumət Başçılarının/Vitse-Prezidentinin Görüşünün əhəmiyyətinə toxunulub.

Tədbirin TDT çərçivəsində hökumətlərarası koordinasiyanın gücləndirilməsi və dövlət başçıları tərəfindən müəyyən edilmiş prioritet sahələr üzrə ortaq gündəliyin daha səmərəli şəkildə irəli aparılması baxımından önəmi vurğulanıb.

# YAP Sədrinin müavini ilə Ulusal Birlik Partiyasının Sədri arasında görüş keçirilib

**Aprelin 1-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin hökumət başçılarının görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Baş naziri, Ulusal Birlik Partiyasının (UBP) Sədri Ünal Üstelin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**



Görüşdə xalqlarımız arasında əlaqələrin tarixi ənənələrə, ortaq dəyərlərə, dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı qeyd olunaraq son illərdə Azərbaycan Respublikası ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında sıx təmasların və milli maraqlara əsaslanan qarşılıqlı fəaliyyətin gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Fəal siyasi dialoq şəraitində iqtisadi, ticari, təhsil, turizm, mədəni, humanitar və digər sahələrdə çoxşaxəli əməkdaşlıq üçün geniş potensialın mövcud olduğu bildirilib.

ŞKTC-nin Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv statusunda qəbul olunmasında Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müstəsna rolunun Şimali Kipr Türk xalqı tərəfindən yüksək qiymətləndirildiyi qeyd olunub. Türk dünyasında işbirliyinin dərinləşdirilməsinin böyük önəm daşıdığı bildirilərək Türk Dövlətləri Təşkilatının mürəkkəb qlobal problemlərlə xarakterizə edilən müasir beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsinin mühüm strateji prioritet olduğu nəzərə çatdırılıb.

Görüş zamanı türk dövlətlərinin hakim siyasi partiyaları arasında münasibətlərin genişləndirilməsinin də diqqət mərkəzində olduğu qeyd edilərək YAP-UBP əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. 2023-cü il noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası arasında imzalanmış üçtərəfli Anlaşma Memorandumundan irəli gələn vəzifələrin indiyədək uğurla icra olunduğu bildirilərək müxtəlif sahələrdə, o cümlədən gənclər arasında təmasların sıxlaşdırılmasının vacibliyi vurğulanıb. 2022-ci ildən başlayaraq hər il iyunun 15-də YAP-ın təşkilatçılığı ilə Şuşa şəhərində keçirilən beynəlxalq konfransın dost və tərəfdaş ölkələrin siyasi partiyaları arasında münasibətlərin inkişafı xüsusunda önəmi qeyd olunub. Qarşılıqlı səfərlər çərçivəsində faydalı fikir və təcrübə mübadiləsinin önəmi diqqətə çatdırılaraq ortaq hədəflərin gerçəkləşdirilməsi istiqamətində bundan sonra da məqsədyönlü birgə fəaliyyətin davam etdiriləcəyinə əminlik ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair də fikir mübadiləsi aparılıb. Regional və beynəlxalq təhlükəsizliyə təhdid yaradan hallara qarşı sistemli mübarizənin önəmi vurğulanaraq bütün məsələlərin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə hörmət olunmaqla beynəlxalq hüquq normaları əsasında və sülh şəraitində həllinin zəruriliyi qeyd edilib.

*"Azərbaycan"*

# Baş prokuror Gürcüstan Vəkillər Kollegiyasının sədri İrakli Kandaşvilini qəbul edib

**Görüşdə dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində Azərbaycan ilə Gürcüstan arasında dostluq münasibətlərinin dinamik inkişafı xüsusi vurğulanıb.**



Qeyd edilib ki, iki ölkə arasında mövcud olan strateji tərəfdaşlığın yüksək səviyyəsi və dövlətlərarası dialoqun davamlı xarakteri siyasi, iqtisadi, nəqliyyat-logistika və humanitar sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi üçün möhkəm zəmin yaradır. Bu münasibətlər, həmçinin iki ölkənin hüquq sistemləri və praktiki hüquqşünasları arasındakı əlaqələrin möhkəmləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

Baş prokuror Kamran Əliyev xarici tərəfdaşlarla əlaqələrin inkişaf etdirilməsinin Baş Prokurorluq üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirərək ölkələrimizin hüquq-mühafizə orqanları, eləcə də vəkillik və məhkəmə qurumlarının təmsilçilərinin qarşılıqlı təcrübə mübadiləsinin hüquq sistemlərinin inkişafı baxımından mühüm töhfə verməsini vurğulayıb.

Gürcüstan Vəkillər Kollegiyasının sədri İrakli Kandaşvili göstərilən qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib, ölkələrimizin həm vəkillik qurumları, həm də hüquq-mühafizə orqanları arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirib.

Görüşdə iştirak edən Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov prokurorluq orqanları və vəkillər kollegiyaları arasında mövcud olan yüksək əməkdaşlıq əlaqələrinə toxunub, İrakli Kandaşvilinin Gürcüstan Vəkillər Kollegiyasının sədri kimi ilk rəsmi səfərini Azərbaycana etməsini yüksək qiymətləndirib.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında, o cümlədən hüquq və qanunvericilik sistemində həyata keçirilmiş islahatlar və tətbiq edilən yeni hüquq institutları barədə fikir mübadiəsi aparılıb.

Daha sonra qonaqlar Baş Prokurorluğun cari fəaliyyəti, həmçinin Tarix muzeyi ilə tanış olublar.

*"Azərbaycan"*

# Özbəkistanın Baş naziri Azərbaycanda səfərdədir

**Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov aprelin 1-də Azərbaycan Respublikasına səfərə gəlib.**




AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşılayıblar.

# Qırğızıstanın Baş naziri Azərbaycana səfərə gəlib

**Qırğız Respublikasının Baş naziri Adılbek Kasıməliyev aprelin 1-də Azərbaycan Respublikasına səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşılayıblar.

# Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Azərbaycana səfərə gəlib

**Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel aprelin 1-də Azərbaycana səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov, mədəniyyət nazirinin müavini Fərid Cəfərov və digər rəsmi şəxslər qarşılayıblar.

# Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini Azərbaycana səfərə gəlib

**Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini Nökerquli Ataquliyev aprelin 1-də Azərbaycana səfərə gəlib.**




AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycanın iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşılayıblar.

# Türk Dövlətləri Təşkilatının baş katibi Azərbaycanda səfərdədir

**Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev aprelin 1-də Azərbaycana səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycanın Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Cənubi Qafqaz, Qərbi və Mərkəzi Asiya idarəsinin rəisi Gürsel İsmayılzadə və digər rəsmi şəxslər qarşılayıblar.

# Rusiya İrana humanitar yardımın çatdırılmasında köməyinə görə Azərbaycana təşəkkür edib

**Rusiya tərəfi İrana humanitar yardımın çatdırılmasında göstərdiyi köməyə görə Azərbaycan hakimiyyətinə minnətdarlığını bildirib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova brifinqdə bildirib. Onun sözlərinə görə, martın 27-də İran-Azərbaycan sərhədində - Astarada ikinci böyük tibbi ləvazimat partiyası təhvil verilib: dəmir yolu ilə 300 tondan çox medikament, Dağıstan Respublikası tərəfindən toplanan və karvanla çatdırılan təxminən 150 ton humanitar yardım çatdırılıb.

Zaxarova qeyd edib: "Biz Azərbaycan hakimiyyətinə göstərilən köməyə görə minnətdarıq".

# Türkmənistanla iqtisadi əməkdaşlığın inkişaf perspektivləri dəyərləndirilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, Azərbaycan Respublikası ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri Nökərquli Ataqulıyevlə görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Türkmənistan iqtisadi əməkdaşlığının mövcud vəziyyəti və inkişaf perspektivləri dəyərləndirilib. Ölkələrimiz arasında iqtisadi tərəfdaşlığın davamlı inkişafının önəmi vurğulanıb. Türkmənistanla ticarət və investisiya əməkdaşlığının möhkəmləndirilməsi potensialı qeyd edilib. Bununla yanaşı, müxtəlif istiqamətlər üzrə qarşılıqlı faydalı işbirliyi, birgə layihələrin həyata keçirilməsi üçün imkanlar diqqətə çatdırılıb.

Tərəflər ikitərəfli əməkdaşlığın strateji prioritetlərini, enerji, nəqliyyat-tranzit, logistika və digər sahələrdə birgə fəaliyyətin genişləndirilməsini müzakirə ediblər.

# Zamanın çağırışlarını qabaqlayan LİDER



## Prezident İlham Əliyevin praqmatik siyasəti beynəlxalq aləmdə heyranlıqla izlənilir və yüksək qiymətləndirilir

**Dünyada hərbi-siyasi qarşıdurmaların və qeyri-müəyyənliyin artdığı bir dövrdə dövlətlərin taleyini onların resursları yox, liderlərinin strateji zəkası və uzaqgörənliyi müəyyən edir. Bu gün Azərbaycanın Cənubi Qafqazın hüdudlarını aşaraq qlobal siyasətin mühüm aktorlarından birinə çevrilməsi də Prezident İlham Əliyevin uğurlu rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli və milli maraqlara söykənən müstəqil siyasətin nəticəsidir.**

Azərbaycan liderinin həyata keçirdiyi köklü islahatlar ölkəmizi regionun iqtisadi lokomotivinə və enerji təhlükəsizliyinin qarantına çevirməklə yanaşı, həm də beynəlxalq arenada sözü imzası qədər dəyərli olan etibarlı tərəfdaş statusuna yüksəldib. Ölkəmiz dünyada praqmatik liderliyin və strateji sabitliyin mərkəzi kimi tanınır. Vaşinqtondan Brüsselə qədər ən nüfuzlu siyasi mərkəzlərdə İlham Əliyev fenomeninin ölkəsini və regionu dəyişdirən güclü lider kimi xarakterizə olunması Azərbaycanın qazandığı tarixi Zəfərin və qlobal sabitliyə verdiyi töhfələrin dünya miqyasında qəbul edilməsinin nəticəsidir.

ABŞ Prezidenti Donald Trampın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Uitkoffun "FII PRIORITY 2026" forumunda səsləndirdiyi ifadələr məhz bu reallığın növbəti təsdiqidir. S.Uitkoff dünyada seçilən liderlərdən bəhs edərkən Azərbaycan Prezidenti İlham Əliyevə xüsusi diqqət çəkib və dövlətimizin başçısı haqqında yüksək fikirlər söyləyib: "Dünyada bir sıra güclü liderlər var. Mən İlham Əliyevi xüsusi qeyd etmək istəyirəm. O, ölkəsini dəyişdirən xüsusi liderdir". Uitkoff qeyd edib ki, bu cür liderlər yalnız öz ölkələrində deyil, qlobal miqyasda da mühüm rol oynayırlar: "Belə liderlər dünya üçün vacibdir, çünki onlar sabitlik yaradır və əməkdaşlıq üçün imkanlar açır". ABŞ rəsmisi əlavə edib ki, belə liderlərlə qurulan münasibətlər beynəlxalq siyasətdə mühüm əhəmiyyət daşıyır: "ABŞ Prezidenti Donald Tramp məhz belə liderlərlə işləməyə üstünlük verir və bu, qlobal proseslərə müsbət təsir göstərir".

Stiv Uitkoffun çıxışı zamanı vurğuladığı məqamlar yeni geosiyasi reallıqların və ölkəmizin beynəlxalq nüfuzunun təsdiqidir. Bu, Azərbaycanın Cənubi Qafqazda "təhlükəsizlik adası" roluna verilən yüksək qiymətdir. Reallıq odur ki, Azərbaycan yalnız regional oyunçu deyil, qlobal proseslərdə həlledici ölkə qismində çıxış edən, rəyi və iradəsi ilə hesablaşılan aparıcı dövlət kimi qəbul edilir. Uitkoffun Azərbaycan rəhbərini "ölkəsini dəyişdirən lider" kimi xarakterizə etməsi Bakının qət etdiyi uğurlu yolun Ağ Evdə dərindən analiz edildiyini göstərir. Burada söhbət yalnız hərbi qələbədən və ərazi bütövlüyünün bərpasından getmir, həm də karbohidrogen ehtiyatlarından əldə olunan gəlirlərin intellektual kapitala və rəqəmsal iqtisadiyyata yönəldilməsi, idarəçilikdə tətbiq olunan yeniliklər, Azərbaycanın regionun texnoloji mərkəzinə çevrilməsi hədəfləri nəzərdə tutulur.

Ağ Ev təmsilçisinin çıxışında maraqlı məqamlarından biri də Donald Trampın məhz bu cür güclü liderlərlə işləməyə üstünlük verməsi ilə bağlıdır. Tramp administrasiyası çox vaxt bürokratik ləngimələrdən kənarda olmağı, birbaşa və nəticəyönümlü münasibətləri üstün tutur. Cənab İlham Əliyevin sözü ilə əməli bir olan, milli maraqları kənar təsirlərdən qətiyyətlə qoruyan güclü lider imici D.Trampın praqmatik siyasi baxışı ilə uyğunluq təşkil edir. Önəmli fikirlərin investisiya və gələcək texnologiyaların müzakirə olunduğu forumda səslənməsi də təsadüfi deyil. Bu, beynəlxalq biznes və siyasi dairələrə verilən aydın mesajdır ki, Azərbaycan etibarlı tərəfdaşdır və qlobal gələcəyi formalaşdıran masadadır. Bu bəyanat eyni zamanda Azərbaycan-ABŞ münasibətlərində daha intensiv və strateji tərəfdaşlığa əsaslanan yeni dövrün anonsu da hesab oluna bilər. Uitkoffun sözləri beynəlxalq auditoriyada maraqla qarşılanıb və Azərbaycan liderinin regional və qlobal siyasətdə artan roluna verilən qiymət kimi dəyərləndirilib.

Prezident İlham Əliyevin beynəlxalq müstəvidə tərəddüdsüz qəbul edilən liderliyi strateji reallıqlara əsaslanan səmimi etiraflardır. Dünyanın ən nüfuzlu siyasətçiləri, aparıcı dövlətlərin başçıları və tanınmış analitiklər Azərbaycan liderinin fəaliyyətini xarakterizə edərkən onun bir neçə fundamental keyfiyyətini xüsusi olaraq vurğulayırlar. Nəzərə alaq ki, beynəlxalq siyasətdə ən çətin qazanılan keyfiyyət etibardır. Bir çox dünya lideri cənab İlham Əliyevi sözü imzası qədər dəyərli rəhbər, verdiyi bütün vədlərə sadiq, prinsipial tərəfdaş kimi tanıyır. Xüsusilə Avropa İttifaqı rəsmiləri Azərbaycanı Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş adlandırır ki, bu etimadın arxasında birbaşa Prezident İlham Əliyevin şəxsi nüfuzu və qətiyyəti dayanır. Tanınmış siyasilər tez-tez qeyd edirlər ki, dövlətimizin başçısı Azərbaycanın böyük güclərin toqquşma meydanına çevrilməsinə imkan verməyən, bütün tərəflərlə bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmağı bacaran azsaylı liderlər arasındadır. Bu məqam müasir dövrdə nadir rast gəlinən balanslaşdırılmış, müstəqil və qətiyyətli diplomatiya nümunəsidir.

Azərbaycanın yerləşdiyi coğrafiya mürəkkəb olsa da, İlham Əliyevin yürütdüyü balanslı xarici siyasət regionu böyük güclərin toqquşma meydanından əməkdaşlıq platformasına çevirib. O səbəbdən, Cənubi Qafqazın geosiyasi xəritəsini yenidən formalaşdıran Prezidentimizin hərbi və diplomatik qələbələri dünya hərb elmində və siyasi auditoriyalarında öyrənilir. Hərbi ekspertlər etiraf edirlər ki, Azərbaycanın 44 günlük müharibədə tətbiq etdiyi texnologiya və taktika XXI əsrin müharibə standartlarını müəyyənləşdirdi. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründəki misilsiz fəaliyyəti və COP29 kimi möhtəşəm tədbirə evsahibliyi də ölkəmzin liderliyinin qlobal müstəvidə qəbul edilməsinin göstəricisi idi. Siyasi dairələrdə cənab İlham Əliyev uzaqgörən lider kimi xarakterizə olunur. Münaqişə ocaqları ilə çalxalanan dünyada Azərbaycanın sabitlik adası olması, təhlükəsizliyin ən yüksək səviyyədə təmin edilməsi, rəqəmsal transformasiyaya uğurlu keçidi, süni intellektin tətbiqi və s. addımlar ölkəmizin müasir vizyonunun göstəriciləridir. Dünya rəsmilərinin İlham Əliyevi "ölkəsini dəyişdirən lider" adlandırması bu fundamental inkişafa verilən qiymətdir.

Prezident İlham Əliyev haqqında deyilən yüksək fikirlər, sadəcə, bir ölkənin rəhbərinə deyil, həm də yeni regional reallıqlar yaradan, qlobal proseslərə təsir etmək gücünə malik olan və öz xalqının maraqlarını ən ali səviyyədə qoruyan dövlət xadiminə verilən beynəlxalq dəyərdir. Bu etiraflar bir həqiqəti qəti şəkildə ortaya qoyur: müasir Azərbaycanın uğurları təsadüflərin deyil, dərin zəka ilə hesablanmış strateji gedişlərin və sarsılmaz siyasi iradənin bəhrəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hadisələrin axınını müəyyən edən, beynəlxalq gündəmə yeni mövzular gətirən güc mərkəzinə çevrilib. Dünən xəyal görünən hədəflərin bu gün reallığa çevrilməsi və dünyanın ən böyük paytaxtlarından eşidilən heyranlıq dolu bəyanatlar tarix yazan və gələcəyi quran bir liderin uzaqgörən siyasətinin nəticəsidir. Dünya sürətlə dəyişsə də, bu dəyişikliklər burulğanında Azərbaycanın yeri sarsılmazdır. Çünki zamanın çağırışlarını qabaqlayan güclü və qətiyyətli liderə sahibik. Əminliklə demək olar ki, Azərbaycanın qlobal siyasətdəki önəmli mövqeyi daim müzakirə predmeti sayılacaq. Bakıdan dünyaya yayılan sülh, əməkdaşlıq və inkişaf mesajları yeni nizamın formalaşmasında əsas istinad nöqtələrindən biri olacaq.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Nazir Vilayət Eyvazov Cəlilabadda növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 31-də və aprelin 1-də Cəlilabad rayonunda növbəti vətəndaş qəbulu keçirib.**






Nazir əvvəlcə Cəlilabad rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək onun əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib. Daha sonra polis şöbəsinin inzibati binasında Cəlilabad, Biləsuvar, Cəbrayıl, Salyan və Neftçala rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 356 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb. Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 258 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***"Azərbaycan"***

# Yeni səfir Hindistan vətəndaşlarının təxliyəsinə görə Azərbaycana təşəkkür edib

**Aprelin 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Hindistanın ölkəmizə yeni təyin olunmuş səfiri Abhay Kumarla görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında mövcud münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin əməkdaşlıq məsələləri ilə yanaşı, iki ölkə arasında fikir ayrılığı təşkil edən məsələlərin müzakirəsi baxımından faydalı olacağını qeyd ediblər.

Görüşdə ölkələr arasında tarixi münasibətlərin əlaqələrin təməlini formalaşdırdığı bildirilib, birbaşa təyyarə reyslərinin mövcudluğu, turizm və təhsil sahəsində əməkdaşlığın inkişafı ilə bağlı məmnunluq ifadə olunub.

Enerji sahəsində əməkdaşlığa toxunularaq, Hindistanın "ONGC Videsh" şirkətinin Azərbaycanın "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda və Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərində paya sahibliyinin ikitərəfli iqtisadi əlaqələrin mühüm istiqamətlərindən biri olduğu bildirilib.

Görüş zamanı həmçinin Yaxın Şərqdə mövcud gərginlikdən narahatlıq ifadə olunub. Hindistan səfiri ölkəsi adından İran ərazisindən Hindistan vətəndaşlarının təxliyəsi zamanı göstərilən dəstəyə görə Azərbaycan tərəfinə dərin təşəkkürünü bildirib.

Nazir Ceyhun Bayramov səfiri yeni təyinatı münasibətilə təbrik edərək ona diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Səfir Abhay Kumar görüşə görə təşəkkürünü bildirərək, fəaliyyəti dövründə Azərbaycan-Hindistan münasibətlərinin bütün istiqamətlər üzrə genişləndirilməsinə töhfə vermək niyyətində olduğunu xüsusi vurğulayıb.

# *Bahar MURADOVA:* "Yüksəliş" müsabiqəsi istedadlı və bacarıqlı kadrların inkişafında mühüm rol oynayır

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Mentorluq Proqramı çərçivəsində beşinci "Yüksəliş" müsabiqəsinin qalibi Fatimə Eyyubla görüşüb.**



Dövlət komitəsindən AZƏRTAC-a bildirilib ki, B.Muradova Fatimə Eyyubun uğurunu yüksək qiymətləndirərək onun əldə etdiyi nailiyyətlərin gənc qadınlar üçün motivasiya olduğunu, xüsusilə özünəinamlı və güvənli gənclərin bu prosesdə fəal iştirakına stimul verdiyini deyib. O, "Yüksəliş" müsabiqəsinin ölkədə istedadlı, bacarıqlı və idarəetmə keyfiyyətlərinə malik kadrların üzə çıxarılması və inkişafında mühüm rol oynadığını vurğulayıb. Komitə sədri Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən bu müsabiqənin insan kapitalının inkişafında mühüm rolunu qeyd edərək seçilən savadlı və gələcəyə inamlı gənclərin cəmiyyətin və dövlətin inkişafına töhfə verdiklərini qeyd edib. Bildirib ki, bu platforma yalnız bilik və bacarıqları deyil, həm də iradə, məsuliyyət və cəmiyyətə fayda vermək istəyini ön plana çıxarır.

Görüş zamanı mentinin peşəkar inkişafı, potensialının daha da gücləndirilməsi və gələcək fəaliyyət istiqamətləri ətrafında, eyni zamanda, Mentorluq Proqramı çərçivəsində atılacaq növbəti addımlarla bağlı səmərəli müzakirələr aparılıb.

# Rusiya və Azərbaycan enerji əməkdaşlığını gücləndirir



"Rusiya ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq həm ikitərəfli, həm də üçtərəfli layihələri əhatə edərək sabit və çoxşaxəli olaraq qalır".

Bu barədə rusiyalı ekspert, Milli Enerji Təhlükəsizliyi Fondunun aparıcı analitiki İqor Yuşkov AZƏRTAC-ın saytında yayımlanan "Azərbaycan və dünya" proqramının növbəti buraxılışında bildirib.

Onun sözlərinə görə, Rusiya qazının Azərbaycan ərazisindən İrana tədarükü ilə bağlı müzakirələr davam edir, bu da qış aylarında İslam Respublikasının şimal bölgələri üçün qaz ehtiyatları yaratmağa imkan verəcək. Ekspert izah edib ki, Azərbaycan tranzitdən gəlir əldə edəcək, Rusiya isə bazarlarını orta qiymətlərlə də olsa genişləndirəcək. Bu da bütün iştirakçılar üçün qarşılıqlı faydalı şərait yaradacaq.

Yuşkov vurğulayıb ki, bu cür layihələr region ölkələri üçün strateji əhəmiyyət daşıyır, Cənubi Qafqazda və qonşu ölkələrdə enerji sabitliyinin təmin edilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın rolunu gücləndirir. O həmçinin qeyd edib ki, bu təşəbbüslər infrastrukturun uzunmüddətli inkişafına və ölkələr arasında etimadın artmasına töhfə verir.

İqor Yuşkov daha sonra bildirib ki, Rusiya və Azərbaycanda əsas enerji ənənəvi mənbələrdən istehsal olunsa da, ölkələr külək enerjisi və enerji saxlama texnologiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələrinin birgə inkişafı üçün potensiala malikdir.

O qeyd edib ki, Rusiya, xüsusilə də "Rosatom" Dövlət Atom Enerjisi Korporasiyasının layihələri vasitəsilə bərpaolunan enerji üçün avadanlıq istehsalını fəal şəkildə inkişaf etdirir və bu, Azərbaycanla həm texnologiyalar sahəsində, həm də yeni bazarlara çıxış istiqamətində əməkdaşlıq üçün imkanlar yaradır. Onun sözlərinə görə, karbohidrogenlər hər iki ölkə üçün rəqabət üstünlüyü olaraq qalır, bərpaolunan enerji isə əlavə mənbə kimi istifadə olunaraq texnoloji modernləşməni və enerji sektorunun diversifikasiyasını stimullaşdıra bilər.

Ekspert əlavə edib ki, "yaşıl enerji" sahəsində birgə təşəbbüslər regionda yeni iş yerlərinin yaradılmasına və yüksək texnologiyalı sahələrin inkişafına kömək edə bilər. Bundan əlavə, o vurğulayıb ki, bu, hər iki ölkənin dayanıqlı inkişaf və texnoloji innovasiyaların iştirakçıları kimi beynəlxalq imicini möhkəmləndirir.

# Portuqaliya Azərbaycanda səfirlik açacaq

**Aprelin 1-də xarici işlər naziri Ceyhun Bayramovla Portuqaliyanın dövlət və xarici işlər naziri Paulo Rangel arasında telefon danışığı aparılıb.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazirlər telefon danışığı zamanı Azərbaycanla Portuqaliya arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini, eləcə də regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər.

Portuqaliya naziri ölkəsinin Azərbaycandakı diplomatik təmsilçiliyinin səviyyəsinin qaldırılması və ölkəmizdə səfirlik açmaq barədə qərar verildiyini diqqətə çatdırıb. Nazir Ceyhun Bayramov bu qərara görə təşəkkür edib.

Nazirlər ikitərəfli münasibətlərin inkişafı istiqamətində siyasi məsləhətləşmələr mexanizminin və qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıblar. İkitərəfli əməkdaşlığın iqtisadiyyat, enerji, ticarət, nəqliyyat və turizm sahələrində genişləndirilməsi üçün mövcud imkanlar nəzərdən keçirilib.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunaraq qarşılıqlı dəstəyin davam etdirilməsinin vacibliyini qeyd ediblər.

Nazirlər Yaxın Şərqdə artan hərbi eskalasiyadan narahatlıqlarını ifadə edib, münaqişənin diplomatik həllinin zəruri olduğunu diqqətə çatdırıblar. Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# NƏHAYƏT!




## Xalqımızın mənəviyyatına ləkə gətirən şou-proqramlara son qoyuldu

Nəhayət!!!

Nəhayət, Azərbaycan xalqının mənəviyyatına, milli-mənəvi, xüsusən ailə dəyərlərinə, bütövlükdə xalqımızın mentalitetinə böyük ləkə vuran özəl kanallardakı biabırçı verilişlərə son qoyuldu!

*Söhbət aparıcıları, verilişlərin məzmun və mahiyyəti, ifadə tərzi və üslubu, ekspertləri və qonaqları, ən nəhayət, qəhrəmanları bir-birindən fərqlənməyən şou-proqramlardan gedir.*

*"Şou-proqram" ifadəsi də şərtidir.*

**Bu verilişlər mövcud olduqları uzun illər ərzində özlərinə elə bir "yeni", indiyədək mavi ekranlarımızda olmayan "sima" formalaşdırmışdılar ki, əsl adları hələ dəqiq tapılmayıb.**

*Xalq arasında isə yığcam adları məlumdur:*

*"Elgizin verilişi" - ("Elgizlə izlə") ARB-də.*

*"Xoşqədəmin verilişi" - ("Səni axtarıram") ARB-də.*

*"Zaurun verilişi" - ("Bizimləsən") ATV-də və "Həmin Zaur" - ARB-də (Söhbət iki Zaurdan - Zaur Baxşəliyev və Zaur Kamaldan gedir).*

*"Tolikin verilişi" - ("Tarixin bir günü") SPACE-də.*

*"Zaur Nəbioğlunun verilişi" - ("Rəngarəng") ATV-də.*

*("Amil Xəlilin verilişi" - ("Gəl, danışaq") SPACE-də və "Azərtaşın verilişi" - ("Təsir dairəsi") Xəzər TV-də nədənsə unudulub).*

**Əslində, bu verilişlər "köhnə termin"lə desək, çayxana söhbətlərinin, kənd arvadlarının doqqazda pıçıltı ilə danışdıqlarının mavi ekranlara gətirilməsi, dedi-qodu və dalca danışılanlara "vətəndaşlıq hüququ" verilərək "milyonların malı"na çevrilməsi idi.**

*Başqa sözlə, ictimai şəkildə danışılması ayıb sayılanların utanmadan müzakirəyə çıxarılmasıydı.*

Proqramlar arasında gizli bir rəqabət də vardı:

**Kim daha böyük biabırçılıqla "sensasiya" yaradacaq.**

Şou-proqramlar əsasən iki istiqamətdə idi:

*Birincilər "oxuyançı"ların təbliği və nümayişi;*

*İkincilər ailə institutunun məhvinə yönəldilən əhvalatlar və vaqeələr sayılırdı.*

"Oxuyançı"lara Əməkdar və Xalq artistlərindən tutmuş "sənətə yeni qədəm qoyanlar" da daxil idi!

**Bu verilişlərin "baş qəhrəmanları" xalqın terminindən istifadə etsək, "manıslar" sayılırdı.**

Həmin "manıs qəhrəmanlar" mavi ekranlarda Azərbaycan xalqının:

* ağsaqqallarını;
* ağbirçəklərini;
* ziyalılarını;
* alimlərini;
* müdrik insanlarını əvəz etmişdilər.

*Təkcə sənətlə deyil, həyatla bağlı "müdrik fikirlər" söyləyirdilər.*

*Əslində, "manıs"lar başımıza "ağılqoyan"lara çevrilmişdilər.*

Belə "qonaq"lar öz məqsədlərini gizlətmirlər də:

* Təzələr toy tutmağa;
* Köhnələr isə toy məzənnələrini qaldırmağa çalışırdılar.

**Bir çoxunun sosial şəbəkələrdə etirafına görə, şou-proqramlara "elə-belə" çıxmırdılar, müəyyən, "veriliş sahibi"nin "blat"ına uyğun məbləğ ödəyirdilər.**

*Maraqlıdır ki, bəlli şəxslərin belə etiraflarına adıçəkilən telekanalların rəhbərləri heç zaman heç bir reaksiya vermir, təkzib və ya təsdiq etmirdilər!*

"Sənət"ini nümayiş etdirmək üçün ekranlara çıxanlar isə nadir hallarda - mübahisəli məqamlar yarananda canlı oxuyurdular.

**Çox vaxt studiyada ansambllar boş-bekar oturaraq yalandan ifa görüntüsü yaratsalar da, "qəhrəman" əlinə mikrofon götürərək ağzını açıb-yumsa da, əslində, fonoqramma səsləndirilirdi.**

*Daha çox "manıs" qadınlar özlərinə əl qatırdılar.*

**Geyim adında "aşağıda və yuxarıda" bir şey olmasa da, əsas diqqət həkim bıçağı və digər vasitələrlə düzəldilmiş "bədən quruluşu"nun nümayişinə yönəlirdi.**

Operatorlar (yəqin ki, "xüsusi tapşırıq" əsasında) arxadan "böyük planda" çəkilişlərə ayrıca yer verirdilər.

Halbuki bütün hallarda ifaçının tamaşaçıya arxa çevirməsi ayıb və qeyri-peşəkarlıq sayılır.

*Amma burada məqsəd təkcə olmayan səsin deyil, olan bədənin nümayişi idi!*

Sual-cavabla, yeni "istedad"ın keçdiyi "həyat yolu" ilə bağlı xatırlanan hadisələr maraqlı olmaya bilərdi.

**Şoumenin (yəni verilişi aparanın) əsas ustalığı, "elmi dil"də desək, "peşəkarlığı" münaqişə və qarşıdurma yaratmaq sayılırdı.**

Çox halda bunu qəsdən, qonaqlarla əvvəlcədən razılaşma əsasında edirdilər.

"Manıs"lardan biri digərinə söz atardı...

Cavabı dərhal gələrdi...

Nəticədə ekrana layiq olmayan vəziyyət, yəni istədikləri "şou" yaranardı...

Bu halda şoumen özünü hədsiz dərəcədə "xoşbəxt" sayardı!

Deməli, qalmaqal alındı!

Deməli, qalmaqal yarandı!

Artıq sosial şəbəkədə, xəbər saytlarında müzakirə olunacaq "ifadələr", videoepizodlar var idi!

Deməli, bu veriliş ətrafında müzakirələr uzanacaqdı...

Deməli, bu veriliş "partladacaqdı", baxışlar rekord qıracaqdı!

*Bu tipli verilişlərdə şoumenlərin "peşəkarlığı" və "məharəti" qalmaqalın yaranması, onun "tündlüyü" və "uzunömürlülüyü" ilə ölçülürdü.*

**Görün, Azərbaycanın adıçəkilən telekanalları nə günə qalmışdı ki, onun peşəkarlığını "qalmaqalçılar" müəyyən edirdi.**

❖ ❖ ❖

**İkinci qisim şou-proqramlar ailə dəyərlərinin, milli adət-ənənələrin məhvinə hədəflənmişdi.**

*Ən pisi isə o idi ki, bu tip verilişlər "daha gəlirli" hesab olunurdu.*

*Odur ki, yaradılandan sonra onlara ayrılan efir vaxtı mütəmadi şəkildə artırılırdı...*

Əvvəlcə bir saat, sonra iki, üç, hətta dörd-beş saat.

Biri itənləri axtarırdı, o biri dulları evləndirirdi, digərləri ailə xəyanətlərini axtarıb aşkarlamaqla məşğul olurdu və s.

Adları fərqli olsa da, verilişlərin struktur quruluşu və mahiyyətləri eyni idi.

**Şoumen (köhnə dildə aparıcı) ixtisasca jurnalist (nadir hallarda) olsa da, hətta Əməkdar jurnalist adını alsa da, verilişdə artistlik edirdi...**

Amma fərqli bir artistlik!

Bu artistliyin əsasında "Şeyx Nəsrullahlıq" dayanardı!

*Bəzən özləri kədərli türk şərqiləri fonunda "haray" çəkər, hadisələrin şiddətindən "sarsılar", bəzən "müdrikləşər", el "ağsaqqalına" və ya "ağbirçəyinə" çevrilərdilər.*

* Guya bunlar milli dəyərlərimizin qoruyucusudurlar...
* Guya bunlar "pis"ləri ifşa edənlərdir...
* Guya bunlar "itən"ləri tapıb ailələrinə qovuşduranlardır...
* Guya bunlar yeni, "xoşbəxt ailə" yaradanlardır...
* Guya bunlar Azərbaycan xalqının mentalitetinə uyğun gəlməyən halları ifşa edənlərdir!

Amma bütün qəhrəmanları mənfi tiplər və uğursuz fərdlər olurdu:

* Pis atalar;
* Nankor övladlar;
* Bir-birinə düşmən qardaş və bacılar;
* Qəddar qayınana və qayınatalar;
* Xain dostlar və s. verilişlərə gətirilərək qarşıdurma yaradılardı!

Adları müxtəlif olan verilişlərin (şou-proqramların) iştirakçıları xaraktercə eyni olurdu.

Şoumen-aparıcı dirijorluq edərdi.

Qonaqlar (deyilənlərə görə, onların bir qisminə iştiraka görə müəyyən məbləğ də verilirdi) verilişin "sahib"inin işarəsi ilə alqışlar səsləndirər, fon yaradardılar.

*"Günün qəhrəmanı" seçilmiş şəxslər əvvəlcədən özlərini necə aparmaları barədə təlimatlandırılar, hansı məqamda necə ağlayacaqları izah edilər, "cızıqdan kənara çıxanda" isə veriliş sahibinin qəzəbinə tuş gəlirdilər.*

Ekspertlərin (onlar da həmin verilişlərdə "elə-belə" iştirak etməzdilər) vəzifələri gedişatdan asılı olaraq bu və ya digər tərəfi müdafiə etməklə "meydanı qızışdırmaq" idi.

İlk vaxtlarda hətta Milli Məclisin deputatlarından ekspert qismində iştirak edənlər də vardı, sonra mətbəxdə nələr baş verdiyini bilən millət vəkilləri bu funksiyadan imtina etdilər.

Daha sonra hüquqşünaslara üstünlük verilərək hər şou-proqram özünə bir "müdafiəçi" tapdı.

Lakin qanunun şouya müdaxiləsi mənəvi iflasın qarşısını almadı, əksinə, insanlarda müəyyən çaşqınlığa səbəb oldu.

*Mənəviyyat qanunla tənzimlənmir, qanun mənəvi deqradasiya cinayətin qırmızı xəttini keçəndə müdaxilə edə bilir.*

Odur ki, belə verilişlərdəki iştirakçı hüquqşünaslar daha çox qızışdırıcı mövqe sərgiləyirdilər.

Başqa sözlə, verilişdaxili sabitlik və sakitlik yarananda, qalmaqal soyuyanda yenidən ocağa neft tökürdülər.

"Əsərin qəhrəmanı"na çevrilən və üzərlərində şou qurulan "baş iştirakçılar" da müxtəlif olurdular:

* Aldadılaraq verilişə çıxarılanlar;
* Efirdə görünmək həvəsində olanlar;
* Kimdənsə qisas almaq üçün öz istəyi ilə şou iştirakçısına çevrilənlər;
* Yaxud verilişin həyatlarında nəyisə dəyişəcəyini güman edən avamlar, sadəlövhlər və s.

*Nəticədə bir "udan" və bir "uduzan" olurdu:*

**Udanlar sadaladığımız şou-proqramların icazəverənləri, yəni rəhbərləri, şoumen-aparıcıları sayılırdı.**

*Uduzan isə xalqımızın milli-mənəvi dəyərləri, televiziyaya çıxaraq danışmaqla nəinsə dəyişəcəyinə və düzələcəyinə səmimi-qəlbdən inananlar, başqa sözlə, aldananlar olurdu.*

❖ ❖ ❖

Bağlanmış şou-proqramlarla əlaqədar cavabını gözləyən müəyyən suallar da mövcuddur.

Yazımızda onların bir qisminə toxunduq.

İndi isə diqqəti üç mühüm məsələyə çəkmək istəyirik:

**Bunlardan birincisi aparıcılarla (şoumenlərlə), həm də onların şəxsiyyətləri və "oriyentasiya"ları ilə bağlıdır.**

*Nədənsə sosial şəbəkələrdə bu barədə gedən söz-söhbətlərə heç kəs (kanal rəhbərlərini nəzərdə tuturuq) reaksiya vermirdi.*

Mədəniyyətdən və mənəviyyatdan danışılan verilişlərdə "aparıcı-ittihamçı"nın şəxsi keyfiyyətlərinin vacib məsələ olduğu sanki unudulmuşdu.

**Aparıcıların davranışına, işlətdikləri ifadələrə də nədənsə göz yumulurdu.**

*Verilişi aparan özünü efirin ağası hesab edirdi:*

* Özünü hökmlü, ötkəm göstərir, iştirakçılarla qaba, hətta bəzən ədəbsiz davranırdı;
* Hərdən təhqiramiz, aşağılayıcı suallar da verirdi;
* Qonaqların azacıq etirazlarını belə süngü ilə qarşılayırdı;
* Müzakirələri sakit axarda aparmağa yox, daim qarşıdurma, qalmaqal, ziddiyyət yaratmaqla proqramı "maraqlı" etməyə can atırdı;
* Hətta verilişdə iştirak edən doğmaları belə bir-birilə vuruşduraraq konflikt yaratmağa çalışırdı;
* İctimai müzakirəyə çıxarılması məqbul sayılmayan, ədəbsiz mövzuları ekrana gətirməklə tərbiyəsizliyi və əxlaqsızlığı adiləşdirməyə nail olurdu.

Belə proqramlara sahiblik edənlərin heç biri ixtisasca jurnalist deyildi.

Əgər təsadüfən içərisində bir-ikisi olsa belə, onların aparıcılıqlarında bu, qətiyyən görünmürdü.

**Nə jurnalist ləyaqəti sezilirdi, nə də Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydalarına əməl edilirdi.**

❖ ❖ ❖

**Müəmmalı məqamlardan biri adıçəkilən verilişlərin reklamdan korluq çəkməmələri idi.**

*Bilmək olmurdu ki, reklamlar verilişə verilir, yoxsa onun "sahibi"nə.*

**Maraqlı burasıdır ki, həmin aparıcılar verilişdən gedəndə həmin reklamları da özləri ilə aparırlar...**

*Sonralar həmin reklamlar həmin aparıcının açdığı digər "reytinqli" verilişlərdə yerləşdirilirdi.*

Hətta üzərlərinə şoumenin adı ilə "filankəsin reklamı" yarlığı yapışdırılırdı.

Xeyir ola.

*Əvvəla, filankəs kimdir ki, özünəməxsus "reklam bazarı"na malik olsun?!*

*İkincisi, o "reklam bazarı"nın sahibi niyə öz reklamlarını məhz "filankəs"ə, məsələn, Elgizə, Tolikə, Xoşqədəmə, zaurlara verir, həm də məhz mənəviyyatsız verilişlərdə yerləşdirilmək üçün.*

Məqsədi nədir?

Əgər reklam vasitəsilə biznes gəlirlərini artırmaq istəyirsə, bu, anlaşılandır.

**Yox, əgər öz reklamını məhz həmin aparıcının verilişində və həmin məzmunlu proqramlarda yerləşdirməkdə qətiyyətlidirsə və onların olmadığı təqdirdə öz gəlirindən əl çəkməyə razıdırsa, bu, anlaşılan deyil.**

**Üçüncü müəmmalı məqam "reytinq" müəyyənləşdirən qurumla bağlıdır.**

Müstəqil jurnalistlər dəfələrlə reytinqölçənlərlə maraqlanıblar:

* Reytinqi hansı qurum və ya təşkilat nə ilə müəyyənləşdirir?
* Bu gözəgörünməz "aparat"la ölçülən reytinqin obyektivliyinə kim zəmanət verir?
* Reytinq qurumu özümüzündür, yoxsa xarici təşkilatdır?
* Niyə reytinqölçənlərin adları və onların kimlikləri daim gizlədilir, sirr kimi saxlanılır?
* Onlar Azərbaycanda yerləşərək fəaliyyət göstərirlər, yoxsa ölkə kənarında oturaraq işlərini görürlər?
* Necə olub ki, məhz bu mənəviyyatsız verilişlər daim yüksək reytinq toplayıb?
* Belə şoulara yüksək reytinq verərək onları yaşatmaqda niyyət və məqsəd nə olub?

**İndiyədək başda Audiovizual Şura olmaqla kimsə bu suallara dəqiq və konkret cavab verməyib.**

Bəlkə də vermək istəməyiblər.

Baxmayaraq ki, müəmmalar çoxdur.

Kobud görünsə belə bir müqayisə aparmaq istəyirik:

Taxıl, qarğıdalı, günəbaxan, çuğundur sahələrinin hər hektarında bəlli məhsuldarlıq, habelə rentabellik səviyyəsi var.

Məhsuldarlıq nə qədər yüksək, həmin məhsula bazarda tələbat nə qədər çox olarsa, götürülən xalis gəlir də bir o qədər yüksək olur.

Bunlarla bərabər, hər məhsulun insanlara gərəkliyi baxımından onun bir "mənəvi" tərəfi də var.

*Heç bir məhsul taxılın - çörəyin yerini verə bilməz!*

*Məqsəd yüksək gəlir olsa belə kimsə çətənə kolu becərməyi ağlına belə gətirməz!*

Buna əl qoysa, cinayət törətmiş olacaq.

Çünki onun insanlara, cəmiyyətə vurduğu zərbələr, ağrı-acılar hesabagəlməzdir!

Əgər inansaq ki, haqqında söhbət gedən şou-proqramlar yüksək "reytinq" qazanır, onun xalqın milli adət-ənənələrinə, mənəvi dəyərlərimizə vurduğu zərəri nəzərə almadan belə verilişləri daha çox "əkib-becərməyin", hər telekanalda başqa adlarla, eyni məzmunda olanları açmağın, ilbəil efir vaxtlarını artırmağın məqsəd və mənası nə olub?

Bu, çətənə kolunun becərilməsinə bənzəmirmi?

**Nə yaxşı ki, gec də olsa, yanlış yanaşmanı anlayaraq bu səhvi düzəltmək üçün qətiyyətli addımlar atıldı!**

❖ ❖ ❖

Yeri gəlmişkən, daha bir problemə toxunmaq istəyirik.

Həm sovet dövründə, həm də müstəqillik illərində telekanallarda bir çox maraqlı, gərəkli və maarifləndirici veriliş mövcud idi.

Bir neçəsini xatırlatmaq istərdik:

* SSRİ Xalq artisti Mehdi Məmmədovun estetika mövzusundakı söhbətləri;
* Professor Mürsəl Nəcəfovun sənət söhbətləri;
* Akademik Nizami Cəfərovun Azərbaycan dili ilə bağlı verilişləri;

Habelə tariximiz, teatrımız, muğam və simfonik musiqi ilə bağlı maarifləndirici, gəncləri öyrədən və bilgiləndirən digər verilişlər.

Hər birinin də öz auditoriyası vardı.

*Niyə bağlandılar?*

*Niyə yoxa çıxdılar?*

**Məgər insan yalnız informasiya almalı, gülməli və əylənməlidir?**

**Öyrənməli deyil?**

Teatrın nə olduğunu bilməyənlər teatra gedərlərmi?

Simfonik musiqinin nə olduğunu yalnız musiqiçilər bilməli və dinləməlidirlər?

Azərbaycan bəstəkarlarının dünyaya səs salan simfonik əsərləri, muğam üstə bəstələnmiş simfoniyaları, balet əsərləri niyə unudulub, bir kənara atılıb?!

Nə səbəbə böyük maarifləndirici təsiri olan verilişlər öz yerini bayağı şoulara verdi?

Kimdir günahkar?

Axı bunlar təkcə gərəkli bilgilər vermirdi, həm də müasir gənclərin dünyagörüşünün formalaşmasına müsbət təsir göstərirdi.

Niyə bərpa olunmasın?

Axı televiziya təkcə əyləndirməli, informasiya verməli deyil, həm də maarifləndirməlidir.

❖ ❖ ❖

* Sən demə, özəl telekanalları da milli əxlaqa dəvət etmək olarmış!
* Sən demə, bir ovuc zövqsüz və mənəviyyatsız insanlara ünvanlanan verilişləri bağlamaq olarmış!
* Sən demə, böyük əksəriyyətin istəyini gerçəkləşdirmək mümkün olarmış!
* Sən demə, oddayanmaz, sudabatmaz şoumenlərə (aparıcılara) güc gəlmək olarmış!
* Sən demə, verilişlərə yarıçılpaq gələnləri abırlı geyinməyə vadar etmək mümkün imiş!

Bəs nəyi gözləyirmişik!

Nəhayət ki, qəti iradə ortaya qoyuldu!

Milli-mənəvi dəyərlərimizi telehərraca çıxaranlar, onları məsxərəyə qoyaraq pul qazananlar susduruldu!

**Bəli, xalqa məxsus olanlar xalq üçün, gələcək nəsillər üçün qorunub saxlanılmalıdır!**

**Xüsusən də əsrlərin sınağından keçərək bu günümüzədək gəlib çatan dəyərlər!**

**Onlara çirkli əllər, yalan dillər, saxta əməllər ziyan verməməlidir.**

❖ ❖ ❖

"İlan vuran ala çatıdan qorxar" demişlər.

Görəsən, bu mənəviyyat dəllalları bir yol tapıb özəl telekanalları yenə də zəbt edə biləcəklərmi?!

Məsələn, verilişin adını dəyişdirərək...

Axı onların susdurulması ilk dəfə deyil.

Bunu bizə zaman göstərəcək.

İndi ictimaiyyətə yalnız bu qətiyyətli mövqeni təqdir etmək və alqışlamaq qalır.

**Bəxtiyar SADIQOV**

# Azərbaycan-Çin strateji tərəfdaşlığı yeni mərhələdə sürətlə inkişaf edir



**Azərbaycan-Çin münasibətləri son illərdə yeni strateji mərhələyə daxil olaraq hər iki tərəf üçün fayda verən əməkdaşlıq modelinə çevrilib. Təsadüfi deyil ki, hazırda iki ölkə arasındakı münasibətlər diqqətəlayiq nümunə kimi qəbul edilir. Bu əlaqələrin inkişaf dinamikası göstərir ki, hər iki tərəf əməkdaşlığın genişlənməsində maraqlıdır.**

Bir neçə gün əvvəl Çin Xalq Respublikasının Sədri Si Cinpinin Prezident İlham Əliyevə Novruz bayramı münasibətilə göndərdiyi təbrik məktubunda Azərbaycanla bağlı səsləndirdiyi fikirlər bu münasibətlərin mahiyyətini aydın şəkildə ortaya qoyur. Çin hökuməti və xalqı adından Prezident İlham Əliyevə, Azərbaycan hökumətinə və bütün Azərbaycan xalqına Novruz bayramı münasibətilə təbrik ünvanlanan məktubda deyilir: "Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır. Son illərdə qarşılıqlı siyasi etimad möhkəmlənir, bütün sahələrdə əməkdaşlıq inkişaf edir. Çin ilə Azərbaycan arasında əlaqələrin inkişafına böyük əhəmiyyət verirəm və iki ölkə xalqlarının mənafeləri naminə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra daha da inkişaf etdirilərək yeni səviyyəyə yüksəldilməsi üçün Sizinlə birlikdə səylər göstərməyə hazıram. Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram".

İki ölkə arasında münasibətlər artıq real nəticələr verən, konkret layihələrlə müşayiət olunan yeni inkişaf mərhələsindədir. Xüsusilə 2024-cü ildən etibarən əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi ikitərəfli münasibətlərə yeni məzmun qazandırıb. Bu tərəfdaşlığın səmərəliliyi artan iqtisadi göstəricilər və icra edilən strateji layihələr ilə təsdiqlənir.

2024-cü ildə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı çərçivəsində iki ölkə arasında "Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" bu istiqamətdə ən mühüm hüquqi təməldir. Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çin Xalq Respublikasına dövlət səfəri isə bütün sahələr üzrə qarşılıqlı əlaqələrin dərinləşməsində və strateji hədəflərin müəyyənləşməsində tarixi hadisə oldu. Səfər zamanı imzalanan "Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanat" Azərbaycan-Çin əlaqələrini yeni səviyyəyə qaldırdı. Bu sənəd iki ölkə arasında olan güclü siyasi etimadın bariz nümunəsidir. Çinlə qurulan bu strateji tərəfdaşlıq Azərbaycanın həm regionda, həm də dünyada nüfuzunu artırır. Bəyanat mövcud siyasi əlaqələrin daha da möhkəmləndiyini təsdiq edir, əməkdaşlıq üçün geniş imkanlar açır.

İki ölkə arasında əmtəə dövriyyəsinin 4 milyard ABŞ dollarına çatması əməkdaşlığın real iqtisadi nəticələr verdiyini təsdiqləyir. Bu rəqəm həmçinin qarşılıqlı etimadın və iqtisadi inteqrasiyanın dərinləşdiyini göstərən mühüm amillərdəndir.

Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsündə oynadığı rol isə bu münasibətləri daha da strateji müstəviyə daşıyır. Ölkəmizin coğrafi mövqeyi onu təbii tranzit mərkəzinə çevirir. Orta dəhliz vasitəsilə Çinlə Avropa arasında yükdaşımaların artması Azərbaycanın qlobal logistika xəritəsində əhəmiyyətini daha da artırır.

Əməkdaşlığın coğrafiyası genişlənməkdə davam edir. Əgər əvvəllər əsas diqqət enerji və ticarət sahələrinə yönəlirdisə, indi yeni istiqamətlər ön plana çıxır. Xüsusilə, bərpaolunan enerji sahəsində əməkdaşlıq perspektivləri diqqət çəkir. Azərbaycanın "yaşıl enerji" potensialı, xüsusilə işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələr Çin investorları üçün cəlbedici imkanlar yaradır. İki ölkə arasında kənd təsərrüfatı, turizm, sənaye və yüksək texnologiyalar sahəsində də əməkdaşlığın genişlənməsi müşahidə olunur.

Daha bir mühüm məqam isə müdafiə sənayesi sahəsində əməkdaşlıq perspektivlərinin gündəmə gəlməsidir. Prezident İlham Əliyevin 2026-cı il yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəsində hərbi-texniki əməkdaşlıq və müştərək müəssisələrin yaradılması ilə bağlı səsləndirdiyi fikirlər onu deməyə əsas verir ki, Azərbaycanla Çin arasında münasibətlər yeni istiqamətləri əhatə etməyə başlayır. Bu, tərəflər arasında yüksəksəviyyəli siyasi etimadın mövcudluğundan xəbər verir. Belə əməkdaşlıq ölkəmiz üçün texnoloji transfer və sənaye potensialının güclənməsi deməkdirsə, Çin üçün regionda etibarlı tərəfdaşla əlaqələrin dərinləşməsi anlamına gəlir.

Münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlıq da mühüm rol oynayır. Azərbaycan və Çin beynəlxalq təşkilatlar çərçivəsində də bir-birini dəstəkləyir, qarşılıqlı olaraq suverenlik və ərazi bütövlüyü prinsiplərinə sadiqlik nümayiş etdirirlər. Bu isə münasibətlərin möhkəm siyasi və hüquqi təməllərə söykəndiyinin bariz göstəricisidir.

Bu gün Azərbaycan-Çin münasibətləri yüksək dinamika ilə inkişaf edən, çoxşaxəli və dayanıqlı tərəfdaşlıq modeli kimi xarakterizə olunur. Siyasi dialoq, iqtisadi əməkdaşlıq, nəqliyyat layihələri, enerji təhlükəsizliyi, müdafiə sənayesi və humanitar əlaqələr bu əməkdaşlığın əsas istiqamətləridir. Görünən odur ki, bu münasibətlər gələcəkdə daha da inkişaf edəcək.

Azərbaycan ilə Çin arasında formalaşan strateji tərəfdaşlıq, sadəcə, iki ölkənin maraqlarına xidmət etmir. Bu tərəfdaşlıq, eyni zamanda Avrasiya regionunda əməkdaşlığın möhkəmlənməsinə, iqtisadi inteqrasiyanın genişlənməsinə töhfə verir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Yeni saziş Azərbaycan-Misir enerji əməkdaşlığını daha da genişləndirəcək

**Azərbaycan və Misir Ərəb Respublikası arasında iqtisadi əlaqələr bir sıra sahələri əhatə edir. Əməkdaşlıq ticarət, investisiya, turizm, sənaye və digər sahələrə aid olsa da, bu sırada neft-qaz sektoru ön yeri tutur. Belə ki, Azərbaycan və Misir şirkətləri bir-birinin enerji layihələrində iştirak etməkdə maraqlıdırlar.**





Elə bu günlərdə Qahirədə "Əməkdaşlıq, fəaliyyət və reallıq vasitəsilə enerji keçidi" şüarı altında keçirilən 9-cu Misir Beynəlxalq Enerji Konfransı və Sərgisi də həmin əməkdaşlığın bir nümayişi və davamı üçün körpü rolunu oynayıb.

Tədbir çərçivəsində "SOCAR Trading" şirkəti ilə Misirin Dövlət Neft Korporasiyası (EGPC) arasında əməkdaşlığa dair çərçivə sazişi imzalanıb. Qeyd olunub ki, SOCAR artıq 15 ildir Misirlə əməkdaşlıq edir və bu çərçivə sazişi əməkdaşlığın daha da genişlənməsinə şərait yaradacaq. Müxtəlif sahələrdə investisiya və ticarət imkanları artacaq. Bu sənəd SOCAR-ın neft və qaz məhsullarının Misir bazarına çıxışını daha da asanlaşdıracaq. Həmçinin Misirin böyük və perspektivli bazar olduğu deyilib. Odur ki, SOCAR-ın burada fəaliyyət göstərməsi təqdirəlayiqdir. Şirkətin təkcə xam neft tədarükü ilə kifayətlənməməsi, Misirdə həm də kəşfiyyat və hasilat sahələrində aktiv iştirak etməsi arzu olunur. Hər iki tərəf neft-qaz sektorunda bu əlaqələrin daha da dərinləşdirilməsində maraqlıdır.

SOCAR ilə Misirin Dövlət Neft Korporasiyası arasında imzalanmış çərçivə sazişi mayeləşdirilmiş təbii qaz, xam neft və neft məhsullarının tədarükü, investisiyalar, təlim və təhsil proqramlarını əhatə edir.

Onu da əlavə edək ki, artıq 9 aydır "SOCAR Trading" Misirə mayeləşdirilmiş təbii qaz (LNG) tədarükünü həyata keçirir. İki il yarım müddəti əhatə edən saziş SOCAR-la EGPC arasında enerji əməkdaşlığının genişləndirilməsini nəzərdə tutur. Bu da SOCAR-ın Misir tərəfi ilə əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi planlarının daha bir təsdiqidir. Həmin istiqamətdə Misirdə neftin emalı, eləcə də "Azeri Light" markalı xam neftin Misirə ixracı imkanları nəzərdən keçirilir. Tərəflər imzalanmış çərçivə sazişi vasitəsilə əməkdaşlığın daha operativ şəkildə inkişafını düşünürlər.

Beləliklə, SOCAR-ın Misirlə əməkdaşlığı yeni mərhələyə daxil olur. 9-cu Misir Beynəlxalq Enerji Konfransı və Sərgisində imzalanmış sənədin məhz buna təkan verdiyi qeyd edilib. Həmçinin Misirin Təbii Qaz Holdinqi və digər qurumlarla əlaqələrin genişləndiyi diqqətə çatdırılıb.

Vurğulanıb ki, Azərbaycan qazı hazırda 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 ölkəsinə ixrac olunur. Yaxın Şərq və Aralıq dənizi regionu da diqqət mərkəzindədir və artıq bir ilə yaxındır ki, Suriyaya da ölkəmizdən qaz tədarük edilir. SOCAR Yaxın Şərqdə həm hasilat, həm də nəql və satış sahələrində fəaliyyətini genişləndirməyi planlaşdırır. Eyni zamanda "Cənub qaz dəhlizi"nin buraxılış gücünün artırılması, hətta iki dəfə genişləndirilməsi imkanları nəzərdən keçirilir. Xəzərin Azərbaycan sektorundakı karbohidrogen yataqlarından gözlənilən həcmlər bu barədə inamla düşünməyə imkan verir. Məsələn, "Total Energies" və tərəfdaşlarla birgə həyata keçirilən "Abşeron" yatağının işlənməsi layihəsi 2029-cu ildə böyük həcmdə qaz və kondensat hasilatını təmin edəcək. Ümumilikdə əlavə olaraq ən azı 15 milyard kubmetr qaz tədarükü imkanının yaranacağı gözlənilir.

Qeyd edək ki, 9-cu Misir Beynəlxalq Enerji Konfransı və Sərgisində müxtəlif ölkələrin nazirləri, beynəlxalq təşkilatların və iri enerji şirkətlərinin rəhbərləri, eləcə də innovativ texnoloji həllər sahəsində fəaliyyət göstərən qlobal şirkətlərin nümayəndələri iştirak ediblər. Azərbaycan tədbirdə SOCAR-ın nümayəndə heyəti tərəfindən təmsil olunub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycanın "yaşıl enerji" strategiyası - modernləşmə və davamlı inkişaf yolunda

**Dünya sürətlə dəyişir və bunun mərkəzində enerji dayanır. Ənənəvi enerji mənbələrinin yaratdığı ekoloji problemlər ölkələri yeni həll yolları axtarmağa vadar edir. Bu da o deməkdir ki, "yaşıl enerji" artıq, sadəcə, alternativ deyil, zərurətə çevrilib. Azərbaycan bərpolunan enerji sahəsində fəal mövqe nümayiş etdirərək, son bir neçə ildə diqqətəlayiq uğurlara imza atıb.**

Ölkədə bərpaolunan enerji mənbələrinin inkişafı istiqamətində həyata keçirilən layihələr, beynəlxalq əməkdaşlıqlar və qəbul edilən strateji qərarlar bu sahənin sürətlə genişləndiyini göstərir. Günəş və külək enerjisi üzrə reallaşdırılan iri layihələr Azərbaycanın enerji balansında "yaşıl enerji"nin payını artırmağa xidmət edir. Mütəxəssislərin fikrincə, Azərbaycanda enerji sisteminin müasirləşdirilməsi və davamlı inkişafı son illər dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrilib. Həyata keçirilən ardıcıl tədbirlər ölkənin enerji infrastrukturunun keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir.



Bu kontekstdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktorunun müavini, iqtisad elmləri doktoru Ramil Hüseynin fikirləri maraqlıdır. O, Bakı Dövlət Universitetində "Yaşıl enerji dəhlizləri; Azərbaycanın strateji baxışı" mövzusunda çıxış edərkən bildirib ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də respublikamızın "yaşıl artım" ölkəsinə çevrilməsi və bu çərçivədə "yaşıl enerji"yə keçidin dəstəklənməsi, bərpaolunan enerji mənbələrindən istifadənin artırılması məsələləri əksini tapıb. Ölkədə 2030-cu ilə qədər 6 GW, 2032-ci ilə qədər isə 8 GW gücündə "yaşıl enerji" gücünün yaradılması hədəflənir. İqtisadçı alim onu da əlavə edib ki, Azərbaycanda istehsal olunacaq "yaşıl enerji"nin "Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan-Türkiyə-Avropa", "Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa" enerji dəhlizləri vasitəsilə ixrac edilməsi istiqamətində iş aparılır. Ramil Hüseynin vurğuladığı hədəflər göstərir ki, Azərbaycanın enerji strategiyası yalnız daxili tələbatı qarşılamaqla kifayətlənmir. O, həm də regionda enerji ixracı potensialının artırılmasını nəzərdə tutur. Bu yanaşma bərpaolunan enerji sektorunun inkişafını sürətləndirir və iqtisadi artımı dəstəkləyir.

Qeyd edək ki, 2030-cu ilin hədəflərinə doğru irəliləyərkən 2025-ci il Azərbaycanın enerji sektoru üçün yeni mərhələnin başlanğıcı kimi yadda qaldı. Qlobal enerji bazarlarında ölkə enerji siyasətində bərpaolunan mənbələrə keçidi sürətləndirdi, bu istiqamətdə bir çox təşəbbüs irəli sürüldü və bərpaolunan enerji sahəsində əhəmiyyətli irəliləyişlər qeydə alındı. Fakt: Energetika Nazirliyinin məlumatına görə, Azərbaycanda ümumi quraşdırılmış bərpaolunan enerji gücü artıq təxminən 1829,6 MVt-a çatıb. Bunun 1443,5 MVt-ı su-elektrik stansiyaları, 278,2 MVt-ı günəş, 63,5 MVt-ı külək, 37 MVt-ı bioenerji, 7,3 MVt-ı isə hibrid stansiyalardan ibarətdir. Bu mənbələr ümumi enerji gücünün təxminən 18,8 faizini təşkil edir.

Ən böyük "yaşıl enerji" layihələrindən olan 230-MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası (GES) 2023-cü ildə istifadəyə verilib. Stansiya BƏƏ-nin "Masdar" şirkəti ilə əməkdaşlıq çərçivəsində və 262 milyon dollar dəyərində xarici investisiya hesabına tikilib. Burada hər il təxminən 500 milyon kVt/s elektrik enerjisi istehsal olunur ki, bu da 110 milyon kubmetr təbii qazın qənaətinə və 200 min ton karbon emissiyasının atmosferə atılmasının qarşısının alınmasına imkan verir. Hazırda "Masdar" tərəfindən 445-MVt gücündə GES Biləsuvarda, 315-MVt gücündə GES isə Neftçala rayonunda tikilir. "Biləsuvar" GES-də ilk günəş paneli 2025-ci il oktyabrın 2-də quraşdırılıb.

Qeyd edək ki, bu il yanvarın 8-də Gülüstan sarayında Prezident İlham Əliyevin iştirakı ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının (KES) rəsmi açılış mərasimi keçirilib. Stansiya il ərzində küləkli hava şəraitinin optimal göstəriciləri olduğu halda 1 milyard kilovat/saat həcmində elektrik enerjisi istehsal etmək qabiliyyətinə malikdir. Bunun nəticəsində 220 milyon kubmetr təbii qaza qənaət olunması və 400 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısının alınması gözlənilir. Layihənin icrasına təqribən 340 milyon dollar xarici investisiya yönəldilib. Stansiyanın tikintisi üçün "ACWA Power" şirkətinə Avropa Yenidənqurma və İnkişaf Bankı 197,1 milyon dollar, OPEC Fondu isə 50 milyon dollar kredit ayırıb.

Azad edilmiş ərazilərin "yaşıl enerji zonası" kimi inkişafı ötən ildə diqqət mərkəzində oldu. Bu mənada regionda həyata keçirilən konkret layihələr diqqət çəkir. Onlardan biri Cəbrayıl rayonunda inşa olunan 240-MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasıdır. Layihə BP şirkəti ilə əməkdaşlıq çərçivəsində reallaşdırılır. "Virtual enerji ötürülməsi" modeli sayəsində stansiyada istehsal olunan enerji Cəbrayılda "Azərenerji" ASC-yə yönləndirilir, oradan isə ekvivalent miqdarda elektrik enerjisi Bakıda Səngəçal terminalına ötürüləcək. Bu yanaşma terminal əməliyyatlarından yaranan emissiyaların təxminən 50 faiz azalmasına imkan verir. Layihənin illik istehsalı təxminən 500 milyon kVt/s elektrik enerjisi təşkil edəcək ki, bu da 120-150 milyon kubmetr təbii qazın qənaətinə səbəb olacaq.

Təbii ki, inkişaf təkcə enerji istehsalını artırmır, həm də ekoloji tarazlığı qoruyur, təbii resurslardan səmərəli istifadəyə və karbon emissiyasının azalmasına şərait yaradır. Bütün bu sadalananlar əsas verir deyək ki, qarşıdakı illərdə bərpaolunan enerji layihələrinin genişlənməsi ilə Azərbaycan regional enerji oyunçusu kimi mövqeyini daha çox möhkəmləndirəcək və "yaşıl enerji" istiqamətində strateji hədəflərinə yaxınlaşacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Beynəlxalq iqtisadi icmal

# Yaxın Şərq müharibəsinin uzaq bədbin proqnozları

**Gözlənildiyi kimi də oldu - uzun müddət İranla Amerika və İsrail arasında olan siyasi gərginlik müharibə ilə nəticələndi. Amma bir aydır səngiməyən müharibədə çoxlu sayda insan itkisi olsa da, qlobal səviyyədə müzakirə edilən əsas məsələ iqtisadiyyatdır.**



Bu da səbəbsiz deyil. Çünki bu savaş dünya iqtisadiyyatında böyük təlatümlərə səbəb olub. Nüfuzlu mütəxəssislərin hesablamalarına görə, müharibə 3-6 ay davam etsə, dünya iqtisadiyyatı çökəcək, inflyasiya yüksələcək, işsizlərin sayı artacaq, sosial gərginlik pik həddə çatacaq.

Məlumdur ki, dünya neft ehtiyatlarının 20 faizinə qədəri Hörmüz boğazı üzərindən daşınır. Hazırda bu boğaz vasitəsilə daşımalar savaşdan əvvəlki səviyyənin 10 faizinə bərabərdir. Vəziyyətdən çıxış yolu kimi Səudiyyə Ərəbistanı kəmər vasitəsilə Qırmızı dənizdəki limanlara neftin nəqlini artırıb. Məlumat üçün bildirək ki, bu kəmər vasitəsilə gündə 5 milyon barel neft nəql olunur. Lakin burada da problemin yaranması gözlənilir. Belə ki, bir müddət Yəməndəki husilər Bab-əl Məndəd boğazından istifadə etməyə ABŞ və İsrail gəmilərindən savayı, digərlərinə maneçilik törətmirdi. Yeri gəlmişkən qeyd edək ki, müharibənin əvvəlində husilər İrana qarşı olan hərbi təcavüzə qarışmırdı. İndi onlar İran tərəfindən müharibəyə qoşulduqlarını rəsmən bəyan ediblər və hətta İsrailə bir neçə raket zərbəsi də endiriblər. O səbəbdən məlum deyil ki, husilər Səudiyyə Ərəbistanının Qırmızı dənizlə Bab-əl-Məndəd körfəzindən Cənubi-Şərqi Asiya ölkələrinə neftin daşınmasına imkan verəcək, ya yox. Odur ki, indi hamı bu istiqamətdə baş verən prosesləri ciddi narahatlıqla izləyir.

Bir çox mütəxəssis müharibə uzanarsa, dünya bazarında neftin 1 barelinin qiymətinin 150 dollara çatacağını proqnozlaşdırır. Bu səviyyədə yüksək qiymət dünya iqtisadiyyatının uzunmüddətli böhrana düşməsinə səbəb ola bilər. Belə olan halda qlobal iqtisadiyyatın böyüməsi azalacaq, istehsal aşağı düşəcək, təchizat zəncirində qırılmalar baş verəcək, qlobal ticarət zəifləyəcək.

Hazırda Hörmüz boğazından keçmək üçün 20 min dənizçi, minlərlə tanker növbə gözləyir, körfəzə yeni gəmilər isə daxil olmur. Bunun iki səbəbi var. Birincisi, təhlükəsizlik, ikincisi isə sığorta şirkətlərinin boğazdan keçən gəmilərin sığortalanmasından imtina etməsidir.

İran rəsmən bəyan edir ki, Hörmüz boğazını bağlamayıb, yalnız dost olmayan ölkələrin gəmilərinin keçməsinə icazə vermir. Ancaq bölgədə hərbi əməliyyatlar davam etdiyi üçün heç kəs risk etmək istəmir. O üzdən boğazdan keçən gəmilərin sayı gündən-günə azalır. Burada bir məqamı xüsusilə qeyd etmək lazımdır: İranın Çin və Hindistana neft satışı davam edir. Bu ölkələr İranın əsas neft alıcılarıdır. Hər iki ölkə ABŞ-dən onlara göndərilən neft tanklerlərinə mane olmamağı tələb edib, qarşı tərəf də bununla razılaşıb.

Hazırda neftin və qazın bahalaşması dünya iqtisadiyyatına öldürücü təsir göstərmir. Bunun səbəbi Avropa ölkələrinin və Çinin neftin qiyməti ucuz olanda yığdığı ehtiyatlardan istifadə etməsi ilə bağlıdır. Enerji üzrə mütəxəssislərin fikirlərinə görə, Avropanın 2-3, Çinin isə 4-5 aylıq ehtiyatı var. Əsl çaxnaşmanın müharibə uzandığı halda başlaması gözlənilir. Bu isə Amerikanın İranda quru hərbi əməliyyatlarına başlayıb-başlamamasından asılı olacaq.

Dünyanı rahatsız edən bir məsələ də ərzaqla bağlıdır. Sirr deyil ki, neftin qiymətinin artması dünya bazarında ərzaq məhsullarının qiymətinin bahalaşmasına birbaşa təsir göstərir. Bununla yanaşı, kənd təsərrüfatı üçün gübrə və digər mineralların əsas ixracatçıları Körfəz ölkələridir. İranın həmin məhsulları istehsal edən müəssisələrə hərbi zərbələr endirməsi, o səbəbdən hazır məhsulların qlobal bazara çıxarılmaması dünyada məhsuldarlığın aşağı düşməsinə səbəb olur.

Bu müharibədən ən çox ziyan isə Avropa ölkələrinə dəyəcək. Bir çox mütəxəssis bu fikirdədir ki, Avropada qaz ehtiyatı tükənmək üzrədir. Hazırda "qoca qitə"də qazın min kubmetrinin alış qiyməti 850 avroya qədər yüksəlib. Bu isə qitənin iqtisadi flaqmanı olan Almaniyanın metallurgiya və ağır maşınqayırma sənayesinin çökməsi deməkdir. İndi yayılan bəzi məlumatlara görə, Avropa bu problemi həll etmək üçün yenidən Rusiyadan enerji resursları ala bilər. Hələlik həmin məlumat rəsmi səviyyədə təsdiqlənməsə də, bir çox mütəxəssis müharibə uzanarsa, Avropanın belə bir addım atmağa məcbur olacağını bildirir.

İndi hamı bu müharibənin nə qədər davam edəcəyini səbirsizliklə gözləyir, baxmayaraq ki, müharibənin tezliklə bitəcəyi barədə verilən nikbin bəyanatlara əksəriyyət şübhə ilə yanaşır. Buna örnək Rusiya-Ukrayna müharibəsidir. Belə ki, bu müharibənin tezliklə bitəcəyi barədə tez-tez verilən bəyanatlara rəğmən, savaş 5-ci ildir davam edir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# *Müharibə və mədəniyyət:* görünən və görünməyən reallıqların dialektikası

**Müharibə bəşər tarixinin ən dramatik və eyni zamanda ən çox təhlil edilən hadisələrindən biridir. Lakin onun mahiyyətinə nüfuz etmək üçün müharibəni yalnız silahlı qarşıdurma, hərbi strategiya və geosiyasi maraqlar prizmasından qiymətləndirmək kifayət etmir. Müharibə insan cəmiyyətinin daha dərin qatlarında - mədəniyyət, kollektiv yaddaş və ideoloji düşüncə sistemlərində formalaşan mürəkkəb proseslərin nəticəsidir. Bu baxımdan müharibə yalnız fiziki məkanlarda deyil, həm də mənəvi və simvolik müstəvilərdə baş verən çoxqatlı qarşıdurmadır.**

Mədəniyyət bu prosesin həm başlanğıc nöqtəsi, həm də davamlılığını təmin edən əsas mexanizmlərdən biridir. Əgər mədəniyyət yalnız incəsənət, ədəbiyyat və estetik zövq kimi başa düşülərsə, onun müharibə ilə əlaqəsi səthi görünə bilər. Lakin mədəniyyət cəmiyyətin özünü dərketmə üsulu, kollektiv kimliyi formalaşdırma mexanizmi və sosial davranışı istiqamətləndirən sistem kimi qəbul edildikdə, onun müharibə ilə əlaqəsi qaçılmaz olur. Mədəniyyət insanların dünyanı necə qavradığını, hansı dəyərləri əsas götürdüyünü və hansı ideallar uğrunda mübarizə aparmağa hazır olduğunu müəyyən edir. Başqa sözlə, mədəniyyət insanın daxilində görünməyən bir xəritə formalaşdırır və bu xəritə siyasi qərarların, ictimai reaksiyaların və hətta müharibə kimi radikal hadisələrin istiqamətini müəyyənləşdirir. Müharibə birdən-birə baş vermir, o, uzun müddət ərzində formalaşan mədəni və ideoloji proseslərin kulminasiya nöqtəsidir.

Görkəmli mədəniyyət və ədəbiyyat tənqidçisi Terry Eagleton mədəniyyətin yalnız estetik sahə ilə məhdudlaşmadığını, eyni zamanda siyasi və ideoloji funksiyalar daşıdığını vurğulayır. O, mədəniyyəti passiv sahə kimi yox, cəmiyyətin davranışını formalaşdıran aktiv qüvvə kimi təsvir edir. Bu aktivlik müharibə şəraitində daha qabarıq şəkildə üzə çıxır. Müharibə prosesində mədəniyyət ilk növbədə mənalandırma funksiyasını yerinə yetirir, belə ki, insanlar müharibəni zorakılıq aktı olmaqla bərabər, müəyyən ideyalar uğrunda aparılan mübarizə kimi qəbul etməyə başlayırlar. Bu mənalandırma tarixi təcrübə, ədəbiyyat, mifologiya və kollektiv yaddaş vasitəsilə formalaşır, müharibəni mədəni və ideoloji baxımdan əsaslandırılmış hadisəyə çevirir.

Mədəniyyət həmçinin müharibənin legitimləşdirilməsində mühüm rol oynayır. Cəmiyyətə təqdim olunan ideyalar müharibəni zəruri, qaçılmaz və hətta ədalətli kimi göstərir, bu da ictimai dəstəyin formalaşmasına səbəb olur. Heç bir müharibə təkcə hərbi güc vasitəsilə aparıla bilməz. Onun arxasında mənəvi və ideoloji baza dayanmalıdır. Bu baza isə məhz mədəniyyət vasitəsilə qurulur. Mədəniyyətin təsir dairəsi eyni zamanda beynəlxalq münasibətlər sistemində də dövlətlərin davranışını formalaşdıran mühüm alətə çevrilir. Bu kontekstdə "yumşaq güc" anlayışı dövlətlərin zor tətbiq etmədən, mədəni və ideoloji təsir vasitəsilə digər aktorların mövqelərinə təsir göstərmək imkanını ifadə edir.

Mədəni diplomatiya vasitəsilə dövlətlər öz dəyərlər sistemini, tarixi irsini və sosial modelini beynəlxalq auditoriyaya təqdim edərək müsbət imic formalaşdırır. Bu proses reputasiya məsələsi ilə yanaşı, siyasi tərəfdaşlıqların qurulmasına, qarşılıqlı etimadın artmasına və strateji əməkdaşlığın genişlənməsinə xidmət edir. Azərbaycanın multikulturalizm siyasəti və beynəlxalq mədəni platformalarda fəal iştirakı bu baxımdan regional sabitliyə töhfə verən mühüm amil kimi çıxış edir. Beləliklə, mədəniyyət beynəlxalq səviyyədə güc balansının formalaşmasında dolayı, lakin təsirli mexanizmə çevrilir.

Mobilizasiya funksiyası da mədəniyyətin müharibə kontekstində əhəmiyyətini göstərir. Simvollar, şüarlar, musiqi, ədəbiyyat və digər mədəni elementlər fərdi maraqları kollektiv məqsəd ətrafında birləşdirir, ictimai dəstək yaradır və cəmiyyətin vahid mövqedə birləşməsini təmin edir. Bu həm də fərdi davranışın transformasiyası və kollektiv identikliyin möhkəmlənməsi ilə nəticələnir.

Kollektiv yaddaşın rolu Azərbaycan cəmiyyətində əvəzolunmazdır. Keçmişdə baş vermiş hadisələr mədəniyyət vasitəsilə yenidən istehsal olunur və gələcək nəsillərin düşüncəsinə təsir göstərir. Tarixi xatirələr keçmişi əks etdirməklə indiki dövrün siyasi və sosial qərarlarını müəyyən edən aktiv faktora çevrilir. Müharibənin mahiyyətini yalnız kollektiv yaddaş və ideoloji konstruksiyalar çərçivəsində izah etmək kifayət etmir, bu prosesin əsasını fərdi psixoloji mexanizmlər də təşkil edir. Müharibə şəraitində insan şüuru təhlükə və qeyri-müəyyənlik təsiri altında transformasiyaya uğrayaraq davranış və qərarvermə modellərini dəyişir. Formalaşan qorxu və travma zamanla sosial mühitə yayılaraq kollektiv davranışa təsir göstərir və müdafiəyönümlü düşüncəni gücləndirir. Beləliklə, müharibə yalnız ideoloji və tarixi deyil, eyni zamanda psixoloji əsaslara söykənən kompleks reallıq kimi çıxış edir. Məsələn, Xocalı faciəsi və Qərbi Azərbaycan torpaqlarının itirilməsi xalqımızın kollektiv yaddaşında dərin iz buraxmışdır. Bu hadisələr milli kimliyin formalaşmasında, tarixi ədalətin tələb olunmasında və xalqın birgə müdafiə və vətənpərvərlik ruhunun qorunmasında əhəmiyyətli rol oynayır.

Eyni zamanda 2020-ci il Zəfəri kollektiv yaddaşın və mədəni irsin müasir ifadəsi kimi çıxış edir. Bu Zəfər yalnız ərazi uğrunda qələbə ilə yekunlaşmadı, həm də milli ideoloji birliyin, strategiyanın və texnoloji imkanların sinxron nəticəsi oldu. Xalqın və dövlətin uzun illər formalaşdırdığı milli şüurun, tarixi xatirələrin və mədəni təcrübənin nəticəsi olaraq, cəmiyyətin vahid məqsəd ətrafında hərəkət etməsinə, ideoloji dəstəyin möhkəmlənməsinə və strateji resursların effektiv istifadəsinə imkan yaradır.

Kollektiv yaddaş və mədəniyyət "biz" və "digərləri" bölgüsünü formalaşdıraraq həm psixoloji bazanı təmin edir, həm də insanların milli maraqları qorumaqlarına hazır olmalarını şərtləndirir. Azərbaycan xalqı özünü tarixi torpaqları, milli hüquqları və mədəni irsi qorumaq məsuliyyətində olan kollektivin üzvü kimi dərk edir. Xalqın folkloru, qəhrəmanlıq dastanları, musiqi və tarixi hekayələr cəmiyyətdə emosional bağlılıq və kollektiv identiklik yaradır, fərdi maraqları ümumi məqsəd ətrafında sinxronlaşdırır. Məsələn, "Dədə Qorqud" dastanında igid qəhrəmanların xalqı qorumaq, azadlıq və ədalət uğrunda mübarizə aparmaq motivləri ön plana çıxır. Bu dastan gənc nəsillərə milli qəhrəmanlıq ruhunu aşılamaqla onların özlərini kollektiv tarixi və mədəni irsin bir hissəsi kimi dərk etməsinə şərait yaradır. Eyni zamanda himnimiz və ya Üzeyir bəy Hacıbəylinin "Koroğlu" üverturası xalqın vətənpərvərlik ruhunu möhkəmləndirir və fərdləri birgə hərəkət və ideoloji dəstək üçün motivasiya edir. Belə mədəni elementlər insanların şəxsi qorxu və tərəddüdlərini aradan qaldıraraq, onları həm sosial, həm də strateji məqsədlərə yönəldir, fərdlərin fəaliyyətini vahid bir məqsəd - milli birliyin, sosial məsuliyyətin və tarixi şüurun qorunmasının təminatına çevirir. Beləliklə, Azərbaycan təcrübəsi göstərir ki, kollektiv yaddaş və mədəniyyət milli identiklik, ideoloji sabitlik və sosial mobilizasiya üçün strateji rol oynayır. Keçmiş faciələrin, Qərbi Azərbaycan məsələsinin və 2020-ci il Zəfərinin mədəni və ideoloji çərçivədə inteqrasiyası gələcək nəsillərin qərarvermə prosesinə və ictimai davranışına təsir edərək, ölkənin həm müdafiə, həm də inkişaf strategiyalarının formalaşmasına xidmət edir.

Qeyd etdiyimiz kimi, mədəniyyət qarşıdurmanı təşviq etməklə, müharibənin legitimləşdirilməsində mühüm rol oynamaqla bərabər, həm də sülh və dialoq üçün potensial yaradır. Müasir münaqişələrin izahında mədəni və sivilizasion faktorların rolu geniş elmi müzakirə mövzusudur. Bəzi nəzəri yanaşmalara görə, qlobal qarşıdurmaların əsas mənbəyi mədəni identikliklər və dəyərlər sistemləri arasındakı fərqlərdir. Bu baxış münaqişələri sivilizasiyalararası gərginliyin nəticəsi kimi izah edir.

Lakin alternativ yanaşmalar göstərir ki, eyni fərqliliklər qarşıdurma ilə yanaşı, dialoq və əməkdaşlıq üçün də potensial yaradır. Mədəniyyətlərarası qarşılıqlı təsir və ortaq dəyərlərin vurğulanması münaqişələrin yumşaldılmasına və uzunmüddətli sabitliyin təmin olunmasına imkan verir. Bu kontekstdə mədəniyyət statik deyil, dinamik və istiqamətləndirilə bilən resurs kimi çıxış edir.

Mədəniyyətlərarası anlaşma, ortaq dəyərlərin təşviqi və qarşılıqlı hörmət münaqişələrin qarşısını almaqda mühüm rol oynaya bilər. Azərbaycan uzun illər müxtəlif etnik və dini icmaların birgə yaşadığı bir ölkə olaraq, çoxmədəniyyətli təcrübəsini həm daxildə, həm də digər dövlətlərlə apardığı mədəniyyətlərarası siyasət vasitəsilə inkişaf etdirir. Fərqli mədəniyyətlərin nümayəndələri arasında folklor festivalları, musiqi və teatr layihələri, tarixi abidələrin qorunması və mədəni irsin paylaşılması yolu ilə qarşılıqlı anlaşma və hörmət təşviq olunur. Eyni zamanda Azərbaycanın digər dövlətlərlə mədəni əməkdaşlıq proqramları vasitəsilə regionda və beynəlxalq səviyyədə sülh və əməkdaşlıq üçün önəmli platforma yaradılır. Mədəni resurslar həm xalqın birliyini gücləndirə, həm də potensial gərginliklərin yumşaldılmasına xidmət edə bilər. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı müharibənin mahiyyətini daha da mürəkkəbləşdirib desək, yanılmarıq. Sosial media və digər rəqəmsal platformalar müharibənin fiziki forma ilə yanaşı, informasiya və simvolik müstəvilərdə aparılmasına da şərait yaradır. Bu platformalarda yayılan ideoloji və mədəni mesajlar fərdi maraqları kollektiv məqsəd ətrafında birləşdirir, ictimai dəstək yaradır və sosial mobilizasiyanı gücləndirir. Müasir münaqişələrdə reallığın qavranılması obyektiv faktlarla yanaşı, onların necə təqdim olunmasından da asılıdır. "Posthəqiqət" kimi xarakterizə olunan bu şəraitdə informasiya axını ictimai rəyin formalaşdırılması və yönləndirilməsi vasitəsinə çevrilir.

Rəqəmsal platformalar vasitəsilə yayılan məlumatlar seçilmiş ideyalar əsasında qurulur və bu, fərdlərin hadisələri necə interpretasiya etdiyini müəyyən edir. Dezinformasiya və manipulyasiya mexanizmləri vasitəsilə alternativ reallıq modelləri yaradılır, bu isə cəmiyyət daxilində emosional reaksiyaları gücləndirir və qərarvermə prosesinə təsir göstərir. Bu baxımdan informasiya məkanı müasir müharibələrin paralel cəbhəsi kimi çıxış edir və burada üstünlük əldə etmək strateji əhəmiyyət daşıyır.

Tarixi və müasir nümunələr göstərir ki, müharibə həm də inkişaf prosesini stimullaşdırır. Avropada sənaye inqilabı dövründə silah istehsalının sürətlə inkişafı və logistika sistemlərinin optimallaşması müharibələrin miqyasını artırmış, vətəndaşların "millət və azadlıq" idealları uğrunda döyüşməsinə stimul yaratmışdır. Az əvvəl qeyd etdiyimiz kimi, Azərbaycanın təcrübəsi də bunu təsdiqləyir. 1990-cı illərdə baş verən Qarabağ münaqişəsi yalnız ərazi uğrunda deyildi, həm də milli yaddaşın qorunması və ideoloji mövqenin formalaşması ilə bağlı idi. Xalqın yaddaşı və kollektiv şüuru müdafiə üçün ruhun formalaşmasında əsas rol oynamışdır. 2020-ci ilin İkinci Qarabağ müharibəsi isə müasir texnologiyalar - dronlar, yüksəkdəqiqlikli silahlar və informasiya infrastrukturu vasitəsilə dövlətin iqtisadi və texnoloji potensialının strateji məqsədlərə çevrilməsini təmin etmişdir. Sosial media milli ideoloji mesajların yayılmasını və cəmiyyətin mobilizasiyasını gücləndirmişdir.



Heydər Əliyevin və İlham Əliyevin yanaşmaları bu konsepti praktik səviyyədə təsdiqləyir. Heydər Əliyev iqtisadi potensialın gücləndirilməsi və sosial sabitliyin təmin edilməsi ilə milli müdafiəni möhkəmləndirməyi prioritetləşdirmiş, dövlətin strateji resurslarının hərbi, iqtisadi və mədəni sahələrdə sinxron istifadəsini vurğulamışdır. İlham Əliyev isə bu yanaşmanı müasir texnologiyalar və informasiya sistemləri ilə genişləndirərək müharibə, mədəniyyət və inkişafın harmonik inteqrasiyasını təmin etmişdir. Bu yanaşma göstərir ki, dövlət yalnız hərbi güc və iqtisadi resurslarla deyil, həm də mədəni və ideoloji baza vasitəsilə strateji üstünlük qazana bilər.

Tarixi və müasir nümunələr göstərir ki, münaqişələr yeni texnologiyaların tətbiqi, istehsal və logistika sistemlərinin optimallaşdırılması, sosial davranış və kollektiv identikliyin yenidən formalaşması kimi transformasiyalara təkan verir. Azərbaycanın təcrübəsi bu qarşılıqlı təsir mexanizmini xüsusi bir kontekstdə nümayiş etdirir. Belə ki, milli iqtisadi və texnoloji potensialın gücləndirilməsi, mədəni və ideoloji şüurun formalaşdırılması müharibənin strateji uğurunu təmin etmiş, dövlətin həm inkişaf, həm də müdafiə imkanlarını paralel şəkildə möhkəmləndirmişdir.

Birinci Dünya müharibəsi Avropada sənaye texnologiyalarının və logistika sistemlərinin sürətlə inkişafına təkan verdi. Müharibənin genişmiqyaslı xarakteri və resurs tələbkarlığı ölkələri yeni istehsal üsullarını, avtomatlaşdırmanı və dəqiq təchizat zəncirlərini inkişaf etdirməyə məcbur etdi. Nəticədə müharibədən sonra Avropada sənaye infrastrukturu modernləşdi, hərbi və mülki istehsal arasında qarşılıqlı əlaqələr gücləndi və dövlətlərin iqtisadi idarəetmə bacarıqları formalaşdı.

İkinci Dünya müharibəsi isə texnoloji inqilabın daha qabarıq şəkildə baş verməsinə səbəb oldu. Radar sistemləri, elektronika, aerokosmik texnologiyalar, nüvə texnologiyaları və informasiya sistemləri həm hərbi, həm də mülki sahələrdə yeni imkanlar yaratdı. Müharibədən sonrakı dövrdə Avropa və ABŞ-də iqtisadi bərpa prosesi və sənaye modernləşməsi sürətləndi, bu isə II Sənaye İnqilabının qlobal miqyasda yayılmasına zəmin hazırladı. Eyni zamanda müharibə zamanı yaradılan elmi-tədqiqat institutları və texnologiyaların sivil sektorla inteqrasiyası dövlətlərin inkişaf strategiyalarını yenidən formalaşdırdı.

Soyuq müharibə dövrü isə inkişafın hərbi və ideoloji kontekstdə koordinasiyasını göstərən nümunə oldu. ABŞ və SSRİ arasında baş verən rəqabət yalnız nüvə və kosmik yarışla məhdudlaşmayıb, həm də iqtisadi, elmi və texnoloji sahələrdə geniş transformasiyalara təkan verdi. Kosmik texnologiyaların, informasiya sistemlərinin və hərbi innovasiyaların inkişafı eyni zamanda ölkələrin təhsil, tədqiqat və sənaye strukturlarının modernləşməsinə xidmət etdi. Bu dövrdə ideoloji və mədəni rəqabət, sosial mobilizasiya və kollektiv identikliyin formalaşdırılması dövlətlərin strateji üstünlüklərinin əsas komponentinə çevrildi.

Müasir dövrdə isə müharibə və inkişaf əlaqəsi daha çox informasiya texnologiyaları və rəqəmsal platformaların rolu ilə müşahidə olunur. 2022-ci il Rusiya-Ukrayna müharibəsi kimi nümunələr göstərir ki, dron texnologiyaları, yüksəkdəqiqlikli silah sistemləri, kibertəhlükəsizlik və informasiya əməliyyatları müasir münaqişələrdə strateji üstünlük yaradır. Eyni zamanda sosial media vasitəsilə yayılan ideoloji və mədəni mesajlar cəmiyyətdə emosional bağlılığı gücləndirir və milli birliyi möhkəmləndirir. Bu şəraitdə müharibə yalnız fiziki qarşıdurma deyil, həm də iqtisadi, texnoloji və mədəni inkişafın sürətləndirici faktoruna çevrilir.

Beləliklə, həm tarixi, həm də müasir nümunələr göstərir ki, müharibələrə yalnız dağıdıcı hadisə kimi baxmaq olmaz, onlar eyni zamanda texnoloji innovasiyaları, iqtisadi modernləşməni, sosial davranış və kollektiv identikliyin yenidən qurulmasını stimullaşdıran katalizator rolunu oynayır. Azərbaycanın təcrübəsi bu qarşılıqlı təsirin konkret və çağdaş nümunəsini təşkil edir, burada milli iqtisadi və texnoloji potensialın gücləndirilməsi, mədəni və ideoloji şüurun formalaşdırılması müharibənin strateji uğurunu təmin edən əsas amillər kimi çıxış etmişdir.

Beləliklə, müharibə və inkişaf, mədəniyyət və ideoloji bazanın inteqrasiyası çoxqatlı və qarşılıqlı təsir mexanizmi kimi dəyərləndirilməlidir. Müharibəni anlamaq üçün onun görünən tərəfinə baxmaqla kifayətlənmək olmaz, onun arxasında duran mədəni, ideoloji və iqtisadi strukturların analizi də eyni dərəcədə vacibdir. Bu yanaşma həm akademik, həm də praktik səviyyədə mühüm əhəmiyyət daşıyır, çünki münaqişələrin qarşısını almaq və ya onları effektiv idarə etmək hərbi və siyasi vasitələrlə yanaşı, mədəni və inkişafedici strategiyalarla da mümkün olur. Müharibənin qiymətləndirilməsi strateji nəticələr və siyasi məqsədlərlə bərabər, etik və hüquqi prinsiplər əsasında da təhlil edilməlidir. Müasir beynəlxalq sistemdə müharibənin aparılma qaydaları müəyyən normativ çərçivə ilə tənzimlənir ki, bu da hərbi əməliyyatların məhdudlaşdırılması və insan həyatının qorunması məqsədi daşıyır.

"Ədalətli müharibə" yanaşması münaqişələrin həm başlanma səbəblərini, həm də aparılma üsullarını qiymətləndirməyə imkan verir. Bu çərçivə mülki əhalinin qorunması, qeyri-proporsional güc tətbiqindən çəkinmə və humanitar prinsiplərə riayət olunmasını əsas şərt kimi irəli sürür. Beynəlxalq humanitar hüququn bu normaları müharibə şəraitində belə etik məsuliyyətin aradan qalxmadığını göstərir ki, bu da öz növbəsində dövlətlərin davranışının hüquqi və mənəvi legitimliklə ölçülməsinə gətirib çıxarır.

Azərbaycanın İkinci Qarabağ müharibəsi zamanı nümayiş etdirdiyi müharibə mədəniyyəti isə analoqu olmayan bir nümunədir. Müharibədən sonrakı mərhələ də dağıntıların aradan qaldırılması ilə eyni vaxtda yeni inkişaf modelinin formalaşdırılması üçün imkan yaradıb. Rekonstruksiya prosesi iqtisadi, sosial və institusional sahələrdə paralel transformasiyanı tələb edir. İnfrastrukturun yenidən qurulması, iqtisadi fəaliyyətin bərpası və sosial reinteqrasiyanın təmin olunması bu prosesin əsas istiqamətlərini təşkil edir. Müasir yanaşmalarda innovativ texnologiyaların tətbiqi və "ağıllı idarəetmə modelləri" postmüharibə inkişafını daha effektiv və davamlı edir. Bu baxımdan rekonstruksiya yalnız keçmişin bərpası deyil, gələcəyin strateji şəkildə qurulması kimi dəyərləndirilməlidir. Dövlət öz ərazilərinin sərhədlərini qoruyaraq və strateji məqsədlərə çataraq eyni zamanda sivil əhalinin həyatına zərər verməməyə diqqət yetirmişdir. Bu yanaşma yalnız milli maraqları təmin etməklə kifayətlənməyib, regionda sabitlik və inkişaf üçün perspektiv imkanlar yaratmışdır. Müharibədən sonra Ermənistanın siyasi vassallıqdan çıxaraq öz inkişaf yolunu müəyyən etməsi Azərbaycanın humanist və strateji yanaşmasının nəticəsi kimi qiymətləndirilməlidir.

Eyni zamanda müharibənin nəticələri region və beynəlxalq səviyyədə perspektiv imkanlar açır. Gələcəkdə Zəngəzur dəhlizinin (TRIPP) açılması iqtisadi inteqrasiyanı təşviq edəcək, regional ticarət və nəqliyyat imkanlarını artıracaq, qonşu dövlətlərin xalqlarının inkişafına dəstəyin təmin olunmasına şərait yaradacaq və beynəlxalq əməkdaşlığı möhkəmləndirəcək. Bu yanaşma göstərir ki, müharibə yalnız dağıdıcı deyil, eyni zamanda diqqətli planlaşdırma və mədəni-ideoloji strategiyalarla inkişaf və sabitlik üçün katalizator rolunu oynaya bilər.

Siyasi və fəlsəfi baxımdan bu nümunə bir daha təsdiqləyir ki, hərbi güc və texnoloji üstünlük yalnız vasitədir. Əsas məqsəd isə insan həyatına, milli irsə və gələcək nəsillərin inkişaf perspektivlərinə hörmətlə yanaşmaqdır. Müharibə və mədəniyyət, güc və humanizm, strateji məharət və etik məsuliyyət - bütün bunlar birgə işlədikdə cəmiyyətlər üçün davamlılıq və tərəqqi təmin olunur. Müharibə və mədəniyyət arasındakı qarşılıqlı əlaqə göstərir ki, cəmiyyətlərin taleyi yalnız fiziki güc balansı ilə müəyyən olunmur. Əsas müəyyənedici faktor insanın düşüncə sistemi, dəyərlər strukturu və gələcəyə yönəlik baxışıdır. Müharibə bu sistemlərin sınaqdan keçdiyi ekstremal şərait kimi çıxış edir. Tarixi təcrübə göstərir ki, davamlı üstünlük yalnız hərbi qələbə ilə yox, mədəni və intellektual dayanıqlıqla təmin olunur. Bu baxımdan güc və humanizm, strategiya və etik məsuliyyət bir-birini tamamlayan elementlər kimi çıxış edir. Cəmiyyətlər bu balansı qoruduqda davamlı inkişaf və sabitlik üçün zəmin yaranır. Sonda belə bir nəticəyə gəlmək olar ki, müharibənin dərk edilməsi onun qarşısının alınması üçün ilkin şərtdir. Müharibəsiz dünya isə düşünülmüş və məqsədyönlü inkişaf strategiyalarının mümkün nəticəsi ola bilər.

Müharibəsiz dünya daha gözəldir. Yaşasın sülh!

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Humanizm dəyərlərinə bağlılığın nümunəsi

**Azərbaycan hər zaman yardıma ehtiyac duyan, çətin duruma düşən ölkələrin yanında olub. Bunu İranda baş verən son hadisələr fonunda da görə bilərik. Azərbaycan qonşu dövlətə humanitar yardım göndərən ilk ölkə oldu. Bu, bir daha göstərdi ki, Azərbaycan mehriban qonşuluq münasibətlərinə xüsusi önəm verir, dar gündə olana yardım əlini uzadır, humanizm prinsiplərini üstün tutur.**




Ölkəmizdən İrana ilk humanitar yardım martın 10-da yola salınıb. 30 tona yaxın qida məhsulları, o cümlədən 10 ton un, 6 ton düyü, 2,4 ton şəkər, 4 tondan artıq içməli su, 600 kiloqrama yaxın çay, həmçinin 2 tona yaxın dərman və tibbi ləvazimatlar İrana göndərilib. İkinci belə yük isə martın 18-də yola salınıb. Ümumi həcmi 82 ton olan humanitar yardım müxtəlif adda ərzaq məhsulları, dərman vasitələri və tibbi ləvazimatlardan ibarət olub. Yardımın Novruz bayramı ərəfəsində göndərildiyi nəzərə alınaraq, yük avtomobillərinə bayram sovqatı da əlavə olunub.

İranın ölkəmizdəki səfiri Müctəba Dəmirçilu göstərilən yardıma görə Azərbaycan hökumətinə və xalqına minnətdarlığını bildirib və qeyd edib ki, ilk humanitar yardımın Azərbaycandan göndərilməsi xoş haldır və yüksək qiymətləndirilir. "Bu, bizim müştərək mədəniyyətimizdən irəli gəlir ki, çətin günlərdə bir-birimizə kömək göstəririk. Novruz bayramı ərəfəsində bu müsbət addım və xoş niyyət İran tərəfindən çox yüksək qiymətləndirilir. Ümid edirik ki, gələn bayramları birlikdə qeyd edəcəyik", - deyə səfir əlavə edib.

M.Dəmirçilu bəzi ölkələrin də Azərbaycan ərazisindən istifadə edərək İrana humanitar yardım etmək üçün müraciət etdiklərini deyib. Bu, həmçinin göstərir ki, Azərbaycan özü ilk yardım göstərməklə yanaşı, qonşu ölkəyə kömək əli uzadanlar üçün də qapılarını açır.

İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi də humanitar yardımlara və göstərilən dəstəyə görə Azərbaycana xüsusi təşəkkürünü bildirib. "Azərbaycan hökumətinə və xalqına humanitar yardımlara görə, eləcə də digər ölkələrin yardımlarının çatdırılması üçün yaradılmış şəraitə görə təşəkkürümü bildirirəm. Çətin günlərdə nümayiş etdirilən bu dəstək İran və Azərbaycan xalqlarını birləşdirən ortaq mədəniyyətə söykənir", - deyə o, paylaşımında qeyd edib.

Təbii ki, ölkəmizin humanizm siyasəti bununla məhdudlaşmır. ABŞ-İran-İsrail arasında münaqişə başlayandan İran ərazisində olan digər ölkə vətəndaşları Azərbaycan sərhədindən təhlükəsiz şəraitdə keçərək öz vətənlərinə qayıdıblar. Bu günədək 3146 nəfərdən çox şəxs bu ölkədən təxliyə olunub. Onlar arasında Avropa, Asiya, Yaxın Şərq və digər ölkələrin vətəndaşları olub. Bununla yanaşı, bəzi ölkələrin Tehrandakı səfirlikləri vəziyyətlə əlaqədar öz fəaliyyətlərini Azərbaycandan davam etdirmək üçün müraciət etmişdilər ki, ölkəmiz onlardan da öz dəstəyini əsirgəməyib.

Azərbaycanın humanizm siyasəti beynəlxalq əməkdaşlığı, hüquq prinsiplərini əsas tutmaqla sərhədləri aşır, dünyanın müxtəlif bölgələrində təbii fəlakət, müharibə, pandemiyadan əziyyət çəkən bir çox ölkəyə gedib çatır. Ölkəmizin humanitar addımlarına dair onlarca nümunə göstərmək mümkündür. Qardaş Türkiyədə baş verən dəhşətli zəlzələlər zamanı ilk yardıma yetişən dost ölkə Azərbaycan olmuşdu. Eyni zamanda Rusiya-Ukrayna müharibəsi başlayandan Azərbaycan dəfələrlə Ukraynaya humanitar yardım göndərib. Bundan başqa, dünyada tüğyan edən COVID-19 pandemiyası zamanı da "vaksin millətçiliyi"nə yox deyən Prezident İlham Əliyevin tapşırığı ilə Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə, həmçinin ikitərəfli əlaqələr çərçivəsində 30-dan çox ölkəyə humanitar yardım göndərilmişdi. Eyni zamanda müxtəlif ölkələrdə baş verən təbii fəlakətlər zamanı da Azərbaycan humanitar yük göndərib, kömək əlini uzadan, yardım təklif edən ilk dövlətlərdən olub. Bunlar sadaladığımız, sadəcə, bir neçə faktdır. Bütün bunlar Prezident İlham Əliyevin beynəlxalq həmrəylik çərçivəsində yürütdüyü siyasətin tərkib hissəsidir.

Azərbaycan xalqı humanizm dəyərlərinə hər zaman bağlı olub. Əsrlərdir milli dəyərlər sistemində formalaşan və genetik olaraq nəsillərdən-nəsillərə ötürülən bu xeyirxahlıq və insanpərvərlik dəyərləri bu günümüzdə də real əməllərdə özünü təcəssüm etdirir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Kəlbəcər bizimdir!

## Xilaskar Lider İlham Əliyevin bu müjdəsi kəlbəcərlilərin 27 illik yurd həsrətinə son qoydu

**Həmin gün, əslində, məktəbə getməyə hazırlaşırdıq. Dan yeri ağarmamış gələn o xəbər hələ də qulaqlarımdadır: "Ermənilər Kəlbəcərə girib... El köçür!" O an zaman dayandı. Biz də digər ailələr kimi, sadəcə, quruca canımızı götürüb 60 minlik o nəhəng, çarəsiz köç karvanına qoşulduq.**

Bir yanda düşmən qorxusu, girov düşmək dəhşəti, digər yanda yurd, ev itkisi... İnsanların göyə bülənd olan ah-naləsi sanki təbiəti də titrədirdi. Murov da elə bil qəzəblənmişdi həmin gün: qarı, çovğunu ilə yolumuzu kəsirdi. Kəlbəcərlilər ayaqyalın, başıaçıq Murovun aşırımlarında nə zillətlər çəkdilər... Hamı ağlaşırdı, hər kəs nagüman idi. Bizi qarşıda nə gözlədiyini bilmirdik. Çarəsizlik və qorxu o dumanlı dağların hər qarışına hopmuşdu.

### Beynəlxalq hüququn iflası

1993-cü il aprelin 2-də Murovdan üzü Gəncəyə düzülən köç karvanı, sadəcə, bir bölgənin boşaldılması deyil, Azərbaycanın dövlətçilik tarixindəki ən ağır strateji sarsıntılardan biri idi. Kəlbəcərin işğalı ilə Ermənistan münaqişəni Dağlıq Qarabağın inzibati sərhədlərindən çıxararaq, öz ərazisi ilə birbaşa quru əlaqəsi yaradan genişmiqyaslı işğal zonasına çevirdi. Həmin gün Murovun aşırımlarında zülm çəkən, şaxtada, boranda donaraq can verən körpələr, yaşlılar həm də beynəlxalq hüququn iflasının qurbanları idilər. 1993-cü ilin apreli Azərbaycanın hərbi cəhətdən təkləndiyi, siyasi cəhətdən isə xaosun girdabına sürükləndiyi bir dövrün sənədli sübutuna çevrildi.

Məhz Kəlbəcərin işğalından dərhal sonra 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurası 822 saylı qətnaməni qəbul etdi. Bu sənəd erməni qüvvələrinin Kəlbəcərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin acı həqiqət ondan ibarət idi ki, kağız üzərindəki bu "tələb" nə Ermənistanı dayandırdı, nə də beynəlxalq birliyi hərəkətə gətirdi. Beynəlxalq hüququn bu qədər aşkar şəkildə iflasa uğraması, əslində, dünya nizamında "haqlının yox, güclünün hüququ" prinsipinin göstəricisi idi. Kəlbəcər 27 il boyunca həm Ermənistanın işğalı altında, həm də beynəlxalq riyakarlığın və icra olunmayan qətnamələrin kölgəsində qaldı. Bu dövr ərzində ATƏT-in Minsk qrupu kimi vasitəçilik institutları münaqişənin olduğu kimi qalması üçün çalışdılar.

Sonda BMT-nin onilliklər ərzində icra olunmayan qətnamələrini Azərbaycan güc yolu ilə özü həll etdi. ATƏT-in yarıtmaz Minsk qrupu da tarixin arxivinə göndərildi.

### Yaddaş köçü

Vətən həsrəti ilə keçən 27 il... Nəyimiz vardısa orada, o dumanlı dağların qoynunda qoyub gəlmişdik. Bu gün məcburi köçkün uşaqların əksəriyyətinin uşaqlıq fotoları yoxdur - düşmən onların keçmişini yandırmışdı. Amma kəlbəcərli xatirələrimizə gücü çatmamışdı. Çiçəkli yaylaqlar, büllur bulaqlar, yaşıl donlu meşələr, Dəlidağın vüqarı, Tərtər çayının zümzüməsi hər gecə yuxularımıza qonaq gəlirdi. Bizə təsəlli verən Bəhmənin, Sücaətin, Məmməd Aslanın, Ənvər Rzanın sözləri, aşıqların "Sarıtel"i, "Ruhani"si, "Dilqəmi"si idi.

Kələcərli məcburi köçkünlər də maddi çətinliklərə, çadırlara, vaqonlara, soyuq yataqxanalara sinə gərdilər, aclıqla, yoxluqla sınandılar. Biz uşaqların isə bəzən məktəbə gedə bilmədiyimiz, dəftər-qələm tapmadığımız zamanları oldu, amma ümidimizi heç zaman itirmədik. Ürəyimizdəki Vətən sevgisi ilə gələcəyimizi yazdıq...

Beləcə, kəlbəcərli keçmiş məcburi köçkünlər düz 27 il, 1993-cü ilin aprelindən 2020-ci ilin noyabrına qədər bu əzablarla yaşamağa çalışdılar...

Amma gün yetişdi, 2020-ci il sentyabrın 27-si kəlbəcərlilərin diriliş, noyabrın 25-i isə Kəlbəcərin qurtuluş gününə çevrildi.

2020-ci il noyabrın 25-də Kəlbəcər işğaldan azad edildi. Həmin gün Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edərək "Əziz həmvətənlər. Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi…

…Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!" müjdəsi ilə Kəlbəcərin 27 illik həsrətini qəlblərimizdən əbədilik sildi.

Kəlbəcərin azad edilməsi müasir Azərbaycan hərb tarixinin ən böyük strateji uğurlarından biridir. 44 günlük Vətən müharibəsində qazanılan hərbi üstünlük Ermənistanı bu "keçilməz qala"nı kapitulyasiya şərtləri ilə qaytarmağa məcbur etdi. 25 noyabr tarixi Azərbaycanın hərbi gücünün siyasi iradəyə çevrildiyi daha bir qürurlu gün oldu.

Dağlar bizi çağırdı, ana yurd səslədi. Öncə ruhumuz pərvazlandı o sıldırım qayalara, sonra isə qayıdış karvanları üz tutdu bu möhtəşəm təbiət muzeyinə. Bir qərinə əvvəl Murovun qarlı yolları ilə "quruca canını götürüb" çıxan o insanlar, bu gün Kəlbəcərin hər daşına, hər çiçəyinə sahib çıxmaq üçün geri dönürlər. "Salam, doğma torpaq! Biz gəldik və bu dəfə əbədi gəldik", - deyirlər.

2021-ci ilin avqustunda Kəlbəcərə səfər edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: "...Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq..."

O gün Ali Baş Komandan İlham Əliyev, qalib sərkərdə olaraq zirvədən, Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr edərkən və qürurla yolunun Kəlbəcərə olduğunu söyləyib bütün kəlbəcərliləri təbrik edərkən, sevincdən, fərəhdən sanki göylərdə qanad açdıq: "Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik... ...Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm...

...Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!"



### Dağların zirvəsində həyat

Kəlbəcəri azadlığına qovuşduran və 2021-ci ilin avqustunda bu ulu diyara ilk səfərini edən Müzəffər Ali Baş Komandan İlham Əliyev bəyan etdi ki, bu bölgəni cənnətə çevirəcəyik. Qalib lider İlham Əliyevin bu xoş xəbərindən ötən qısa zaman ərzində Kəlbəcərdə böyük quruculuq və bərpa işləri həyata keçirilib, yeni sosial-iqtisadi obyektlərin təməlləri atılıb, açılışlar edilib. Prezident İlham Əliyevin birbaşa nəzarəti altında bu ərazidə böyük infrastruktur layihələri gerçəkləşdirilir, yollar, tunellər çəkilir, su-elektrik stansiyaları qurulur, kompleks işlər görülür.

Təməli Prezident İlham Əliyev tərəfindən qoyulan Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunan 11,6 kilometrlik tunelin özü bu ərazidə həyata keçirilən misilsiz işləri gözlər önünə sərən möhtəşəm nümunələrdən yalnız biridir. 2023-cü il mayın 27-də - Müstəqillik Günü ərəfəsində yolunu yenidən Kəlbəcərdən salan Prezident İlham Əliyev Kəlbəcər rayonunda ilk kəndlərin -Yanşaq və Zalların, eləcə də Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin təməlini qoydu.

İşğaldan azad edilən bütün ərazilərimizdə oduğu kimi, Kəlbəcərdə də gerçəkləşdirilən sürətli və kompleks işlər bu torpağa yenidən həyatı qaytarır.

Ötən ilin avqustunda Kəlbəcər şəhərinə ilk köç karvanı yola salındı və dövlətimizin başçısı bu rayona səfər edərək sakinlərlə görüşdü.

Həmin zaman Prezident İlham Əliyevin söylədiyi "Bu gün, o cümlədən ona görə tarixi bir gündür ki, ölkəmizin ən böyük rayonu olan Kəlbəcər və onun şəhəri artıq canlanır, buraya həyat qayıdır və əminəm ki, siz burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz" sözləri təkcə doğma yurduna qayıdan insanların sevincini bölüşmək hisslərinin deyil, həm də tarixi ədalətin zəfərinin təzahürü idi.

Artıq Kəlbəcər şəhərində 135 ailə məskunlaşıb. Bu dağlar diyarına hələ neçə-neçə qələbə müjdəli köç karvanları yola salınacaq.

Deyirlər Kəlbəcərin havası insanı yenidən doğulmuş kimi edir. Amma indi bu ulu yurd özü də yenidən "doğulur". Dağılmış evlərin yerində ucalan yeni binalar, çəkilən yollar, yenidən qaynayan bulaqlar, pöhrələyən meşələr bu torpağın dirçəliş rəmzidir. Kəlbəcər daha xatirələrimizdə yaşayan cənnətməkan yox, hər günü toyla-bayramla, quruculuqla yoğrulan işıqlı gələcəyimizdir. Bu əzəmətli yurdun dağlarının, çəmənlərinin ətri indi daha təmiz, daha şirindir - çünki bu, azadlığın, qələbənin və qayıdışın ətridir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Apreldən Noyabra 54 ay qalırdı

**Tarixin elə səhifələri var ki, onlar yalnız keçmişin hadisəsi kimi deyil, gələcəyi müəyyən edən dönüş nöqtəsi kimi yazılır. Azərbaycan xalqının mübarizə salnaməsində xüsusi yer tutan Aprel döyüşləri də məhz belə hadisələrdəndir.**

Azərbaycan Ordusunun 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatı tariximizə şanlı səhifə kimi yazıldı. Ordumuzun adekvat cavab tədbirləri nəticəsində düşmən ağır məğlubiyyətə uğradı. Füzuli, Cəbrayıl və Ağdərə istiqamətlərində 2 min hektardan çox ərazi azad edildi, minlərlə hektar sahə isə tam nəzarətimizə keçdi.

Aprel döyüşlərində qazanılan qələbə yalnız hərbi uğur deyildi. Bu, dövlətin gücünün, xalqın iradəsinin və ordunun peşəkarlığının nümayişi idi. Eyni zamanda bu döyüşlər regionda formalaşdırılmış saxta hərbi-siyasi balansın sarsıdılması və Ermənistanın illərlə yaratdığı "məğlubedilməz"lik mifinin darmadağın edilməsi ilə tarixiləşdi. 10 il öncə Ermənistan ordusu haqqında formalaşdırılmış süni üstünlük təsəvvürü tamamilə məhv edildi. Bu qələbə Azərbaycan Ordusunda və cəmiyyətində qələbə ovqatı, öz gücünə sarsılmaz inam və tarixi ədalətin bərpa olunacağına əminlik yaratdı.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu döyüşlərin əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır". Bu fikir təsadüfi deyildi. Çünki bu qələbə bir daha sübut etdi ki, Azərbaycan Ordusu təkcə texniki baxımdan deyil, həm də yüksək mənəvi-psixoloji hazırlığa malikdir və Cənubi Qafqazın ən güclü ordusudur.

Aprelin 4-də düşmən itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə yenidən hücumlara cəhd göstərdi. Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimiz intensiv atəşə tutuldu. Lakin Azərbaycan Ordusunun yüksək döyüş hazırlığı və peşəkarlığı bu cəhdlərin qarşısını qətiyyətlə aldı. Ordumuz düşmənin strateji hərbi bazalarının qərargahlarına və canlı qüvvəsinə sarsıdıcı zərbələr endirdi. Nəticədə Ermənistan silahlı qüvvələri böyük itkilərə məruz qaldı, yüzlərlə hərbçi məhv edildi, çoxsaylı texnika sıradan çıxarıldı. Bu döyüşlər bir daha göstərdi ki, işğal siyasətinin sonu artıq yetişməkdədir.

Aprelin 2-də səhər saatlarında strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Bu zirvədə Azərbaycan bayrağını ucaldan əsgər Asim Quliyevin xatirələri Aprel döyüşlərinin ruhunu ən canlı şəkildə ifadə edir. Onun sözlərində həm döyüşün gərginliyi, həm də qələbənin sevinc göz yaşları əks olunur. "Həmin bayrağı dəfələrlə təlimlərə aparmışdım. Yoldaşlar arasında hər zaman arzulayırdıq ki, məhz bu bayraq iştirakımızla azad olunan ərazidə ucaldılsın. Elə qismət oldu ki, Lələtəpə istiqamətində hərəkətə keçməli olduq. Düşmən səddini yararaq zirvəyə çıxdıq. Bir saatlıq döyüşdən sonra səngərdə bir nəfər də olsun müqavimət göstərən düşmən hərbçisi qalmamışdı. Düşmən əlavə qüvvələrlə və artilleriyanın dəstəyilə hücuma başlayırdı. Mən hər kəsə zəfərimizi bəyan etmək üçün mərmi partlayışlarını və ölümü nəzərə almayıb bayrağımızı asmaq qərarına gəldim. Həmin vaxt tanklarımızın səsini eşitdim. Onlar köməyə gəlirdilər. Sevinc göz yaşlarıma hakim ola bilmirdim".

Bu hadisə yalnız hərbi uğur deyil, milli qürurun simvoluna çevrildi. Lələtəpənin azad edilməsi nəticəsində geniş ərazilər nəzarətə götürüldü və bu, gələcək əməliyyatlar üçün mühüm strateji üstünlük yaratdı. Aprel döyüşlərinin ən mühüm nəticələrindən biri də Böyük qayıdış prosesinin əsasının qoyulması oldu. Lələtəpənin azad edilməsi ilə Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin edildi. 2017-ci ildə dövlətimizin başçısının sərəncamı ilə kənd bərpa olundu və 23 ildən sonra sakinlər doğma yurdlarına qayıtdılar. Bu hadisə təkcə bir kəndin dirçəlişi yox, bütün Azərbaycanın qayıdış arzularının gerçəyə çevriləcəyinin ilk real sübutu idi.

Aprel döyüşləri zamanı Azərbaycan xalqı misilsiz birlik nümayiş etdirdi. Minlərlə insan könüllü olaraq döyüşlərdə iştirak etmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, yerli icra hakimiyyəti orqanlarına müraciət edərək düşmənlə döyüşmək niyyətini bildirdi. Bu, xalqın öz ordusuna olan sonsuz etimadının və Vətənə bağlılığının bariz nümunəsi idi. Məhz bu birlik sonradan 2020-ci ildə "dəmir yumruq" kimi tarixə düşən gücün, xalq-dövlət, xalq-ordu birliyinin əsasını təşkil etdi.

Aprel döyüşləri, əslində, gələcək qələbənin baş məşqi idi. Bu döyüşlərdə formalaşan hərbi təcrübə və psixoloji üstünlük sonrakı mərhələlərdə özünü açıq göstərdi. 2018-ci ildə Günnüt əməliyyatı, 2020-ci ilin iyulunda Tovuz hadisələri, nəhayət, İkinci Qarabağ müharibəsi bu yolun davamı oldu.

2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsi nəticəsində Azərbaycan düşmən üzərində tam və qəti qələbə qazandı, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olundu.

Bu döyüşlərdə fərqlənən qəhrəmanlarımız dövlət tərəfindən yüksək qiymətləndirildi. Murad Mirzəyev, Samid İmanov və Raquf Orucov kimi igidlərimizin adı xalqımızın yaddaşına əbədi həkk olundu. Bu mükafatlar yalnız fərdi qəhrəmanlığın deyil, bütövlükdə, Azərbaycan əsgərinin şərəf və ləyaqətinin qiymətləndirilməsi idi.

Bu gün işğaldan azad olunmuş torpaqlarda həyat yenidən canlanır. Bir zamanlar düşmənin poliqona çevirdiyi ərazilərdə geniş abadlıq-quruculuq və bərpa işləri gedir. Vaxtilə Ermənistan ordusunun silahlarının guruldadığı bu torpaqlarda musiqi sədaları, gülüş səsləri eşidilir. İndi bütün azad Qarabağın və Şərqi Zəngəzurun səmasında qəhrəman döyüşçülərimizin ucaltdıqları Azərbaycan bayrağı dalğalanır.

İllər, əsrlər keçsə də, bizə qələbə qüruru yaşadan, torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edən şəhidlərimiz heç vaxt unudulmayacaq. Onların adları tariximizin qızıl səhifələrinə əbədi həkk olunaraq xatirələri hər birimizin qəlbində daim yaşayacaq. Qəhrəman oğullarımızın fədakarlığı bizə yalnız qürur deyil, həm də böyük bir məsuliyyət, gələcək nəsillərə vətənin azadlığını qorumağın, milli birliyi və dövlətimizin qüdrətini daim yüksəltməyin vacib olduğunu öyrədir. Bu qəhrəmanlıq örnəyi hər zaman xalqımızın ruhunu alovlandıracaq, vətən sevgisinin, şücaətin və qətiyyətin əvəzsiz simvoluna çevriləcək.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Zəfərə gedən yolun başlanğıcı

**Aprel döyüşlərinin başladığı gündən 10 il keçir. 10 il əvvəl səhər gözlərini açaraçmaz erməni qəsbkarları qəflətən ön mövqelərimiz üzərinə hücuma keçdilər. Bir an içində silahlar dilə gəldi, atəş səsləri ətrafdakı sakitliyi qılınc kimi doğrayıb parçaladı.**

Xam xəyallarla yaşayan düşmən qısa müddət ərzində çirkin məqsədinə nail olacağını, istəyinə çatacağını düşünürdü. Amma Azərbaycan Ordusunun qəhrəman zabit və əsgərləri onların istəklərini gözlərində qoydu. Həmişə mövqeyində ayıq-sayıq dayanan hərbçilərimiz qısa müddət ərzində düşmən hücumlarını dəf etdilər. Ordumuzun cəsur hərbçilərindən ağır zərbələr alan işğalçılar ciddi itkilər verərək geri çəkilməyə məcbur oldular.

Özünü "güclü", "məğlubedilməz" zənn edən düşmən ağır itkiyə məruz qaldı. Erməni işğalçıları ilə bərabər, bütün dünya aprelin ilk günlərində Azərbaycan Ordusunun gücünü, qüdrətini və qəhrəmanlığını gördü. Yalnız görmədi, həm də heyran qaldı. Buna görə də inamla deyə bilərik ki, uğurla başa çatan 2016-cı ilin Aprel döyüşləri qəhrəmanlıq tariximizə böyük hərflərlə yazıldı. Azərbaycan Ordusunun zabit və əsgərləri Aprel döyüşlərində xalqımıza qələbə sevincini yaşatdılar. Böyük Zəfərə gedən yolun təməli qoyuldu.

4 gün davam edən döyüşlər cəmiyyətdə ordumuza böyük unam yaratdı. Bu gün də qürurunu yaşadığımız həmin günlər güclənən Silahlı Qüvvələrimizin tarixinə qızıl hərflərlə həkk olundu. Bütün siyasi şərhçilər və hərbi mütəxəssislər bu uğurlu əməliyyatı yüksək qiymətləndirdilər. Döyüşlər zamanı istifadə edilən taktikaya böyük önəm verdilər. Dörd gün davam edən döyüşlər ordumuzun gücünün, qüdrətinin hansı səviyyədə olduğunu göstərən nümunə oldu. Silahlı Qüvvələrimizin cəsur zabit və əsgərləri döyüşlər zamanı böyük hünər və rəşadət nümayiş etdirərək erməni işğalçılarını mövqelərindən qovdular. Ermənilərin "məğlubedilməz"liyi ayaqlar altına atıldı. Hamı kimin güclü, kimin zəif olduğunu aydın gördü. Bu döyüşlər nəticəsində böyük starateji əhəmiyyətə malik olan Lələtəpə, həmçinin Talış kəndi istiqamətindəki yüksəkliklər azad edildi. Əlverişli mövqelərin qazanılması ordumuza geniş əraziyə nəzarət etmək imkanı qazandırdı.

Xalqımıza böyük sevinc bəxş etmiş Aprel döyüşləri sanki 10 il əvvəl yox, bu yaxınlarda baş verib. Qürur duyuruq ki, bu döyüşlərin iştirakçısı və bir çox ürəkaçan, qələbə qoxulu hadisələrin şahidi olmuşuq. Aprel döyüşləri zamanı erməni işğalçılarına qarşı cəsarətlə vuruşan zabit və əsgərlərlə, əməliyyatlar zamanı yaralanan şəxsi heyətə tibbi xidmət göstərən həkimlərlə, tibb bacıları ilə olan görüş və söhbətlərimiz heç vaxt unudulmayacaq. Həmişə qürur hissi ilə xatırlanacaq.

Döyüşlərin ağırlığını öz üzərinə götürmüş hərbi hissəyə səhər-səhər çatdıq. Geniş həyətdə böyük canlanma hiss olunurdu. Avtomobillər, zirehli texnikalar dağlara, dərələrə səs sala-sala ön xəttə şütüyürdü. Ətrafı bürüyən atəş səsləri səngimək bilmirdi. 23 ildən bəri beynəlxalq səviyyədə aparılan sülh danışıqları səmərə vermədiyinə görə müharibə başlamışdı. Əllər silaha uzanmış, tətiklər sıxılmışdı. İllərcə susan silahlar dilə gəlmişdi. Tərəfdarlarına arxalanan düşmən yeni ərazilərimizi işğal etməyə can atırdı. Buna görə də aramsız olaraq mövqelərimizə hücum çəkir, üstünlüyü ələ almağa çalışırdı. Ordumuzun cəsur zabit və əsgərləri isə onların qarşısını qətiyyətlə alırdılar.

Bölüklərə çatanda ön xətdən gələn bir neçə hərbi maşının bizə yaxınlaşdığını gördük. Avtomobillər dövrə vurub binanın arxa tərəfində dayandı. Buradakı zabitlərdən öyrəndik ki, gələnlər döyüşdən qayıdan zabit və əsgərlərdir. Vaxt itirmədən onlarla görüşüb söhbət etdik. Üz-gözündən qəhrəmanlıq yağan zabit Pərviz Pirməmmədov dedi ki, ermənilər atəşkəs rejimini pozaraq qəflətən mövqelərimiz üzərinə hücuma keçdilər: "Dərhal döyüşə, qəsbkarların qarşısını almağa atıldıq. Güclü həmləmiz qarşısında dayanmağa gücü çatmayan ermənilər ağır itki verib geri çəkildilər. Şəxsi heyətin qəhrəmanlığı sayəsində işğalçıların bir neçə mövqeyini darmadağın etdik". Həmsöhbətimiz döyüşlərdə fərqlənən əsgərlərdən Pirverdi Abbasov, İsmət Fətiyev, Şirin Məmmədov, Mehman Bayramov, Xəyal Allahverdiyev, Fəqan Səmədov, Emil Hüseynli və başqalarının adlarını çəkdi. Dedi ki, düşmən üzərində qələbənin qazanılması naminə hamı cəsarətlə vuruşdu: "Həm ermənilərə, həm də onların havadarlarına gücümüzü göstərdik. Göstərdik ki, Azərbaycan Ordusunun zabit və əsgərləri çox qəhrəmandılar. Onlar uzun illərdən bəri işğalda qalmış torpaqlarını azad etməyə qadir və hazırdırlar".

Aprel döyüşlərində fəal iştirak edən zabitlərdən Eldəniz Sadıqovla, Mirsaab Şirinovla, Qafqaz Əsgərovla, Səid Rəşidzadə, Nihad Bayramov, Cahangir Eyvazov və başqaları ilə də görüşüb söhbət etdik. Onlar döyüşlərdə göstərdikləri igidlikdən, düşməni necə məğlub etdiklərindən danışdılar.

10 il bundan əvvəl baş vermiş Aprel döyüşləri qəhrəmanlıq tariximizin şərəfli bir səhifəsidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2016-cı ildə cəbhə bölgəsinə səfəri zamanı zabit və əsgərlərlə görüşmüş və onların qarşısında çıxış etmişdir. Ali Baş Komandan bu gün hamımızın qürur və iftixarla yad etdiyimiz Aprel döyüşlərindən söz açaraq demişdir: "Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribat törətmişdir. Qəhrəman Azərbaycan Ordusu - xalqımızın zabit və əsgərləri bu təxribata layiqli cavab vermişdir. Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. ...Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir. ...Bu bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan vətəndaşları vətənpərvər vətəndaşlardır. Bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi".

Aprel döyüşlərində böyük igidlik və cəsarət göstərmiş zabit və əsgərlərin qəhrəmanlıqları dövlət başçısı tərəfindən yüksək qiymətləndirilmişdir. Prezident İlham Əliyevin 19 aprel 2016-cı il tarixli müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin 3 hərbi qulluqçusu "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüş, 7 hərbi qulluqçu "Azərbaycan Bayrağı" ordeni, 1 hərbi qulluqçu 2-ci dərəcəli və 4 hərbi qulluqçu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 hərbi qulluqçu "Vətən uğrunda" medalı, 43 hərbi qulluqçusu "İgidliyə görə" medalı, 45 hərbi qulluqçu "Hərbi xidmətlərə görə" medalı, 2 hərbi qulluqçu "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılmışlar.

Bu gün hamımızın iftixarla xatırladığımız Aprel döyüşləri növbəti qələbələrimizə yol açdı. 2018-ci ilin mayında Naxçıvan istiqamətində başa çatan Günnüt əməliyyatı nəticəsində 11 min hektar ərazi azad olundu, İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət ələ keçirildi. 2020-ci ilin iyulunda isə Tovuz istiqamətində düşmən təxribatının qarşısı qətiyyətlə alındı, erməni işğalçılarına sarsıdıcı zərbələr endirildi. Düşmən bu zərbələr qarşısında dayana bilməyib geri çəkildi.

2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsi isə işğal altında olan torpaqlarımızın azad olunması ilə başa çatdı. Aprel döyüşlərində yarımçıq qalmış əməliyyatlar İkinci Qarabağ müharibəsində uğurla davam etdirildi. Ermənilər üzərində tarixi Zəfər qazanıldı, ədalət bərpa edildi. Azərbaycan Ordusu 2016-cı ilin aprelində başlamış igidlik, qəhrəmanlıq ənənələrini uğurla davam etdirərək ərazilərimizi erməni işğalından azad etdi. Bununla da ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olundu. Böyük əminliklə deyə bilərik ki, Aprel döyüşləri 2020-ci ilin noyabrında qazanılan Zəfərin başlanğıcı, təməli idi.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# REGİONLAR

## Ağdamda və Mingəçevirdə Soyqırımı Günü qeyd olunub



**Ağdamda 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr edilmiş anım tədbiri keçirilib. Rayon icra hakimiyyətinin və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə baş tutan tədbirdə rayon rəhbərliyi, idarə, müəssisə, təşkilatların və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.**

Tədbir soyqırımı qurbanlarının, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlamış, iştirakçıların çıxışları ilə davam etmişdir. Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov və digər natiqlər çıxış edərək Birinci Dünya müharibəsinin sonlarına yaxın, 1918-ci ilin mart ayında yaranmış mürəkkəb şəraitdə Azərbaycanın müxtəlif yerlərində erməni-daşnak və bolşevik dəstələrinin birlikdə azərbaycanlı əhalini kütləvi qırğınlara, soyqırımına məruz qoymalarından, Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli sərəncamı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilməsindən, tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi üçün Prezident İlham Əliyevin ardıcıl fəaliyyətindən bəhs etmişlər.

❖ ❖ ❖

**31 Mart - Azərbaycanlıların Soyqırımı Gününün 108-ci ildönümü münasibətilə Mingəçevir Şəhidlər xiyabanında anım tədbiri keçirilib.**

Şəhər rəhbərliyi, hüquq-mühafizə orqanlarının rəsmiləri, Mingəçevir Bələdiyyəsinin, YAP şəhər təşkilatının, Mingəçevir Dövlət Universitetinin, Tibb və Turizm kolleclərinin rəhbərliyi və təmsilçiləri, idarə və müəssisələrin kollektivləri, ictimaiyyət nümayəndələri, mətbuat işçilərinin iştirak etdikləri tədbirdə 1918-ci ilin 30 mart və 3 aprel aralığında daşnak erməni silahlı dəstələri tərəfindən kütləvi şəkildə vəhşicəsinə qətlə yetirilmiş azərbaycanlıların, soyqırımı qurbanlarının, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov məruzə ilə çıxış edərək 108 il öncə Bakıda və Bakı quberniyasının müxtəlif bölgələrində, o cümlədən ayrı-ayrı dövrlərdə, 1988-1994-cü illərdə separatçı ermənilərin xalqımızın başına gətirdiyi müsibətlərdən, törədilən qətliamlardan, işğalçılıq əməllərindən söz açıb. Yaxın tariximizdə baş verən hadisələrdən, minlərlə soydaşımızın doğma yurd yerlərindən didərgin salınmasından bəhs edərək bildirib ki, Ulu Öndər Heydər Əliyevin 1998-ci il mart ayının 26-da imzaladığı sərəncamla 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi təsis edilib.

Qeyd edib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin siyasi səriştəsi, qətiyyəti, Milli Ordumuzun cəsur əsgər və zabitlərinin, şəhidlərimizin qəhrəmanlığı sayəsində uzun illərdən sonra 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı erməni faşistlərinin cavabı qətiyyətlə verilmiş, işğal altında qalan torpaqlarımız azad olunmuşdur: "2023-cü ildə lokal xarakterli antiterror əməliyyatları zamanı Azərbaycanın ərazi bütövlüyü tam təmin olunmuş, suverenliyi bərpa edilmiş, Zəfər tariximiz yazılmışdır. Prezidentin rəhbərliyi və göstərişi ilə bu gün Qarabağda və Şərqi Zəngəzurda başlanan tikinti quruculuq işləri ən yüksək səviyyədə davam edir. Artıq minlərlə soydaşımız doğma yurd yerlərinə qayıdır və həyat öz məcrasına düşür. Burada geniş infrastruktur layihələri həyata keçirilir, iş yerləri yaradılır, təhsil, səhiyyə, mədəniyyət ocaqları fəaliyyətə başlayır".

Tədbirdə Qərbi Azərbaycan İcmasının Mingəçevir şəhəri üzrə nümayəndəsi Mayıl İsmayılov, Kəlbəcər rayonundan olan keçmiş məcburi köçkün Sevil Əlişova, 14 nömrəli tam orta məktəbin direktoru Ceyhun Atayev çıxış edərək Soyqırımı Günü ilə əlaqədar fikirlərini bölüşüblər.

Sonra Soyqırımı Abidə Kompleksinin önünə gül dəstələri düzülüb, faciə qurbanlarının xatirəsinə ehtiram ifadə olunub.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

● "Şəhərsalma və Memarlıq İli"

## Qədimliklə müasirliyin qol-boyun olduğu Gəncə

**Azərbaycanın ikinci ən böyük şəhəri olan qədim Gəncə abadlaşmaqda və müasirləşməkdə davam edir. Xüsusən də son vaxtlar şəhərə yolu düşənlər başlanmış genişmiqyaslı quruculuq və yenidənqurma işlərinin şahidi olurlar.**



Böyük tikinti meydançasını xatırladan, müasir şəhərlərə xas arxitektura əsasında abadlaşan şəhərin əksər küçə, meydan, park və xiyabanlarında, sosial-mədəni, inzibati obyektlərində, çoxsaylı yaşayış binalarında aparılan işlər göz oxşayır. Bu işlər şəhərin memarlıq görünüşünə yeni çalar gətirir. Ümumilikdə 154 500 kvadratmetr sahədə fasad işləri tamamlanmışdır. Dam örtüklərinin yenilənməsi istiqamətində əhəmiyyətli nəticələr əldə olunmuşdur. Təkcə son bir ildə 204530 kvadratmetr sahədə təmir işləri başa çatmış, 32680 kvadratmetr sahədə piyada yolları bərpa edilmişdir.

Şəhərin park və meydanları da əsaslı şəkildə yenilənmişdir. Tarixi və mədəni əhəmiyyət daşıyan Xan bağının 60 min kvadratmetr sahəsində əsaslı təmir işləri aparılmışdır. Eyni zamanda Nizami parkı, Bayraq Meydanı, Fikrət Əmirov adına park yenidən qurulmuşdur. Ümumilikdə 175900 kvadratmetr sahəni əhatə edən bu işlər şəhərin ictimai məkanlarını müasir tələblərə uyğunlaşdırmışdır.

Prezident İlham Əliyevin 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etməsi aparılan genişmiqyaslı abadlıq və yenidənqurma işlərinə məqsədyönlü istiqamət vermək, habelə şəhərin gələcək inkişafı zamanı qədim və müasir memarlıq ənənələrinin vəhdətinə nail olmaq üçün yeni imkanlar açmışdır. Görülən işlər kampaniyaçılıqdan, kosmetik dəyişikliklərdən tamamilə uzaq olmuş, şəhərin uzun illərdən bəri yığılıb qalmış problemləri həll edilmişdir. Ümumiyyətlə, bu il Gəncədə çoxlu tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində şəhərdə həyata keçirilməsi nəzərdə tutulan bu tədbirlər qədim şəhərin zəngin memarlıq irsinin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır. Tədbirlər həm tarixi irsin tanıdılmasını, həm də müasir və dayanıqlı şəhər mühitinin formalaşdırılmasını hədəfləyir. Həmin işlər çərçivəsində ilk növbədə Gəncənin şəhərsalma və memarlıq irsinə dair məlumatların ictimaiyyətə geniş şəkildə təqdim olunması nəzərdə tutulur. Xüsusilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi dövründə şəhərdə formalaşmış memarlıq mühiti və həyata keçirilmiş irimiqyaslı layihələr barədə silsilə tədbirlərin təşkili planlaşdırılır.

Planın mühüm istiqamətlərindən biri daha sağlam və dayanıqlı şəhər mühitinin formalaşdırılmasıdır. Bu məqsədlə mövcud parkların, tarixi və mədəniyyət abidələrinin ərazisində və ətrafında abadlıq işlərinin aparılması, küçə və ictimai məkanların yenidən qurulması, eləcə də yaşıllıq zonalarının yolkənarı ərazilərdə salınması nəzərdə tutulur. Bu işdə ekoloji tarazlığın qorunması və şəhər estetikasının yaxşılaşdırılması əsas prioritet kimi müəyyən edilmişdir.

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində şəhərdə fəaliyyət göstərən ali təhsil və elmi müəssisələrdə, eləcə də müxtəlif təşkilatlarda yerli və beynəlxalq əhəmiyyətli konfransların, forumların, eləcə də sərgi və müzakirə platformalarının keçirilməsi də gözlənilir. Bu tədbirlər şəhərsalma və memarlıq sahəsində təcrübə mübadiləsinin genişləndirilməsinə, innovativ yanaşmaların təşviqinə imkan yaradacaq.

Bundan başqa, Gəncənin qardaş şəhərlərlə mövcud əməkdaşlıq əlaqələrinin daha da inkişafı və genişləndirilməsi istiqamətində addımlar atılacaq. Qarşılıqlı səfərlər, birgə layihələr və mədəni proqramlar şəhərlərarası münasibətlərin möhkəmləndirilməsinə töhfə verəcək.

Şəhər ərazisində "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş müxtəlif təbliğat materiallarının yerləşdirilməsi və nümayiş etdirilməsi də planlaşdırılıb. Eyni zamanda Gəncənin tarix və memarlıq abidələri haqqında məlumatların rəqəmsallaşdırılması həyata keçiriləcək ki, bu da şəhərin mədəni irsinin müasir informasiya resursları vasitəsilə əlçatanlığını təmin edəcək.

Tədbirlər planında xüsusi yer tutan təşəbbüslərdən biri də Dünya Şəhərlər Günü çərçivəsində "Gəncə Şəhər Günü"nün təşkil olunmasıdır. Bu əlamətdar gün şəhərin tarixi, mədəniyyəti və müasir inkişaf potensialının geniş ictimaiyyətə təqdim olunmasına imkan yaradacaq.

Söz yox ki, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində nəzərdə tutulan bütün bu və digər tədbirlər Gəncənin həm tarixi kimliyinin qorunmasına, həm də müasir və dayanıqlı şəhər modelinin formalaşdırılmasına xidmət edir. Qədimliklə müasirliyin vəhdətini özündə birləşdirən Gəncə bu təşəbbüslərlə inkişaf yolunda yeni mərhələyə qədəm qoyur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Yaz yağışları taxıl əkinlərinin muradını verdi

**Novruz bayramı günlərində yağan intensiv yağışlar paytaxt Bakıda, digər şəhər və rayonlarda müəyyən problemlər yaratsa da, ondan bəhrələnənlər, ona sevinənlər də oldu. Bunlar əkinçiliklə məşğul olan kənd əhalisi, fermerlərdir.**

Taxıl əkinləri, örüş və otlaqlar doyunca su içdi. Bu isə bol məhsul, ruzi-bərəkət üçün başlıca şərtdir. İndi hansı fermeri dindirsən, üzü gülür: "Yağan yağışlar biz əkinçilərə Allahın mərhəməti, hədiyyəsi idi" deyirlər. Bu günlər hansı tərəfə baxsan, hər yer yaşıllığa bürünüb. Havalar qızdıqca bütün bitkilər, o cümlədən elin əvəzsiz neməti olan taxıl sahələri gündən-günə boy atır.

Cəlilabad taxılçılıq rayonudur. Ən çətin dönəmlərdə buranın sarı buğdası cənub bölgəsi əhalisinin dadına çatıb, adamları aclıqdan xilas edib. Rayonda taxılçılığa həmişə böyük diqqət və qayğı olub. Elə bunun sayəsində də zəhmətkeş Cəlilabad əhalisi yüksək məhsul yetişdirərək yaxşı qazanc əldə edib. O dövrün nailiyyətləri bu gün də yaşayır. Rayonun taxılçıları 2024-cü ilin payızında əkdikləri və məsuliyyətlə yetişdirdikləri buğda zəmilərinin hər hektarından keçən il 35,6 sentner buğda, 31,5 sentner arpa biçmişlər.

Cəlilabad taxılçıları üçün bu mövsümün daha uğulu olacağı gözlənilir. Keçən ilin payızında əkdikləri 50 min 372 hektar buğda və 16 min 90 hektar arpa sahələrində nümunəvi çıxış alınıb. Payızda yağan yağışlar, fevral ayında düşən qar əkinlərin muradını verib. Təbiətin mərhəmətinə arxayın olmayan fermerlər 22 min 326 hektar sahədə bitkilərə yemləmə gübrəsi verib, siçanabənzər gəmiricilərə qarşı 5 min 488 hektarda mübarizə tədbirləri həyata keçirib və 3 min 560 hektarda taxılın inkişafına mane olan yabani bitkiləri dərmanlama yolu ilə məhv ediblər. Fermerlər gündəlik olaraq sahələrə baş çəkir, lazımi aqrotexniki tədbirləri həyata keçirirlər. Yeri gəlmişkən qeyd edək ki, rayonda taxıl əkinlərinin 95 faizi dəmyə şəraitdə becərilir. Yağan yağışların həmin sahələr və sahibkarlar üçün nə demək olduğu təsəvvürəgəlməzdir.

Biləsuvar Cəlilabad rayonu ilə qonşudur. Burada da torpağa bağlı adamlar çoxdur. 86 yaşlı fermer Lətif Cəfərov iki il əvvəl haqq dünyasına qovuşdu. O, Sosialist Əməyi qəhrəmanları Qızqayıt Həsənova, Ərəstun Məmmədov



və digər əmək qabaqcıllarının estafetini davam etdirmişdir. Bu estafeti Birinci dərəcəli Əmək ordeni ilə təltif edilmiş Fazil Musayev, həmin ordenin üçüncü dərəcəsini almış Ramiz Əliyev, Rüstəm Əzizov və başqaları qəbul etmişlər. Onlar kənd təsərrüfatının başqa sahələri kimi, taxılçılıqda da yüksək uğurlar əldə edirlər - hər hektardan Muğan şəraitində 45 - 50 sentner buğda götürürlər.

Cari ilin məhsulu üçün keçən ilin payızında Biləsuvar üzrə 34 min 495 hektarda səpin aparılıb. Bunun 6 min 875 hektarı buğda, 27 min 620 hektarı arpadır. Həmin əkinlərin 6 min 661 hektarı dəmyədir. Sahələrin 11 min 593 hektarı səp-suvar üsulu ilə əkilib. 3 min 790 hektar taxıl sahəsi 1-ci və 2-ci dəfə suvarılıb. 3 min 382 ton yemləmə gübrəsindən (azot və karbamid) istifadə edilib.

Salyanlı fermerlər taxıla çörək deyə yüksək qiymət verməklə yanaşı, onu başqa kənd təsərrüfatı bitkiləri üçün sələf hesab edirlər. Onlar növbəli əkin üsulunu tətbiq etməklə əkdikləri sahələrdən daha çox məhsul götürməyə nail olur, o cümlədən aqrotexniki tədbirlərə ciddi əməl edərkən əkinlərin vaxtında və keyfiyyətlə suvarılmasını diqqətdə saxlayırlar. Suyun az olduğu, hər kəsin öz sahəsini vaxtında suvarmaq istədiyi indiki günlərdə - mart ayının üçüncü ongünlüyündə yağan yağışlar salyanlı fermerlərin də üzünü güldürdü. Taxıl əkənlər, xüsusilə dəmyə əkin sahibləri hədsiz dərəcədə sevindilər. Onların bəziləri bunun üçün ulu Tanrıya əl açaraq qurban da demişlər.

Salyanlı fermerlər bu ilin məhsulu üçün keçən ilin payızında 4 min 635 hektara buğda, 8 min 652 hektara arpa toxumu səpiblər. Onların bir çoxu əkin zamanı torpağa toxumla birlikdə məhsuldarlığa çox yaxşı təsiri olan ammofos gübrəsi veriblər. Eyni zamanda yüksəkreproduksiyalı toxumdan istifadə etmək də yaddan çıxmayıb. Artıq bunlar arxada qalıb. İndi sahələr yamyaşıl xalıya bənzəyir. Havalar qızdıqca bitkilər boy atır. Fermerlər aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə yerinə yetirirlər. 10 min hektara yaxın sahəyə yemləmə gübrəsi verilib. Taxıl sahələrində bitən müxtəlif yabanı bitkilərə qarşı yaxın zamanda herbisid səpiləcəkdir.

Neftçalada da taxıl əkinlərinin çoxunu arpa təşkil edir və 28 min 557 hektar arpa sahəsinin 12 min 731 hektarı dəmyə şəraitində yetişdirilir. Buna görə də Novruz bayramı günlərində yağan yağışlar fermerlərin ürəyincə olub. Deməli, yaxşı məhsulun əsası var. Əkinçilər deyirlər ki, aprel ayında da belə bir yağış yağsa, dəmyə sahələrin hər hektarından orta hesabla ən azı 30 sentner məhsul götürəcəklər.

Neftçalada arpadan başqa, 5 min 100 hektarda buğda əkilib. İndiyədək 15 min 330 hektarda 1-ci vegetasiya suvarması aparılıb, 22 min hektara isə yemləmə gübrəsi verilib. Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri tərəfindən əkinlərin vəziyyəti ilə bağlı müşahidələr aparılır. Bu yaxınlarda alaq otlarına qarşı herbisidlər vasitəsilə mübarizə tədbirinə başlanılacaq.

Yaz yağışı taxılçıların, heyvandar fermerlərin könlünü açsa da, onlar görüləsi işləri bir an belə nəzarətsiz buraxmırlar. Yaxşı bilirlər ki, Allahın mərhəməti öz yerində, özləri də lazım olan işləri vaxtında keyfiyyətlə görməlidirlər ki, bol məhsul əldə etsinlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Qusarda Bənövşə gölü su anbarı bərpa olunur

**Ölkəmizdə su təchizatı ilə bağlı irili-xırdalı çox sayda layihələr həyata keçirilir. Əgər dövlət vaxtında bu istiqamətdə lazımi addımlar atmasaydı, bu gün Azərbaycanda su təhlükəsizliyi ilə bağlı ciddi problemlər yaşanardı.**

Buna baxmayaraq, məsələ yenə gündəmdədir. Məqsəd əhalini, kənd təsərrüfatını, sənayeni dayanıqlı su ilə təmin etmək, su mənbələrini qorumaq, su anbarlarının potensialını artırmaq, mövsüm gələndə suları yığmaqdır ki, sonra ilboyunca onlardan səmərəli istifadə olunsun. Bunların hamısı şimal bölgəsinə də birbaşa aiddir. Qusar rayonunda həmin istiqamətdə ciddi işlər görülür və onlardan biri rayonun ərazisində yerləşən Bənövşə gölü su anbarının yenidən qurulması və bərpası layihəsidir.

Hazırda Bənövşə gölü su anbarının yenidən qurulması və bərpası ilə əlaqədar görülən işlər bir qədər də sürətlənib. Rayon əhalisinin su təchizatının yaxşılaşmasına xidmət edən bu yenidənqurma işlərinə ötən ilin sonlarında başlanıb. Qeyd edək ki, Qusar şəhərində "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya şəbəkələrinin yenidən qurulması layihəsi" 2016-cı ildə başa çatdı. Amma istifadəsiz qalaraq qurumuş Bənövşə gölü su anbarının bərpası qalırdı. Bu məqsədlə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, dövlət büdcəsindən ilkin olaraq 1 milyon manat vəsait ayrıldı. Layihə üzrə podratçı təşkilatın müəyyənləşdirilməsi üçün qanunvericiliyə uyğun olaraq tender proseduru həyata keçirildi. Müvafiq tender prosesindən sonra seçilmiş podratçı təşkilat tərəfindən su anbarının bərpası işlərinə başlanıldı.

Bu günlər rayon icra hakimiyyətinin başçısı Sahir Məmmədxanov görüləcək işlərlə tanış olmaq üçün podratçı təşkilatın nümayəndələri ilə görüşüb. Görüşdə vurğulanıb ki, Bənövşə gölü su anbarının yenidən qurulması təkcə infrastruktur layihəsi deyil, eyni zamanda sosial əhəmiyyətli təşəbbüsdür. Layihənin icrası nəticəsində ümumilikdə 7 kənddə yaşayan 11 min nəfərdən artıq əhalinin içməli su təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması nəzərdə tutulur.

Layihənin birinci mərhələsi çərçivəsində anbarın lil və çöküntülərdən təmizlənməsi, zəruri yerlərdə beton örtüyünün bərpası, su xəttinin yenilənməsi, mühafizə hasarının çəkilməsi və digər işlərin görülməsi nəzərdə tutulur. Artıq müəyyən təmizləmə işləri görülüb. Növbəti mərhələlərdə içməli su təminatında ciddi problemlər yaşayan Köhnə Xudat, Əvəcük, Gədəzeyxur, Bədişqala, Gündüzqala, İmamqulukənd kəndlərinə su xətlərinin çəkilməsi və Aşağı Ləgər kəndinin içməli su xəttinin bu anbara qoşulması planlaşdırılıb. Yağış və qar sularının buraya toplanması nəticəsində rayon ərazisində su qıtlığına son qoyulacaq.

Xatırladaq ki, bu il yanvarın 12-də Prezident İlham Əliyev "Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramı"na həsr olunan müşavirə keçirmişdir. Həmin müşavirədə dövlətimizin başçısı deyib: "İçməli su və suvarma layihələri də həmişə diqqət mərkəzində olub. Azərbaycan vətəndaşları yaxşı xatırlayırlar ki, vaxtilə bu, insanları narahat edən ən ciddi məsələlərdən biri idi. Bu məsələlər də tədricən öz həllini tapmışdır. Bu gün bizim əksər şəhərlərimizdə içməli su, kanalizasiya layihələri icra edilmişdir və bu proses davam etdirilir". Görülən işlər əyani şəkildə göstərir ki, Qusar da bu prosesdən kənarda qalmayıb.



***Akif ƏLİYEV,***
***"Azərbaycan"***




● Günahsızlar

# Sınmayan ömrün acı hekayəsi

## 18 illik sürgündən dönən Ağası Məmmədova Vətən yeni həyatın qapısını açdı

**Zaman o zaman idi ki, 1930-cu illərin repressiya kabusu Azərbaycanda az qala hər evə, hər küçəyə sızmışdı. NKVD-nin (Daxili İşlər Xalq Komissarlığı) yatmadığı, gözünü qırpmadığı gecələrin acı küləyi demək olar ki, Azərbaycanda çox böyük sürətlə əsirdi. İnsanlar qorxu içində idilər. Hər kəsin dilində "bircə bu külək mənim qapımı çırpmasın, İlahi" duası var idi...**



NKVD 1934-1946-cı illərdə SSRİ-də dövlət təhlükəsizliyini, polis sistemini və həbs düşərgələrini (QULAQ) idarə edən mərkəzi orqan idi. 24 saat günahkar axtarırdı ki, sürgünə göndərsin, ya da güllələsin. Gecənin dərin sükutunda qara paltarlı, üzləri bilinməyən, gündüz işığından qorxan NKVD əməkdaşları gedər-gəlməzə göndərdikləri insanları yuxudan oyadırdılar. Maskalıların addımları ağır, baxışları zülmət gecə kimi dərin və dibsiz idi. Belə vahiməli və qorxulu gecələrin birində Ağası Məmmədovun evinin qapısı döyüldü. Qapının arxasında o öz ürəyinin döyüntüsünü eşidərək qaranlıq otaqda dayanmış, gələcəkdən xəbərsiz, yalnız qorxu və gözləmə arasında ilişib qalmışdı. "Mən niyə, günahım nədi?" sualını verməyə gücü çatmadı, qorxdu. Maskalılar soyuq, sərt bir əllə onun qolundan yapışdılar, heç bir açıqlama vermədən qapıdan çıxarıb gecənin qaranlığında yoxa çıxdılar.

Və beləcə... 36 yaşlı cavan bir alimin taleyi qara paltarlı qara adamların qaranlıq kölgəsində itdi. Sükut və qorxu onun həyatına möhür vurdu, geriyə yalnız xatirələrdə titrəyən bir boşluq qaldı. Gecənin sükutu içində gələn o ağır addımlar, sərt səslər, amiranə deyilmiş "bizimlə gedirsən" sözləri evin divarlarına hopdu. Onlar gedəndən sonra Ağası Məmmədovun həyat yoldaşı Şəfiqə xanım pəncərənin kənarında dayanıb uzun zaman boş küçəyə baxdı. Qaranlığın içində itən, gecə kimi qara maşının vahiməli səsi bir ömür Şəfiqə Qiyasbəylinin qulaqlarından getmədi...

İnsanların ucadan danışmağa cürət etmədiyi o qorxulu gecənin arxasında isə artıq çoxdan yazılmış bir ssenari dayanırdı. İstintaqın qaranlıq otaqlarında kağız üzərində qurulan saxta ittihamlar, zorla alınan ifadələr və əvvəlcədən hazırlanmış qərarlar onun taleyini müəyyənləşdirmişdi. Nə müdafiə üçün sözə, nə də ədalət üçün ümidə yer qalmışdı. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyası onu əks-inqilabçı fəaliyyətdə, pantürkizmdə və terrorçuluqda günahlandıraraq güllələnməsi barədə hökm çıxardı. Ağası Məmmədovun taleyinə vurulan düyün Tanrı yazısı idi, yoxsa talesizlik? Bu, şübhəsiz, ədalətsiz, dinsiz, Allahsız bir hökm idi. Hər kəsə gün kimi aydın idi ki, taleyinə zərbə vuran bu haqsız cəza onun bəy oğlu olmasından irəli gəlirdi. Amma şans deyilən bir yazı var ki, o da Ağası Məmmədovun haqqında verilən qərara "yazılıbmış". Baş Prokurorluğun məsul işçisi Abdulkərim Məlikovun müdaxiləsi onun işinin ayrıca icraata götürülməsinə və hökmün yumşaldılmasına yol açdı. Nəticədə Ağası Məmmədov 1938-ci ilin payızında güllələnməkdən xilas oldu və 10 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edildi. Onda 1938-ci ilin apreli idi...

Kim idi Ağası Məmmədov? O, 1902-ci dekabrin 24-də Göyçay qəzasının sakit və mənzərəli Potu kəndində bəy ailəsində doğulmuşdu. Atası İsmayıl bəy varlı mülkədar idi. Ailənin yaddaşında qorunub saxlanılan şəcərəyə görə, onların soykökü XVIII əsrin ortalarında Osmanlı ordusunda xidmət edən bir türk zabitinin həyat yolu ilə başlanırdı. Həmin zabit Gəncəyə gəlmiş, sonra isə Potu kəndində torpaq alaraq burada kök salmışdı. Maraqlıdır ki, 1918-ci ildə iş elə gətirib ki, 20 yaşlı Ağası Məmmədov Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanı Şamaxıda ilk qarşılayan vəzifəli şəxslərdən olub.

Ağası Məmmədov orta təhsilini Göyçay şəhər məktəbində alıb. Gənc yaşlarından ictimai-siyasi proseslərə maraq göstərib və 18 yaşında Kommunist Partiyasına daxil olub. Göyçay qəzasında inqilabi işlərlə məşğul olmağa başlayıb. Bir kommunist kimi öz ideallarına sadiq qalıb, partiya işində fəal iştirak edərək həm nəzəri biliklərini, həm də praktiki bacarıqlarını artırmağa çalışıb. Ona görə də partiya xətti ilə təhsilini davam etdirmək üçün müxtəlif ali təhsil ocaqlarına oxumağa göndərilib. 1922-ci ildə Bakı şəhərində universitetin Tarix fakültəsinə qəbul olub, 1923-cü ildən isə paralel şəkildə partiya məktəbində təhsilini davam etdirib.

Hər iki təhsil ona təkcə ideoloji maarifləndirmə deyil, həm də geniş dünyagörüşünün formalaşmasına yönəlmiş zəngin təcrübə qazandırıb. 1925-ci ildə seçilmiş dinləyicilər qrupunun tərkibində Moskva şəhərinə - Qırmızı Professorlar İnstitutuna (QPİ) göndərilib. O dövrün nüfuzlu ideoloji-tədris müəssisələrindən biri sayılan bu institutda fəlsəfə ixtisası üzrə üç il təhsil alıb. QPİ partiyanın ən yüksək ideoloji kadrlarının və universitetlərdə ictimai elmlər üzrə müəllimlər hazırlayan xüsusi ali təhsil müəssisəsi idi. Təhsil illəri yalnız onun elmi və ideoloji hazırlığını gücləndirməklə kifayətlənməyib, eyni zamanda dövrün tanınmış şəxsiyyətləri ilə əlaqələrinin yaranmasına da zəmin yaradıb. Bu baxımdan onun Xalq Maarif Komissarı Məmməd Cuvarlı ilə qurduğu dostluq münasibətləri xüsusi əhəmiyyət kəsb edirdi. O Cuvarlı ki, haqq söz dediyinə görə Mircəfər Bağırovun qəzəbinə gələrək, 1937-ci il oktyabrın 13-də "antisovet-trotskiçi təşkilatın fəal üzvü" damğası ilə güllələnib.

QPİ-də təhsilini uğurla başa vurub, elmi dərəcə alaraq yenidən Bakı şəhərinə qayıdır. Burada o, bir sıra ali təhsil müəssisələrində dərs deyir, eyni zamanda respublikanın qəzet və jurnallarında dərc olunan məqalələri ilə ictimai fikrə təsir göstərirdi. Həyatının bu dövrü yalnız elmi-pedaqoji fəaliyyətlə deyil, həm də şəxsi həyatında mühüm dəyişikliklə yadda qaldı, Şəfiqə Mahmud qızı Qiyasbəyli ilə ailə qurdu. Lakin onun fəaliyyəti yalnız auditoriyalar və elmi müzakirələrlə məhdudlaşmadı. 1920-ci illərin sonlarında partiya işi onu yenidən fəal siyasi mühitə çəkdi. Bu cavan oğlan qısa müddət ərzində Nuxa (Şəki), Zaqatala və Sabirabad kimi bölgələrdə rayon komitələrinin katibi kimi çalışaraq mürəkkəb və ziddiyyətli bir dövrün məsuliyyətini öz üzərinə götürdü. Kənd rayonlarında banditizmə qarşı mübarizədə iştirakı isə onun yalnız nəzəri deyil, həm də əməli fəaliyyətə hazır bir kommunist olduğunu göstərirdi.

1930-cu illərin əvvəllərindən etibarən fəaliyyətini yenidən pedaqoji sahə üzərində cəmləşdirdi. Fəlsəfə professoru kimi müxtəlif ali məktəblərdə tələbələrə, partiya işçilərinə və hərbi-komandir heyətinə mühazirələr oxuyur, öz bilik və dünyagörüşünü yeni nəslə ötürürdü. Nə yazıq ki, Ağası Məmmədovun həyatının bu məhsuldar və yaradıcılıqla zəngin dövrü uzun sürmədi. Dövrün sərt və ziddiyyətli siyasi mühiti, xüsusilə repressiya dalğaları onun taleyindən də yan keçmədi. Bütün elmi-pedaqoji fəaliyyəti və xidmətlərinə baxmayaraq, ona "xalq düşməni" damğası vuruldu. Bu ədalətsiz ittiham Ağası Məmmədovun həyatında faciəli bir mərhələnin başlanğıcına çevrildi.

Cəzasını Solikamsk şəhərinin yaxınlığındakı düşərgədə amansız və sərt iqlimin soyuğu altında, heç bir sinfə aid olmayan məhbusların arasında çəkdi. Solikamsk Perm diyarının şimalında yerləşən soyuq və sərt iqlimli bir şəhər idi. 1930-1940-cı illərdə burada fəaliyyət göstərən həbs düşərgələri əsasən duz mədənləri və sənaye obyektləri ilə bağlı idi. Məhbuslar burada ağır fiziki işlər görməyə məcbur edilirdilər. Düşərgə həyatının gündəlik ritmi sərt və monoton idi. Məhbuslar səhər saatlarından başlayaraq mədənlərdə işləyir, infrastruktur layihələrində çalışır və axşam gecə saatlarına qədər fiziki əmək sərf edirdilər. Qida rasionu məhdud və çox zaman yetərsiz idi, tibbi xidmət isə demək olar ki, mövcud deyildi. Soyuq iqlim və ağır iş şəraiti bir çox məhbusun sağlamlığına mənfi təsir göstərirdi. Burada Ağası Məmmədovun hər günü ağır zəhmət və iztirab içində keçirdi, ümid isə həmişə zəif bir işıq kimi ürəyində yanırdı. 1946-cı ildə həbs müddəti başa çatmamış Komi-Perm Muxtar Vilayətinin uzaq bir kəndində sərbəst məskunlaşmağa buraxıldı, amma azadlıq ona tam olaraq gerçək rahatlıq hissini verməmişdi.

1950-ci ildə qardaşının vəsatəti ilə Türkmənistanın Qasan-Kuli qəsəbəsində yeni bir həyat qurmaq üçün yola düşdü. Lakin 1952-ci ildə taleyin amansız qaranlığı yenidən üzünü göstərdi. Ağası Məmmədov həbs edildi və Krasnoyarsk diyarına sürgün olundu. Yalnız üç il sonra 1955-ci ildə Türkmənistana qayıda bildi, amma keçirdiyi əzab və iztirablar ruhunda dərin bir iz buraxmışdı. 1956-cı ildə bəraət alması və Kommunist Partiyasına bərpa edilməsi taleyində yeni bir mərhələnin başlanğıcı oldu. 18 illik məhrumiyyətdən sonra vətənə döndü. Vətən onu qoynuna aldı, Bakının mərkəzində mənzillə təmin olundu. Həmin ev vaxtilə Mircəfər Bağırovun sağ əli olaraq "qılıncının dalı da, qabağı da kəsən" daxili işlər xalq komissarı Ağasəlim Atakişiyevə məxsus idi. Taleyin ironiyasına baxın ki, Mircəfərin məhkəməsində ilk olaraq üzünə duran və Ağası Məmmədovun həbsində birbaşa rolu olan da həmin Atakişiyev idi. Şübhəsiz, bu, Ağası Məmmədov üçün taleyin qaranlıq bir döngəsi, alın yazısının dəyişməz hökmü idi.

54 yaşında Ağası Məmmədovun həyatında yeni bir səhifə açıldı. Xalq Təsərrüfatı İnstitutunda tələbələr qarşısında mühazirə oxuyur, illərin yığılıb qalmış bilik və təcrübəsini gənc nəsillərə ötürürdü. Fəlsəfə elmləri doktoru, professor və ictimai xadim Ağası Məmmədov 1962-ci ildə ticarət və mədəniyyət sahəsində fəaliyyət göstərərək ölkəsinin inkişafına töhfə verdi. 1967-ci ildə ittifaq əhəmiyyətli şəxsi təqaüdçü statusu qazansa da, fəaliyyətinə ara vermədi. Mədəniyyət sahəsində yüksək vəzifədə çalışdı, daha sonra isə "Azərkurort"un rəhbəri kimi Azərbaycanın şimalında - Nabrandakı istirahət zonasının yaradılmasında bütün qəlbi ilə çalışdı. 1971-ci il mayın 7-də Ağası Məmmədov dünyasını dəyişdi.

Ozamankı sürgün və həbs təkcə hüquqi cəza deyil, həm də siyasi təzyiq və qorxu vasitəsi idi. Bu üsulla sovet hökuməti həm fərdləri cəzalandırır, həm də toplumda qorxu və itaət yaratmağa çalışırdı. Professor Ağası Məmmədovun hekayəsi həmin dövrün siyasi repressiyalarının talelərə necə təsir etdiyini açıq şəkildə göstərir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

● I Türkoloji Qurultay – 100

# Həyatlarına cəllad qılıncı ilə son qoyulurdu

**XX əsrin 50-ci illərinin ikinci yarısında sovet hökuməti vaxtilə Stalin repressiyası dövründə saxta ittihamlar əsasında sürgünlərə göndərilmiş, işgəncələrə məruz qalmış, amansızcasına güllələnmiş yüzlərlə insana bəraət verdi. Bu addım tarix və yeni nəsillər qarşısında həmin adamların günahsızlığını, vicdanının paklığını, şəxsiyyətlərinin bütövlüyünü göstərdi.**



Amma nə yazıqlar ki, onların özlərini həyata qaytarmaq, həmin insanların şəxsində xalqın itirdiklərini bərpa etmək artıq mümkün deyildi. Söhbət ötən əsrin 30-cu illərində ittifaq rəhbərinin əlaltılarının (onların arasında mənfur qonşularımızın nümayəndələri ön sırada idilər) cəllad qılıncı ilə həyatlarına son qoyulmuş ləyaqətli Azərbaycan oğullarından gedir.

### "Mən günahsızam və vicdanımla yaşadım"



1926-cı ildə keçirilən I Türkoloji Qurultayda iştirak edən repressiya qurbanlarından biri də Əhməd bəy Pepinov idi. O, yüksək təhsil almış ziyalılarımızdan olmuşdur. Azərbaycanın tanınmış maarif xadimi, dövrünün qüdrətli qələm sahibi Ömər Faiq Nemanzadənin bacısı oğlu olmuş Əhməd bəy 1917-ci ildə yüksəktəhsilli gənc ziyalı kimi Cənubi Qafqazdan Müəssislər Məclisinə üzv seçilir. 1918-ci ilin fevralında yaradılan Zaqafqaziya Seymində müsəlman sosialist blokuna daxil olur. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra Milli Şurada sosialist fraksiyasının üzvü kimi irəli çəkilir, dövlət quruculuğu proseslərində yaxından iştirak edir.

Cümhuriyyət parlamentinin sədri Həsən bəy Ağayevin bu savadlı, bacarıqlı gəncə böyük rəğbəti vardı. Pepinovun bu dövrdəki ən böyük xidmətlərindən biri də Azərbaycan Xalq Cümhuriyyətinin xarici ölkələrə universitet təhsili almaq üçün göndərdiyi 100 tələbə ilə bağlıdır. Belə ki, parlamentin xaricə göndəriləcək gəncləri seçmək üçün yaratdığı müsabiqə komissiyasında Əhməd bəy Pepinov da təmsil olunurdu.

Cümhuriyyətin süqutu günlərində Əhməd bəy Pepinov Bakıda deyildi. O, işğalçı XI Qırmızı ordunun Bakıya gözlənilən yürüşünü ləngitmək məqsədilə danışıqlar aparmaq üçün 1920-ci il aprelin əvvəllərində Azərbaycan parlamentinin digər üzvü Rəhim bəy Vəkilovla birgə Qroznıya göndərilmişdi. Pepinov bolşeviklərin həmin vaxt tanınmış liderlərindən olan Serqo Orconikidze ilə tanış idi. Qroznıdakı görüş zamanı insafən S.Orconikidze Əhməd bəyə Moskva ilə danışacağını vəd verir və vədini də yerinə yetirir. Amma nəticə uğursuz olur. Bakını işğal edən bolşevik cəlladları cümhriyyət xadimlərinə qarşı qanlı repressiyalara başlayırlar.

Sovet dövründə ona kiçik vəzifələr verirlər. 1922-ci ildə isə onu Xalq Maarif Komissarlığına göndərirlər. Komissarlığın kollegiya üzvü seçilir və həmin illərdə Azərbaycan təhsilinin, maarifinin inkişafı üçün mühüm işlər görür. Təkcə bir faktı diqqətə çatdıraq ki, latın qrafikası əsasında Azərbaycan əlifbasının ilk variantının yaradıcılarından biri məhz Əhməd bəy Pepinov olmuşdur və o, 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayda fəal iştirak etmişdir. Həm təşkilati, həm də elmi-ideoloji müstəvidə xüsusi işlər aparmış Əhməd bəy qurultay dövründə türk xalqlarının ortaq ədəbi dili, əlifba islahatı və terminologiya məsələləri ilə bağlı müzakirələrdə fəallıq göstərmişdir. Lakin bu fəaliyyəti sonradan onun repressiya edilməsinə əsas gətirilən səbəblərdən biri olmuşdur. İstintaq materiallarında onun Bəkir Çobanzadə və Qubaydulin kimi alimlərin millətçi görüşlərini və akademik mübarizələrini dəstəklədiyi qeyd edilir. O, Azərbaycanı SSRİ-dən ayırmaq və milli-burjua respublikası yaratmaq məqsədi güdən "əks-inqilabi təşkilatda" fəaliyyət göstərməkdə günahlandırılırdı.

Ə.Pepinov türk xalqlarının mədəni birliyi və milli kadrların yetişdirilməsi tərəfdarı idi. Məlumatlara görə, 30-cu illərə az qalmış Türkiyədən gələn bir dostu buralarda vəziyyətin getdikcə pisləşəcəyini, gec-tez tutulacağını deyərək ona ailəsini də götürüb Türkiyəyə keçməyi tövsiyə edir. Amma Əhməd bəy özünü təqsirsiz saydığından bununla razılaşmır.

Bu arada millətçi tənəsi ilə təqib və təzyiqlər ara vermirdi. O illər repressiyaya məruz qalan Azərbaycan ziyalılarının istintaq sənədlərində Əhməd bəy Pepinovun da adı tez-tez hallandırılırdı. Müstəntiqlər dindirdikləri şəxslərdən müxtəlif işgəncə metodlarının köməyi ilə onunla bağlı ittihamlar əldə edib istintaq sənədlərinə daxil etmək istəyirdilər və buna nail olurdular. Ə.Pepinov digər ziyalılarla birgə Azərbaycanda millətçi əks-inqilabçı blok formalaşdırmaqda günahlandırılırdı. Nəhayət, 1930-cu il dekabrın 8-də 1012 nömrəli orderlə Əhməd bəy də həbs edilir və onunla eyni vaxtda həbsə atılmış 52 nəfərlə birgə xaricdəki əks-inqilabi, antisovet mərkəzləri ilə əlaqələrdə təqsirləndirilir. Həbs olunanda 37 yaşı vardı. Günahını boynuna alması və digərləri əleyhinə də ifadə verməsi üçün Əhməd bəyə qarşı ağır işgəncə üsulları tətbiq edilir, amma o, bütün əziyyətlərə mətanətlə sinə gərir.

Həbsdə verilən işgəncələr Əhməd bəy Pepinovun səhhətinə ciddi təsir göstərmişdi. O, müxtəlif xəstəliklərdən əziyyət çəkirdi. Həbsinin qalan müddətini Ulyanovsk şəhərində sürgündə keçirir. 1935-ci ilin yazında sürgünün bitməsi barədə sənədləri alıb Moskvaya gedir. Orada Serqo Orconikidze və kiçik qardaşı Zəki bəylə görüşür. Köhnə tanışı Serqo ona işləmək üçün Qazaxıstana getməyi, Bakıdan, o zamanlar Azərbaycanda hökmfərman olan cəllad Mircəfər Bağırovdan mümkün qədər uzaq olmağı tövsiyə edir. Əhməd bəy isə 1936-cı ilin mayında Bakıya gəlir. Bu zaman NKVD-dən çağırıb ona əməkdaşlıq təklif edirlər. Kommunist Partiyasına daxil olarsa, məsul vəzifə veriləcəyini boyun olurlar. Amma Əhməd bəy bu təklifi qəbul etmir, 1936-cı ildə Alma-Ataya yollanır. Əvvəlcə tikinti sahəsində iqtisadi planlaşdırma məsələləri üzrə çalışmağa başlayır, müəyyən müddətdən sonra isə Qazaxıstan SSR maarif nazirinin müavini vəzifəsində işləyir.

Zaman 1937-ci ilə yaxınlaşdıqca Bakıdakı məşhur ziyalıların kütləvi həbsinin sorağı Alma-Ataya çatdığından özü də bilirdi ki, azadlıqdakı bu günləri müvəqqətidir. O, Alma-Atadan əvvəl Ulyanovska, oradan Moskvaya yollanır. Moskvadan Bakıya xəbər göndərib doğmalarından qızı Sevdanı sonuncu dəfə görmək üçün kömək göstərmələrini xahiş edir. Qardaşı Zəki bəy Pepinov onun bu istəyini yerinə yetirir. Sonra Əhməd bəy Ulyanovska qayıdır. Burada onu dərhal həbs edib Bakıya gətirirlər. Həbsxanada səkkiz ayadək davam edən istintaq prosesində yenə də əks-inqilabçı, antisovet, millətçi təşkilatın rəhbəri olmaqda, əvvəlki istintaqda həqiqətləri gizlətməkdə təqsirləndirilir. Sonuncu dəfə 1938-ci il iyulun 3-də NKVD binasındakı 100-cü otaqda onu şəxsən Mircəfər Bağırov özü dindirir. Pepinov bu görüşdə də günahkar olmadığını, istintaqdan heç nə gizləmədiyini, həmişə namusla yaşadığını bildirir. Onun iradəsindən, mətinliyindən qəzəblənən rəhbərlik ona ölüm hökmü verir. Pepinov 1938-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarı ilə güllələnməyə məhkum edilir və hökm çıxarılan gün icra olunur. Onun son sözləri: "Mən günahsızam və vicdanımla yaşadım" olmuşdur.

### Yarıda qırılan qoşa ömür

Mirzə Davud Hüseynov Azərbaycan İnqilabi komitəsi sədrinin müavini, Azərbaycan SSR xalq xarici işlər komissarı, Azərbaycan SSR xalq maliyyə naziri, Ali İqtisadi Şuranın sədri, ZSFSR XKS sədrinin müavini, ZSFSR xalq maliyyə komissarı, Tacikistan KP MK-nın birinci katibi (1930-1933) olmuşdur.

O, 1894-cü ilin martında Bakı şəhərində ruhani ailəsində dünyaya gəlmiş, 1906-cı ildə şəhər məktəbini bitirmiş və Bakı Realnı Məktəbinə daxil olmuşdur. 1913-cü ildə Moskva Kommersiya İnstitutunun İqtisadiyyat fakültəsində təhsilini davam etdirmişdir. Mirzə Davud Hüseynov 1918-ci ilin noyabrından Rusiya Kommunist (bolşeviklər) Partiyasının üzvü olmuşdur. 1917-ci ildə Bakıya qayıtmış, Azərbaycan tələbələri arasında inqilabi iş aparmış, tələbə komitəsini yaratmışdır. 1917-ci ilin iyulunda o, Müsəlman İctimai Təşkilatları Komitəsinə Bakı müsəlman tələbələri tərəfindən nümayəndə göndərilmiş və onun şurasına seçilmişdir. 1918-1919-cu illərdə bolşevik "Hümmət" təşkilatının əvvəl sədr müavini, sonra isə sədri, RK(b)P-nin Bakı komitəsinin və partiyanın Qafqaz Ölkə Komitəsinin üzvü olmuşdur. O, eyni zamanda bu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti Maliyyə Nazirliyində şöbə müdiri vəzifəsində çalışmışdır.



M.D.Hüseynov 1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilən I Türkoloji Qurultayın təşkilat komitəsinin üzvü və əsas rəhbərlərindən biri idi. Həmin dövr Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədr müavini və digər yüksək dövlət vəzifələrində çalışaraq qurultayın keçirilməsi üçün lazımi siyasi və təşkilati dəstəyi təmin edənlərdən idi. O, qurultayın hazırlıq prosesində fəal iştirak edərək türk dünyasının müxtəlif yerlərindən gələn elm adamlarının (məsələn, Fuad Köprülüzadə, Əli bəy Hüseynzadə) qəbulunu və tədbirin gedişatını koordinasiya etmişdir. Qurultayın ən mühüm qərarlarından biri olan latın qrafikalı əlifbaya keçid məsələsində Mirzə Davud Hüseynov sovet rəhbərliyinin bu prosesdəki maraqlarını təmsil etməklə yanaşı, yeni əlifbanın tətbiqi istiqamətində dövlət dəstəyini reallaşdırmışdır.

I Türkoloji Qurultay həm elmi, həm də siyasi mahiyyət daşıyırdı. Mirzə Davud Hüseynov qurultayın sovet ideologiyası çərçivəsində, lakin eyni zamanda milli aydınların iştirakı ilə keçirilməsinə rəhbərlik edən şəxslərdən olmuşdur.

Mirzə Davud Hüseynov 1930-1933-cü illərdə Tacikistan Kommunist Partiyası MK-nın birinci katibi vəzifəsində çalışmışdır. Tacik xalqı birinci beşillikdə sənayeləşmə sahəsində bir sıra nailiyyətlər əldə etmişdir. Tacik xalqının bu müvəffəqiyyətlərində M.D.Hüseynovun da zəhməti böyük olmuşdur. O, Tacikistanın mərkəzi Stalinabadın elektrikləşdirilməsi və radiolaşdırılmasında, kollektivləşmənin genişlənməsində, savadsızlığın ləğvində xeyli iş görmüşdür. M.D.Hüseynov ömrünün son illərində Moskvada işləmişdir. 1934-1937-ci illərdə o, RSFSR Xalq Maarif Komissarlığında qeyri-rus natamam və orta məktəblər idarəsi rəisinin müavini işləmişdir. O, SSRİ-də sənayeləşmə və kollektivləşmənin başa çatdığı bir dövrdə savadsızlığın tamamilə ləğv edilməsi və ümumi yeddiillik təhsil sisteminə keçilməsi, yeni-yeni məktəblərin açılması sahəsində əzmlə çalışmışdır. M.D.Hüseynov dəfələrlə AK(b)P MK, ÜİK(b)P MK Zaqafqaziya Ölkə Komitəsi, Orta Asiya bürolarının, Azərbaycan, ZSFSR, Tacikistan, SSRİ MİK üzvü, plenum, konfrans, sessiya və qurultayların nümayəndəsi olmuşdur.

Mirzə Davud Hüseynov Fətəli xan Xoyskinin qızı Tamara xanım Hüseynova- Xoyskaya ilə ailə həyatı qurmuş və 17 il birlikdə yaşamışlar. Sonradan hər ikisi Moskvada eyni gündə həbs edilmiş, eyni həbsxanaya aparılmışlar. Mirzə Davuda ölüm hökmü verilmiş, Tamara xanım sürgünə göndərilmişdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Aşıq Ələsgər - 205

# Hələ sağlığında məktəb idi

**Azərbaycan aşıq sənətinin formalaşmasında və inkişafında bu günlər 205 illiyi qeyd olunan Aşıq Ələsgərin əvəzsiz xidmətləri olmuşdur. Böyük söz sərrafı, adı dillərdən düşməyən, səsi-sorağı ölkələri dolaşan Aşıq Ələsgər sənətin ucalığından heç zaman enməmiş, ona yeni çalarlar və rənglər qatmış, özündən sonra istedadlı aşıqların meydana çıxmasına böyük təsir göstərmişdir. Bu təsirin dalğası Azərbaycanın hər tərəfinə yayılmışdır.**

Qoşduğu təcnisləri, qoşmaları, gözəlləmələri, gəraylıları, dodaqdəyməzləri, dildönməzləri dillər əzbəri olan Aşıq Ələsgər aşıq şeirinin bütün janrlarına baş vuraraq sanki istedadını sınaqdan keçirmiş və böyük uğurlar qazanmışdır.

1821-ci ildə İrəvan xanlığının Göyçə mahalının Ağkilsə kəndində dünyaya göz açan Ələsgər ailənin böyük övladı olub. Ailə maddi çətinliklər içində yaşadığına görə atası 14 yaşından onu varlı torpaq sahibi olan Kərbəlayı Qurbanın həyətində fəhlə işləməyə verib. Buna görə də ona başqa yaşıdları kimi təhsil almaq nəsib olmayıb.

Tarixi mənbələrdə qeyd olunan məlumatlara görə, dülgər işləyən atası Alməmməd kişi təkcə sənəti ilə deyil, düzüb-qoşduğu, zümzümə etdiyi gəraylı, qoşma və bayatıları ilə də el-obada tanınmışdır. Təbiidir ki, bu mühit Ələsgərin aşıq kimi formalaşmasına güclü təsir göstərmişdi. O, hələ kiçik yaşlarından güclü hafizəsi ilə başqalarından seçilmişdi. Uşaqlıqdan aşıq dastanlarının çoxunu yaddaşında saxlamışdı. Ələsgərin bədahətən şeir söyləməsi də hamını heyrətləndirmişdir. Onu yaxından görmüş, apardığı məclislərdə iştirak etmiş şahidlərin söylədiklərinə görə, Ələsgər yeri gələndə sazı sinəsinə basar, şeiri elə oradaca bədahətən söyləyərmiş.

Oğlunun qeyri-adi istedadını görən atası aşıq sənətinin sirlərini öyrənmək üçün onu el-obada yaxşı tanınan Aşıq Alının yanına qoyur. Beləcə, Ələsgərin aşıqlıq sənətinə gedən yolu başlayır. Müəllimindən aldığı dərslər onun peşəkar aşıq kimi formalaşmasında mühüm rol oynayır. Bir müddət sonra Aşıq Ələsgərin böyük məharətlə apardığı məclislərin səsi-sorağı qonşu el-obalara yayılır. Buna görə də onu yalnız doğma yurdu Göyçədə deyil, Naxçıvan, Qazax, Qarabağ, Gəncə, Kəlbəcər və digər bölgələrdə keçirilən toy mərasimlərinə dəvət edirlər. Günlər keçdikcə Aşıq Ələsgərin şan-şöhrəti sərhədləri aşır. Çox keçmir ki, onun sorağı Türkiyədən, İrandan, Dağıstandan və başqa diyarlardan gəlir.

Həftələr, aylar bir-birini əvəz etdikcə Aşıq Ələsgər aşıqlıq sənətinin zirvəsinə gedən yollarda daha da inamla addımlayır. Onun bədahətən dediyi qoşmalar, gəraylılar, təcnislər dillərə düşərək el-obalara yayılır. Ustad sənətkar aşıqlıq sənətinin zirvəsini heyrət doğuran qeyri-adi istedadı, bacarığı ilə pillə-pillə fəth edir.

Aşıq Ələsgər yalnız yaradıcılığı ilə deyil, yaşadığı bütün ömrü boyu özünün əxlaqlı davranışı ilə də hamıya nümunə olmuş, şeirlərində insanlara düzgün yol göstərmiş, bəşər övladlarını ədalətli olmağa, həmişə haqqın tərəfini saxlamağa çağırmışdır. Buna görə də yaxından tanıyanlar haqlı olaraq onu "Haqq aşığı" adlandırmışlar. Bu böyük sənətkara pərəstiş etmiş, hansısa bir çətinliklə üzləşəndə ondan kömək, məsləhət istəmişlər. Bütün bunlar xalqın Aşıq Ələsgərə verdiyi yüksək dəyərin göstəricisidir.

Vurğunu olduğu gözəlin sevgisinə qovuşmaq yolunda aşiqin qarşılaşdığı keçilməz sədlər, üz-üzə gəldiyi və ağrı-acısını yaşadığı əzablar, ürəkləri yandıran həsrət və iztirabların bənzərsiz təsviri Aşıq Ələsgərin məhəbbət mövzusunda yaratdığı qoşmaların əsas aparıcı xəttini təşkil edir. Böyük ustadın heyranı olduğu el gözəllərinin tərifinə qoşduğu şeirlərində qəm, kədər duyulmur. Çünki həmin əsərlərin ruhuna nikbinlik, şənlik, şux və gözəl bir ovqat hakimdir. Aşıq Ələsgərin məhəbbət mövzusunda olan bu şeirlərində el qızlarının yalnız zahiri gözəlliyi deyil, saf, incə təbiəti, vəfalı, düz ilqarlı olmaları da bədii əksini tapır. Yazıldığı zamandan dillər əzbəri olan "Güləndam", "Bəyistan", "Düşdü" və başqa şeirlərində Azərbaycan gözəllərinin mənəvi-əxlaqi keyfiyyətləri də geniş şəkildə tərənnüm olunur. Sanki sənətkar dəyərli sözlərlə bu qızların bədii portretini çəkir, onların gözəlliyini vəsf edir.

*Səni gördüm, əl götürdüm dünyadan,*
*Qara gözlü, qələm qaşlı Güləndam!*
*Alma yanağına, bal dodağına,*
*Baxan kimi ağlım çaşdı, Güləndam!*

Aşıq Ələsgərin təbiətin təsvirinə həsr olunmuş şeirlərində onun el-obaya, ata-baba yurduna bağlılığı özünü qabarıq şəkildə göstərir. Böyük ustadın "Yaylaq", "Gördüm", "Dağlar" rədifli qoşmaları doğma yurdumuzun gözəlliyinə həsr olunmuş ən heyrətamiz əsərlərdir.

Aşıq sənətini daha da zənginləşdirən, bu sənətdə yeni yollar, cığırlar açan, ona bənzərsiz yeniliklər gətirən Aşıq Ələsgər Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutan ustadlardandır. Onun heç bir şairin, aşığın zəngin poetik irsinə bəzəməyən yaradıcılıq yolu özündən sonra yazıb-yaradan aşıqlar üçün böyük sənətkarlıq məktəbi olmuş və olaraq da qalır. Aşıq Ələsgərin yazdığı şeirlər zaman-zaman bəstəkarların da diqqətini cəlb etmişdir. Böyük ustadın sözlərinə bəstələnmiş mahnılar bu gün də sevgi ilə dinlənilir.



Ötən əsrin 1918-1919-cu illərində erməni şovinistləri İrəvanda yaşayan azərbaycanlılara qarşı qırğın törətdilər. Bu qırğının nəticələri çox ağrılı oldu. Başqa bölgələrdə olduğu kimi, Göyçə mahalında da azərbaycanlıların var-yoxu daşnaklar tərəfindən əllərindən alındı. Yerli əhali dədə-baba yurdlarından baş götürüb qaçmaq məcburiyyətində qaldı. Aşıq Ələsgər Kəlbəcərin Yanşaq kəndinə üz tutdu. Bir müddət sonra isə Tərtərə köçdü. Bu yerlərin dağ vüqarlı insanları aşığı hörmətlə qarşıladılar. Böyük sənətkar iki ilə yaxın burada qalmalı oldu. Amma bu illər ərzində ürəyi Göyçədə idi. Həsrətlə, intizarla doğma yurdlarına qayıdacaqları günü gözləyir, o çağları görməyi arzulayırdı. Nəhayət, 1921-ci ildə aşığın arzuları çin oldu. Həmin il Ağkilsəyə qayıtdı, ömrünün son illərini doğma kəndində yaşadı. Aşıq Ələsgər 1926-cı il martın 7-də vəfat etdi və kənddəki qəbiristanlıqda dəfn olundu. Görkəmli sənətkarın ölümündən sonra Azərbaycan folklorçuları böyük ustadın dillərdə dolaşan, yaddaşlarda yaşayan nadir sənət incilərini toplayaraq nəşr etdirdilər.

Aşıq Ələsgərin yaradıcılığı daim xalqımızın və dövlətimizin diqqət mərkəzində olmuşdur. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci ildə böyük sənətkarın anadan olmasının 150 illiyi həm keçmiş ittifaq miqyasında, həm də Azərbaycanda böyük təntənə ilə qeyd olunmuşdur. Azərbaycan Elmlər Akademiyası bu münasibətlə Aşıq Ələsgərin əsərlərini çap etmişdir. Həmçinin anadan olmasının 150 illiyi münasibətilə Ağkilsə kəndindəki qəbrinin üzərində əzəmətli abidə ucaldılmışdır. Təəssüflər olsun ki, 1988-ci ildə azərbaycanlıların Qərbi Azərbaycandan kütləvi deportasiyasından sonra erməni vandalları Aşıq Ələsgərin qəbri üzərindəki abidəsini vəhşicəsinə dağıtmışlar.

Aşıq Ələsgərin ədəbiyyatımız, xalqımız qarşısında göstərdiyi xidmətlər həmişə yüksək qiymətləndirilmişdir. 2021-ci il fevralın 18-də Prezident İlham Əliyev "Aşıq Ələsgərin 200 illiyinin qeyd edilməsi" haqqında sərəncam imzalamışdır. Sərəncam həm Aşıq Ələsgərin bədii irsinə, həm də aşıq sənətinə olan hörmət və qayğının təzahürü idi. Bundan əlavə, Prezident İlham Əliyevin iştirakı ilə 2024-cü il sentyabrın 30-da Bakıda böyük el sənətkarının abidəsinin açılış mərasimi keçirilmişdir. Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, bu gün qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir: "Ancaq eyni zamanda bu abidə bütün qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik".

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● İncəsənət xadimləri

# Miniatür sənətimizin yorulmaz tədqiqatçısı

**XX əsr Azərbaycan sənətşünaslıq məktəbinin formalaşması və inkişafında sənətşünaslıq doktoru Kərim Kərimovun əvəzsiz xidmətləri olub. O özünün elmi araşdırma və tədqiqatları, pedaqoji və ictimai fəaliyyəti ilə incəsənət tariximizdə silinməz izlər qoyub.**



AMEA-nın müxbir üzvü, professor Kərim Cabbar oğlu Kərimov qədim Naxçıvan şəhərində dünyaya göz açmışdı. Orta məktəbi bitirdikdən sonra sovet ordusu sıralarında hərbi xidmət keçmiş, indiki Bakı Dövlət Universitetində ali təhsil almışdı. Ömrünü AMEA-nın Memarlıq və İncəsənət İnstitutuna bağlayan Kərim Kərimov müxtəlif illərdə kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri, direktor müavini və direktor vəzifələrində işləmişdir.

"XIX-XX əsrin əvvəllərində Azərbaycanda realist təsviri incəsənətin təşəkkülü və inkişafı" mövzusunda namizədlik (1959), "XVI əsr Təbriz miniatür məktəbi" mövzusunda isə doktorluq (1971) dissertasiyalarını müdafiə edən Kərim Kərimov Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərmiş, həmin elm ocağının professoru olmuşdur. Alim sənətşünaslıq elmi üzrə müdafiə edən onlarca dissertantın elmi rəhbəri, nəşr olunmuş kitabların isə elmi redaktoru idi.




Professor Kərim Kərimov 1980-ci ildə AMEA-nın müxbir üzvü seçilmiş, Azərbaycan Rəssamlar İttifaqının katibi vəzifəsində işləmişdir. Sənətşünas alim beynəlxalq elmi simpozium və konfranslarda iştirak etmişdir. Sənətşünaslıq doktoru, professor Kərim Kərimov uzunmüddətli səmərəli elmi, pedaqoji və ictimai fəaliyyətinə görə fəxri fərmanlar, orden və medallarla təltif olunmuşdur.

Tanınmış sənətşünas alimin "Bəhruz Kəngərli" (1962), "Sultan Məhəmməd və onun məktəbi" (rus dilində, Moskva, 1970), "Azərbaycan incəsənəti" (müştərək, 1977, 1992), "Azərbaycan miniatürləri" (1980), "Nizami Gəncəvi "Xəmsə" miniatürləri" (1983), "Miniatür rəngkarlığı" (1983, rus dilində), "Divar rəngkarlığı" (1983, rus dilində), "Azərbaycan Xalq rəssamı Lətif Kərimov" (1983), "Sadiq bəy Əfşar" (1987), "Nizami "Xəmsə"sinə miniatürlər" (1991, rus dilində)", "Sultan Məhəmməd və onun məktəbi" (1993) adlı monoqrafiya və kitabları nəşr olunmuşdur. Habelə alimin təsviri sənətin ayrı-ayrı sahələrinə dair çoxsaylı elmi və publisistik məqalələri müxtəlif elmi toplu, jurnal və qəzetlərdə dərc edilmişdir. O, həmçinin rəssamlarımızın yaradıcılığına həsr edilmiş kataloq mətnlərinin müəllifi olmuşdur. Sənətşünas alimin elmi fəaliyyət və mövzu dairəsi geniş idi. O, həm miniatür rəngkarlığı, həm divar boyakarlığı, həm XIX və XX əsrlərdə rəngkarlıq sənətimizin inkişaf xüsusiyyətləri, həm də ayrı-ayrı tanınmış rəssamlarımızın yaradıcılığına dair məqalələrin müəllifidir.

Görkəmli alim Kərim Kərimovun apardığı elmi araşdırma və tədqiqatların əsas istiqaməti Azərbaycan miniatür sənətinin tarixi, kökləri, onun inkişaf xüsusiyyətləri, Təbriz miniatür məktəbinin əsas elmi xüsusiyyətləri və bu miniatür məktəbinin digər miniatür məktəblərindən fərqli və oxşar cəhətlərini araşdırmaq, tədqiq və elmi təhlillərlə sübut etmək olmuşdur. Kərim Kərimovun xalçaçı rəssam və sənətşünas alim Lətif Kərimov haqqında qeyd etdiyi "Lətif Kərimov Azərbaycan xalçasının "pasport"unu yaratmışdır" fikirlərini miniatür sahəsində eynilə alimin özünə şamil etmək olar. Onun tədqiqatlarına qədər təbrizli rəssam və xəttatların dünyanın müxtəlif muzey və əlyazma insititutlarında saxlanılan məşhur əlyazmalarının miniatürlərini başqa-başqa miniatür məktəblərinə və həmin məktəbin nümayəndələrinə aid edirdilər. Lakin alimin fundamental elmi əhəmiyyətli tədqiqatı nəticəsində Təbriz miniatür məktəbi və bu məktəbin tanınmış rəssam və xəttatlarının varlığı və kimliyi qəbul edilmişdir.

Sənətşünas alim Kərim Kərimovun Moskvada rus dilində nəşr olunmuş "Sultan Məhəmməd və onun məktəbi" (1970) adlı monoqrafiyası incəsənət aləmində xüsusi maraqla qarşılanmış, kitabın şöhrəti uzaq coğrafiyaya yayılmışdı. Kitab haqqında jurnal və qəzetlərdə sənətşünas alimlərimiz tərəfindən resenziyalar yazılmışdı. Sənətşünaslıq doktoru Nəsir Rzayev "Elm və həyat" jurnalında (1971, №1) "Miniatür sənətimiz haqqında əsər" başlıqlı məqaləsində yazırdı: "Əsər miniatür irsimizə həsr edilmiş və yüksək elmi səviyyədə yazılmış ilk kitab kimi çox qiymətlidir". "Kərim Kərimovun araşdırmalarının sevincli-kədərli günlərinə, işıqlı tapıntılarına, bəzən də uğursuz anlarına bələd olduğum üçün cəsarətlə deyirəm ki, "Sultan Məhəmməd və onun məktəbi" bir-iki ilin ötəri məhsulu deyil. Bəlkə də sənətşünas alimin bütünlükdə yaradıcılıq həyatının ən əsas mərhələsidir... Doğma xalqının mənəvi sərvətilə həmvətənlərini yaxından tanış edən, sevən və sevdirən sənətşünas alimin əməyi böyük hörmətə layiqdir" deyə sənətşünaslıq namizədi Paşa Hacıyev qeyd edirdi ("Qobustan" jurnalı, 1970, №4).

Ömrünü Azərbaycan sənətşünaslıq məktəbinin formalaşması və inkişafına həsr edən, sənətşünaslıq elmi istiqamətində fundamental elmi əhəmiyyətə malik tədqiqat, monoqrafiya və kitabların müəllifi olan, habelə elmi kadrların yetişməsində əvəzsiz xidmətlər göstərmiş professor Kərim Kərimovun bu il 105 illik yubileyidir. Yarım əsrdən çoxdur ki, tanınmış sənətşünas alimin işıqlı əməlləri və xatirəsi Azərbaycan təsviri sənət tarixində yaşayır.

***Əsəd QULİYEV,***
***Rəssamlar İttifaqının üzvü,***
***sənətşünas***

# Növbəti "Xarıbülbül" Musiqi Festivalına hazırlıqlar başlayıb

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə mayın 14-15-də Şuşada "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalı keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, builki festival da maraqlı proqram və dünyanın müxtəlif ölkələrindən istedadlı incəsənət xadimlərinin təqdimatları ilə yadda qalacaq.

Festivalın əsas məqsədlərindən biri mədəni dialoqun inkişafına töhfə vermək və musiqiçilər arasında yaradıcılıq mübadiləsini təşviq etməkdir. Məhz bu səbəbdən zəngin mədəniyyət hadisəsi olan "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına Azərbaycan ifaçıları və musiqi kollektivləri ilə yanaşı, ABŞ, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Yaponiya və digər ölkələrdən incəsənət nümayəndələri dəvət alıblar.




Festivala mayın 14-də Cıdır düzündəki konsertlə start veriləcək. Tədbir iki gün ərzində Şuşanın bir sıra məkanlarını əhatə edəcək.

Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Festival həmin il may ayında məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Ağdam rayonunun Abdal Gülablı kəndində başlayıb, Şuşada davam edib və Ağdamda yekun konsertlə başa çatmışdı. 1990-cı ildən isə "Xarıbülbül" festivalı beynəlxalq status alıb. Qarabağ münaqişəsi dövründə əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Bərdə və Ağcabədidə də keçirilib.

Vətən müharibəsindəki tarixi Zəfərimizlə torpaqlarımız işğaldan azad olunduqdan sonra festival yenidən Şuşaya qayıdıb. Festivalın bəzi konsertləri Laçın şəhərində də olub.

Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçinin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə də öz töhfəsini verir.

# Yazıçı Seyran Səxavətin 80 illiyinə həsr olunmuş elektron məlumat bazası hazırlanıb

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında şair, yazıçı, tərcüməçi və dramaturq Seyran Səxavətin 80 illiyi münasibətilə zəngin məzmunlu elektron məlumat bazası hazırlanıb.**

Kitabxanadan bildirilib ki, baza yazıçının yaradıcılıq irsinin sistemli şəkildə toplanması və oxuculara müasir formatda təqdim olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Elektron məlumat bazası Seyran Səxavətin çoxşaxəli fəaliyyətini əhatə edən müxtəlif bölmələrdən ibarətdir. Burada ilk növbədə görkəmli şəxslərin yazıçı haqqında söylədikləri dəyərli fikirlər və filologiya üzrə elmlər doktoru, dosent Gülxani Pənahın "Seyran Səxavətin "Seçilməmiş əsərləri", publisist, musiqi pedaqoqu Şəmsi Qocanın "Sözün Səxavəti", Əməkdar jurnalist Bahəddin Həzinin "O Seyran Səxavət və bu Seyran Səxavət..." adlı məqalələrin tam mətni yer alır. Yazıçının həyat və yaradıcılıq yolunu əks etdirən "Xronologiya" bölməsi oxuculara onun keçdiyi yolu ardıcıllıqla izləmək imkanı verir.




Məlumat bazasında Seyran Səxavətin əsərləri, dövri mətbuatda dərc olunmuş yazıları, məqalələri və müsahibələri geniş şəkildə təqdim olunur. Bununla yanaşı, onun tərcüməçilik fəaliyyəti, redaktə etdiyi kitablar və "Ön söz" yazdığı nəşrlər də ayrıca bölmələrdə toplanıb.

Kitabxana əməkdaşları tərəfindən hazırlanan bazada yazıçı haqqında qələmə alınmış kitab və məqalələr, həmçinin elmi tədqiqatlar - dissertasiya və avtoreferatlar da yer alır. Bu bölmələr Seyran Səxavətin yaradıcılığının elmi müstəvidə necə araşdırıldığını və dəyərləndirildiyini nümayiş etdirir. Bundan əlavə, bazada izomateriallar və ədibin türk, ingilis, rus, polyak, rumın, gürcü dillərində nəşr edilən əsərlərinin siyahısı da təqdim edilib.

Elektron məlumat bazasında "Foto və videoqalereya" bölmələri də diqqəti cəlb edir. Bu bölmələr vasitəsilə oxucular yazıçının həyatından müxtəlif anları, "Virtual sərgi" bölməsi vasitəsilə isə yazıçının kitablarını vizual şəkildə izləyə bilərlər.

"Dramaturq Seyran Səxavət 80" adlı elektron məlumat bazası kitabxananın rəsmi saytında yerləşdirilib.

● 2 Aprel Dünya Autizm Məlumatlandırma Günüdür

# Autizm xəstəlik deyil, fərqlilikdir

**Son illərdə Autizm Spektr Pozuntusu ilə bağlı diaqnozların sayında həm Azərbaycanda, həm də qlobal miqyasda nəzərəçarpacaq artım müşahidə olunur. Bu artım bir tərəfdən diaqnostika imkanlarının inkişafı, digər tərəfdən isə cəmiyyətin məlumatlılığının yüksəlməsi ilə izah edilir. Elmi araşdırmalar göstərir ki, əgər ailədə artıq autizmli fərd varsa, növbəti uşaqlarda bu vəziyyətin yaranma ehtimalı əhəmiyyətli dərəcədə artır və risk göstəricisi orta hesabla 10-20 dəfə yüksələ bilər.**

Müasir statistik göstəricilərə əsasən, ABŞ-də hər 36 uşaqdan biri autizm spektrində yer alır, Avropa ölkələrində isə bu göstərici təxminən hər 100 uşaqdan 1-2 nəfər civarındadır. Maraqlı məqamlardan biri də odur ki, oğlan uşaqlarında bu vəziyyət qızlarla müqayisədə təxminən 4 dəfə daha çox müşahidə edilir.

Ölkə daxilində hazırda 5 min nəfərə yaxın autizm sindromlu əlilliyi olan şəxs qeydiyyatdadır. Lakin mütəxəssislər real vəziyyətin bundan xeyli fərqli olduğunu bildirirlər. Xüsusilə ucqar ərazilərdə diaqnostika imkanlarının məhdud olması, ailələrin bəzən bu vəziyyəti gizlətməsi və ya düzgün məlumatın olmaması səbəbindən bir çox halın qeydə alınmadığı düşünülür. Qlobal miqyasda isə müxtəlif tədqiqatların nəticələrinə görə, dünya əhalisinin təxminən bir faizi autizm spektrində yer alır ki, bu da 70 milyona yaxın insan deməkdir.

Autizmin cəmiyyət üçün bu qədər aktual mövzuya çevrilməsi təsadüfi deyil. Belə hal uşaqların sosial ünsiyyət bacarıqlarına, davranışlarına və öyrənmə prosesinə birbaşa təsir edir. Bu səbəbdən də erkən yaşlarda aşkar olunması və düzgün müdaxilə tədbirlərinin həyata keçirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Məhz bu məqsədlə Birləşmiş Millətlər Təşkilatı tərəfindən 2 aprel tarixi Dünya Autizm Məlumatlandırma Günü kimi təsis edilib. Bu günün əsas məqsədi cəmiyyətin məlumatlandırılması, autizmli şəxslərin hüquqlarının qorunması və onların həyat şəraitinin yaxşılaşdırılmasına diqqət çəkməkdir.

Valideynlər övladlarında autizm əlamətlərindən şübhələndikdə ilk növbədə mütəxəssisə müraciət etməlidirlər. Diaqnozun qoyulması üçün uşağın davranışları diqqətlə müşahidə edilir, inkişaf səviyyəsi müxtəlif testlər vasitəsilə qiymətləndirilir və valideynlərdən ətraflı məlumat toplanır. Müasir dövrdə autizmin çox erkən yaşlarda, hətta körpəlik dövründə belə müəyyən edilməsi mümkündür. Bu sahədə əsas rolu uşaq psixiatrları və nevroloqlar oynayırlar.




Erkən diaqnoz autizm sahəsində ən vacib amillərdən biri hesab olunur. Uşağın beyin inkişafının ən intensiv dövrü həyatının ilk illərinə təsadüf edir və xüsusilə 5 yaşa qədər olan mərhələ kritik əhəmiyyət daşıyır. Bu dövrdə başlanılan reabilitasiya proqramları uşağın gələcək inkişafına ciddi təsir göstərir. Erkən müdaxilə nəticəsində uşaqlar sosial bacarıqları daha tez mənimsəyə, ünsiyyət qabiliyyətlərini inkişaf etdirə və davranış problemlərini daha effektiv şəkildə aradan qaldıra bilirlərlər.

Autizmli uşaqlarda dil və ünsiyyət sahəsində çətinliklər geniş yayılıb. Kiçik yaşlarda göstərilən dəstək bu sahədə daha müsbət nəticələr verir. Yaş artdıqca isə bəzi bacarıqların öyrənilməsi çətinləşə bilər. Bu səbəbdən də mütəxəssislər erkən müdaxilənin əhəmiyyətini xüsusi vurğulayırlar. Əgər uşaq vaxtında lazımi dəstəyi almazsa, davranış problemləri daha da dərinləşə və uzunmüddətli xarakter ala bilər. Valideynlərin bu prosesdə rolu olduqca böyükdür. Uşağa diaqnoz qoyulduqdan sonra ailənin ilk vəzifəsi vəziyyəti qəbul etmək və düzgün addımlar atmaqdır. Təəssüf ki, bəzi hallarda ailələr bu həqiqəti qəbul etməkdə çətinlik çəkir və bu da müdaxilənin gecikməsinə səbəb olur. Halbuki vaxtında başlanılan düzgün proqramlar uşağın inkişafı üçün həlledici rol oynayır.

Reabilitasiya proqramlarının effektivliyi yalnız onların başlanma vaxtından deyil, həm də intensivliyindən asılıdır. Mütəxəssislər həftəlik məşğələlərin minimum 20 saat olmasını tövsiyə edirlər. Daha intensiv proqramlar isə 40 saata qədər davam edə bilər. Bu məşğələlər əsasən fərdi şəkildə aparılır və müəyyən müddətdən sonra uşaqlar qrup fəaliyyətlərinə də cəlb oluna bilərlər. Bu isə onların sosiallaşmasına müsbət təsir göstərir.

Autizmli uşaqlarda tez-tez digər əlavə problemlər də müşahidə olunur. Bunlara öyrənmə çətinlikləri, diqqət pozuntuları, hiperaktivlik, bəzən isə epilepsiya kimi nevroloji hallar daxildir. Eyni zamanda bəzi uşaqlarda eşitmə problemləri və ya nitq pozuntuları da müşahidə edilə bilər. Bu səbəbdən diaqnostika zamanı kompleks yanaşma vacibdir.

Valideynlər çox vaxt övladlarının inkişafı üçün müxtəlif alternativ üsullara müraciət edirlər. Lakin bu metodların bir çoxunun elmi əsası yoxdur və gözlənilən nəticəni vermir. Buna görə də mütəxəssislər yalnız elmi cəhətdən təsdiqlənmiş yanaşmalara üstünlük verilməsini tövsiyə edirlər. Doğru məlumat və düzgün istiqamət seçimi uşağın inkişafında həlledici rol oynayır. Məktəbəqədər dövrdə autizmli uşaqların digər uşaqlarla ünsiyyətdə olması onların sosial bacarıqlarının inkişafına kömək edir. Oyun qrupları və bağçalar bu baxımdan faydalı mühit yaradır. Kiçikyaşlı uşaqlar arasında fərqliliklərə qarşı münasibət daha tolerant olduğu üçün autizmli uşaqlar daha rahat adaptasiya ola bilirlər. Texnologiyanın inkişafı da autizmli uşaqların təlimində yeni imkanlar yaradıb. Planşetlər, mobil tətbiqlər və müxtəlif interaktiv proqramlar uşaqların diqqətini cəlb edir və onların öyrənmə prosesini asanlaşdırır. Vizual materiallardan istifadə xüsusilə dil inkişafında effektiv nəticələr verir. Lakin texnologiyadan istifadə mütləq nəzarət altında və balanslı şəkildə həyata keçirilməlidir.

Autizmli uşağa sahib olmaq ailə üçün həm emosional, həm də psixoloji baxımdan ciddi sınaqdır. Valideynlər tez-tez "daha nə edə bilərəm?" sualı ilə qarşılaşırlar. Bu vəziyyətdə əsas məsələ real gözləntilər formalaşdırmaq və əldə olunan hər bir nailiyyəti qiymətləndirməkdir. Kiçik irəliləyişlər belə böyük uğur hesab edilməlidir. Erkən diaqnoz, düzgün müdaxilə, davamlı təlim və ailə dəstəyi bu sahədə uğurun əsas açarlarıdır. Cəmiyyətin məlumatlı olması və autizmli fərdlərə qarşı anlayışlı yanaşması isə onların həyat keyfiyyətinin yüksəlməsində mühüm rol oynayır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

BEYNƏLXALQ HƏYAT

# ABŞ yenidən Aya yollanır

## NASA yarım əsrdən sonra ilk pilotlu kosmik gəmini - "Artemis 2" missiyasını Yerin peykinə göndərir

**Bu gün gecəyarısı NASA 54 ildən sonra ilk astronavt ekspedisiyasını Kanaveral burnundan Aya göndərməyi planlaşdırır. Lakin Ayın səthinə eniş hələlik baş verməyəcək: "Artemis 2" missiyası dörd astronavtı Ayın ətrafına göndərir və 10 gündən sonra onlar Yerə qayıdacaqlar.**



Aya eniş isə 2028-ci ilə planlaşdırılır və bundan sonra NASA müntəzəm olaraq Yerin peykinə ekspedisiyalar göndərərək orada daimi baza qurmaq niyyətindədir.

Dünən qarşıdan gələn missiya ilə bağlı gündəlik brifinqlərin sonuncusunda NASA nümayəndələri uçuş üçün hər şeyin hazır olduğunu bildiriblər. Hava şəraiti - buludlar, güclü küləklər və ya texniki problemlər istisna olmaqla - "Orion" kosmik gəmisini daşıyan nəhəng "Space Launch System" raketi aprelin 1-də yerli vaxtla saat 18:24-də (cümə axşamı Bakı vaxtı ilə saat 02:24) havaya qalxmalı idi. Buraxılış cəhdi uğursuz olarsa, NASA başqa bir cəhd etməyə hazırdır. Bunun üçün daha altıgünlük müddət açıq qalır.

BBC-nin Ağ Ev müxbiri Bernd Debüssmannın qeyd etdiyi kimi, cəhd uğurlu olarsa, "Artemis" proqramı Tramp administrasiyasına siyasi çəki qatacaq, müvəqqəti olaraq bütün amerikalıları ölkələrinə görə qürur hissi ilə birləşdirəcək və ümumiyyətlə, kosmik yarışda, xüsusən də Ay mineral ehtiyatları uğrunda potensial rəqabətdə ABŞ-yə Çin üzərində əlavə üstünlük verəcək. Uzunmüddətli perspektivdə NASA Marsa insan missiyaları üçün Ay bazasından tramplin kimi istifadə etməyi planlaşdırır.

Xatırladaq ki, amerikalı astronavtlar ilk dəfə 1969-cu ilin iyul ayında Aya eniş ediblər və son səfərləri 1972-ci ildə olub. O vaxtdan bəri Aya qayıtmaq barədə söhbətlər dəfələrlə qaldırılıb, lakin qonşu səma cisimlərinə insanları göndərmək üçün proqramı Prezident kimi ilk müddətində Donald Tramp başladıb. Onun 2017-ci ildə imzaladığı "Kosmik siyasət haqqında birinci direktiv" əvvəlcə astronavtların birbaşa Marsa göndərilməsini nəzərdə tuturdu. Prezidentliyin ikinci müddətində isə diqqət Aya yönəldildi. Onu da qeyd edək ki, keçən ilin dekabr ayında Tramp ABŞ-nin 2028-ci ildə Aya qayıtmasını və 2030-cu ilə qədər orada daimi baza qurmasını ehtiva edən bir sərəncam imzalayıb.

Aya ilk uçuşlar dövründə ABŞ Sovet İttifaqı ilə kosmosda birincilik və Yer kürəsində nüfuz uğrunda yarışırdı. İndi amerikalıların əsas rəqibi Çindir. Pekin yaxın illərdə Aya taykonavtlar göndərməyi planlaşdırır. Trampın son kosmik sərəncamında Çin Ay yarışında rəqib kimi qeyd edilməyib, lakin NASA başçısı Cared Ayzekman bu rəqabət barədə açıq danışıb: "Biz Amerikanın kosmosdakı birinciliyinə meydan oxuyan əsl geosiyasi rəqiblə qarşılaşırıq. Bu dəfə məqsədimiz bayraqlar və ayaq izləri deyil. Bu dəfə məqsədimiz qalmaqdır. Amerika bir daha heç vaxt Aydan imtina etməyəcək".

Ayın tədqiqatının başlanması uzunmüddətli perspektivdə böyük iqtisadi faydalara da səbəb ola bilər. Məsələn, bu barədə NASA-nın keçmiş rəhbəri Şon O'Kif BBC-yə verdiyi müsahibədə bildirib: "Biz illərdir bunun sadəcə bir toz topu olduğunu düşünürdük və sonra orada xeyli miqdarda helium-3 olduğunu aşkar etdik . Bu helium izotopu potensial olaraq gələcək reaktorlarda kompakt və uzunömürlü termonüvə yanacağına çevrilə bilər." Bundan əlavə, Ayda Yer kürəsində elektronika istehsalında lazım olan litium, platin və digər nadir metallar var. Çin hazırda bu metallar bazarında dominantlıq edir və bu, Tramp administrasiyasında böyük narahatlıq doğurur. Ayın bütün bu mineral ehtiyatlarının dəyəri hazırda məlum deyil, lakin çox böyük ola bilər. Yer atmosferində çox nadir olan Helium-3-ün bir kiloqramının qiyməti hazırda təxminən 20 milyon dollardır.

Mərkəzi Kəşfiyyat İdarəsinin Elm və Texnologiya şöbəsinin keçmiş zabiti və hazırda Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin analitiki olan Kleyton Svoup deyir ki, "Artemis" proqramının məqsədlərindən biri Ayın nə təklif edə biləcəyini dəqiq müəyyən etməkdir. O, BBC-yə bildirib: "Hələlik Aya dollar qiyməti qoya bilmərik, amma Çinlə rəqabətdən qaçmaq mümkün deyil".

"Kosmos müxtəlif siyasi baxışlara malik amerikalıların nailiyyətlərə nəzər salıb onları birlikdə qeyd edə biləcəyi azsaylı sahələrdən biridir", - deyə analitik mərkəzi olan Xarici Əlaqələr Şurasının kosmik mütəxəssisi Ester Brimmer bildirib: "Əksər amerikalılar kosmik proqramlarını qürur mənbəyi kimi görürlər və onun sosial təsiri insanları bir araya gətirir".

Sonda bildirək ki, problem yaranmasa, üç amerikalı - komandir Rid Vayzman, pilot Viktor Cey Qlover, mühəndis Kristina Kox və bir kanadalı fizik və pilot Ceremi Hansen Aya yola düşəcəklər.

# BMT: 200 mindən çox insan Livandan Suriyaya qaçıb

**Mart ayının əvvəlindən bəri Yaxın Şərqdəki müharibə səbəbindən Livandan Suriya Ərəb Respublikasına 200 mindən çox insan gəlib. Bu barədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) Suriyadakı nümayəndəsi Əsir Əl-Mədəyen BMT-nin Cenevrə ofisində həftəlik brifinqdə çıxış edərkən bildirib.**

"Suriya hakimiyyətinin məlumatına görə, 2-27 mart tarixlərində əsasən suriyalılar (təxminən 180 min) olmaqla 200 mindən çox insan üç rəsmi sərhəd keçid məntəqəsi vasitəsilə Suriyaya qayıdıb. Bu axına yeni təhlükədən yaxa qurtaran qaçqınlar və evə qayıtmaq istəyənlər daxildir", - deyə o bildirib. Əlavə edib ki, 28 mindən çox livanlı İsrailin şiddətli bombardmanından qaçaraq Suriya sərhədini keçib.

İsrail ordusunun 2 mart tarixli açıqlamasında qeyd olunub ki, Livandan raket atılması aşkar edildikdən sonra Şimali Livanda həyəcan siqnalları səsləndirilib. Təl-Əviv ordusu daha sonra paytaxt Beyrut da daxil olmaqla Livan boyunca hava hücumlarına başladığını elan edib, intensiv hava və dəniz hücumları ilə müşayiət olunan quru əməliyyatını genişləndirmək qərarına gəlib.

Livan Səhiyyə Nazirliyi son açıqlamasında 2 martdan bəri ölkə daxilində İsrail hücumlarında 1247 nəfərin öldüyünü bildirib.

Livan Fövqəladə Halların İdarə Edilməsi Orqanı həmçinin açıqlayıb ki, rəsmi məlumatlara görə, işğal və hücumlar səbəbindən ölkədə məcburi köçkünlərin sayı 1 milyon 162 min nəferi keçib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 03.04.2026-cı il tarixində gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə imkanı təmin ediləcəkdir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP Sədrinin müavini, Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə prokuroru Ergin Qafarova anası

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi Altay Həsənova əzizi

**RAUF HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevə anası

**FLORA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevə anası

**FLORA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyətindəki fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov və səfirliyin kollektivi Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu, kollektivi və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevə anası

**FLORA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi Altay Həsənova əzizi

**RAUF HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Rauf Quliyevə atası

**RƏHİM QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi Altay Həsənova əzizi

**RAUF HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Vüsal Nəsirli Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Vüsal Nəsirli Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi Altay Həsənova əzizi

**RAUF HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tovuz-Baltiya Şirkətinin rəhbəri Naiq Məmmədhəsənov və şirkətin kollektivi respublikanın baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tovuz-Baltiya Şirkətinin rəhbəri Naiq Məmmədhəsənov və şirkətin kollektivi Pərvanə Əliyevaya anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3350
Sifariş 395

Qiyməti 60 qəpik